RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 85 (9540) 27 aprel 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri

# AZƏRBAYCAN Avropa üçün əhəmiyyətli tərəfdaşdır




Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri çərçivəsində dövlət başçısı "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib. Prezident İİlham Əliyevin bu ölkənin Kansleri Olaf Şolts ilə təkbətək və geniş tərkibdə görüşləri olub.

Sonra Prezident İlham Əliyev və Almaniyanın Kansleri Olaf Şolts birgə mətbuat konfransı keçiriblər.

Dövlət başçısı İlham Əliyev Almaniyanın xarici işlər naziri Annalena Berbok, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşüb. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək və geniş tərkibdə görüşləri olub

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri aprelin 26-da başa çatıb.

2-4

## "COP29 bütün dünya üçün faydalı olacaq"

### Müxtəlif ölkələrin aparıcı beyin mərkəzlərinin təmsilçiləri bu fikirdədir



Məqsəd iqlim dəyişikliyi ilə mübarizə baxımından COP29-un uğurlu olmasıdır. Bu, eyni zamanda ölkəmiz üçün uğur hekayələrimizi diqqətə çatdırmaq üçün bir fürsətdir. Belə ki, evsahibliyi edəcəyimiz bu unikal tədbirə on minlərlə qonağın gəlməsi gözlənilir. Onlara deyəcəyimiz söz, göstərəcəyimiz nailiyyət çoxdur. Əlbəttə, ilk növbədə həm də təbiətlə, ekologiya ilə, iqlim dəyişiklikləri ilə bağlı olanlar.

Şübhəsiz ki, COP29-a evsahibliyi etmək həm də böyük məsuliyyətdir. Azərbaycanın bu məsələyə necə ciddi yanaşdığını bütün dünya görür. Aprelin 23-də ADA Universitetində keçirilmiş "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum bunun daha bir nümayişi oldu.

Tədbirdə dövlətimizin başçısı demişdir: "Sədrlik veriləndən dərhal sonra müxtəlif QHT-lər və media tərəfindən bizə qarşı hücumlar olmuşdur - yenə də neft hasil edən ölkə COP-a sədrlik edir. Sanki elə bilin ki, bu, bizim günahımız idi. Mənim isə onlara mesajım ondan ibarət idi ki, bizim neft ölkəsi olmağımız bizim günahımız deyil. Baxın görün, biz bu resurslardan necə istifadə edirik. Əvvəla baxın görün ki, biz bu resurslardan ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması üçün necə istifadə edirik. Sonra baxın görün ki, biz ondan infrastruktur, "yaşıl enerji" üçün necə istifadə edirik. Beləliklə, bu gün biz sabit neft və artan qaz hasilatına malikik, eyni zamanda "yaşıl enerji" layihələrini inkişaf etdiririk".

10

## Delimitasiya işlərinin 35 faizi yerinə yetirilib

### Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin Xidmətinin məlumatı

26 aprel 2024-cü il

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin təxminən 35 faizi 2024-cü il aprelin 26-dək yerinə yetirilib, 28 sərhəd dirəyi quraşdırılıb.

Hər iki dövlətin ekspert qruplarının işi davam edir.

## Sülhə doğru daha bir addım atılıb

Aprelin 23-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, biz 28 il gözlədik və ondan sonra suverenliyimizi güc yolu ilə bərpa etdik: "Biz bunu haqlı olduğumuz və edə bildiyimiz üçün etdik. Bizim üçün bu, ölüm-dirim məsələsi idi. Biz o zaman əmin deyildik ki, kimlər Ermənistan tərəfindən çıxış edəcək. Fərqli variantlar ola bilərdi. Onların heç biri bizim üçün xoş deyildi. Amma o zaman biz bu barədə düşünmürdük, ya suveren ləyaqətimizi bərpa etməli, ya da hamımız ölməli idik. Bizim yanaşmamız belə idi. Gözlədik, güc topladıq, beynəlxalq arenada işlədik. Biz mövqeyimizi sübuta yetirməyə və təcavüzün qurbanı olduğumuzu izah etməyə çalışırdıq, lakin bu, heç bir nəticə vermədi. Bəli, beynəlxalq qurumlar qətnamələr, qərarlar qəbul etdilər, amma bunlar icra olunmadı, icra mexanizmi yox idi. Beləliklə, biz bunu güc yolu ilə icra etdik. Dediyim kimi, biz sülhü müharibə ilə gətirdik".

2020-ci ilin payızında Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan, qırx dörd gün davam edən və Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsində, 2023-cü ilin sentyabrında aparılan lokal xarakterli antiterror əməliyyatları zamanı qazandığımız qələbələr tarixi ədalətin bərpa olunması idi. Digər tərəfdən, artıq qəhrəman Azərbaycan Ordusunun hünəri ilə separatizmin kökü birdəfəlik kəsilən Qarabağda sülhün əldə olunmasına tarixi fürsət yarandı.

Bu gün Cənubi Qafqazda davamlı sülhün, sabitliyin yaranması real görünür. "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevin tədbir iştirakçılarının suallarını cavablandırarkən dediyi kimi, Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və ardınca suverenliyini tam bərpa etməsi regionda dayanıqlı sülhə də birbaşa rəvac verib.

8




## Ölkəmiz qlobal dəhliz layihələrinin də əsas iştirakçılarındandır

Türkiyənin Qərbin bu gedişinə həmləsi gecikmədi. Prezident Rəcəb Tayyib Ərdoğanın İraq səfəri zamanı "Kalkınma yolu" ("İnkişaf yolu") marşrutu ilə bağlı müqavilə imzalandı. Yeni müqavilə İMEC-in iqtisadi dəyərinə böyük zərbə vurur. Belə ki, İraqın Bəsrə limanından başlanan, Türkiyədən keçən 1200 kilometrlik marşrut İMEC-dən iqtisadi cəhətdən Avropaya və əksinə yük daşımaq üçün daha sərfəli marşrutdur. Bu layihəyə Birləşmiş Ərəb Əmirlikləri ilə Qətər də qoşulub. Bununla dünya ticarətində önəm daşıyacaq marşruta aid sənədi dörd ölkə birlikdə imzalayıb.

Onu da qeyd edək ki, bu yolun istismara verilməsi üçün az vəsait və az vaxt lazımdır. Sözün qısası, görünən odur ki, yeni dünya düzənində türk dövlətləri qlobal miqyasda siyasi və beynəlxalq ticarət yolları ilə bağlı söz sahibinə çevrilir. Bu tarixi fürsət yeni yüzillikdə türk dövlətlərinə öz müstəqilliklərini qorumaqla yanaşı, dünyada söz sahibi olmaq imkanı da verəcək. Artıq üzümüzü başqa yerlərə tutmağa ehtiyac qalmayacaq. Üstəlik, bəzilərinin üzlərini bizə sarı döndərməyə məcbur olacaqları günə çox qalmayıb.

Bu tarixi imkanı ən yaxşı dəyərləndirən Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı andiçmə mərasimində yeni dünya düzənində türk dünyasının beynəlxalq əhəmiyyəti, hansı siyasi orbitdə ölkəmizin yer alacağı barədə demişdir: "Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

11

## Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri

# AZƏRBAYCAN Avropa üçün

## Prezident İlham Əliyev Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevi Almaniyanın Federal Kansleri Olaf Şolts və xarici işlər naziri xanım Annalena Berbok qarşıladılar.**

**Sonra tədbir iştirakçıları birgə foto çəkdirdilər.**

**Aparıcı: İndi isə biz Azərbaycan Respublikasının Prezidenti zatialiləri cənab İlham Əliyevin çıxışını dinləyəcəyik.**









### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Kansler.

Hörmətli xanım nazir.

Xanımlar və cənablar.

Əvvəlcə, "Petersberq Dialoqu"nda iştirak etmək üçün məni dəvət etdiyinə görə cənab Kanslerə təşəkkürümü bildirmək istəyirəm. Bu gün burada sizinlə olmaq böyük şərəfdir. COP29-a evsahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir. Hazırlıq üçün bizim bir ildən də az vaxtımız qalırdı. Beləliklə, biz yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik.

COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq.

Bunları söyləyəndə, mən 120 ölkəni birləşdirən hərəkatda, yəni Qoşulmama Hərəkatında bir neçə il - dörd il ərzində sədrliyimizi nəzərdə tuturam. Biz yekdil qərarla seçildik və sədrliyimiz yekdil qərarla bir il də uzadıldı. Sədrliyimiz zamanı biz Hərəkatın bir çox üzvləri ilə olduqca məhsuldar münasibətlər qurduq. Sədrliyimiz COVID-19-a təsadüf etdi. Beləliklə, biz çox məsuliyyətlə davrandıq və 80-dən artıq ölkəyə humanitar, maliyyə və texniki yardım göstərdik. Bir sözlə, ümid edirəm ki, həmin beynəlxalq platforma bizə Qlobal Cənub ölkələrini ümumi gündəliyə əlavə etmək imkanını yaradacaq. Eyni zamanda bir çox Avropa ölkələri ilə münasibətlər uğurla inkişaf edir. Avropa İttifaqının doqquz üzvü ilə Azərbaycan "Strateji Tərəfdaşlıq" haqqında razılaşmalar və bəyannamələr imzalayıb, yaxud qəbul edib. Bunları söylədikdə ümid edirəm ki, həmin beynəlxalq əlaqələr bizə həmrəyliyi gücləndirməyə imkan verəcək. Bizə məhz bu lazımdır. Bizə maliyyə lazımdır. Bizə həmrəylik lazımdır və bizə ortaq məsuliyyət lazımdır.

Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür. Hesab edirəm ki, bu, həmçinin əlavə üstünlükdür, çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Beləliklə, həmin müxtəlif rollar, fikrimcə, yaxşı həmrəylik ruhunu yaradacaq və bizə məqsədlərimizə nail olmağa imkan verəcək. COP-a evsahibliyi edəcək ölkə kimi seçilməyimizdən dərhal sonra bəzi mətbuat orqanları əsas diqqətini bizim enerji quruluşumuza və enerji tarixçəmizə yönəltdilər. Mən hər zaman demişəm ki, neft və qaz ehtiyatları bizim günahımız deyil. Bu, Tanrıdan verilən vəsilədir. Buna görə biz mühakimə olunmalı deyilik. Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, "yaşıl gündəlik"lə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik.

Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən Memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda "yaşıl gündəliy"imiz hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb.

Biz xarici tərəfdaşlar və sərmayədarlarla "yaşıl keçid" üzrə artıq nəhəng layihələrə başlamışıq. Bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Yalnız bu il ərzində 1300 meqavat Günəş və külək enerjisini istehsal etmək imkanını yaradacaq enerji stansiyalarının təməlqoyma mərasimi keçiriləcək. 2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat Günəş və yaşıl enerji imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 Günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq. Bir sözlə, bu, əslində, hər kəs üçün uduşlu variantdır. Biz olduqca münbit sərmayə mühitini yaratmışıq. Qeyd etdiyim bütün həmin "yaşıl enerji" layihələri xarici sərmayədarlar tərəfindən maliyyələşdirilir.

Azərbaycan, sadəcə, öz infrastrukturunu və çox yaxşı sərmayə mühitini təmin edir. Biz Avropaya lazım olan böyük həcmdə təbii qaza qənaət edəcəyik. Eyni zamanda hazırda Xəzərdə külək enerjisi stansiyalarından Avropaya vahid ötürülmə xətlərini, o cümlədən Qara dənizin dibi ilə kabeli çəkmək üçün texniki əsaslandırma işlərinin son mərhələsindəyik. Bu, dörd qiqavat həcmində Azərbaycanın "yaşıl enerji"sini Avropaya ixrac etmək imkanını yaradacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatlarımız 157 qiqavatdır. Bu, potensialın təzahürüdür. Uzun illər külək Bakı sakinləri üçün müəyyən narahatlıq yaradırdı. Lakin indi külək enerjisi böyük işlər, əməkdaşlıq və tərəfdaşlıq şəraitini yaradacaq və enerji təhlükəsizliyini gücləndirəcək. Bir sözlə, yekun fikrim ondan ibarətdir ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin, eyni zamanda artıq qeyd etdiyim kimi faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar.

Cənab Kansler, xanım nazir, dəvətə görə bir daha minnətdaram. Sizin aranızda olmaqdan böyük şərəf və iftixar hissi duyuram. Sizə uğurlu müzakirələr arzulayıram. Sağ olun.

* * *

Sonra **Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident Əliyev. Mən Sizi növbəti İqlim Konfransının təşkilatçısı, bizim qonağımız kimi salamlamaqdan məmnunam.

Hörmətli xanım Annalena Berbok, cənab nazirlər.

Xanımlar və cənablar, sizin hamınızı Berlində salamlamaqdan çox məmnunam.

Kansler Olaf Şolts Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentinin iqlim dəyişikliyi ilə bağlı qarşıda duran vəzifələrin həlli baxımından mühüm əhəmiyyətini vurğuladı. O, "yaşıl enerji"yə keçidlə bağlı bütün ölkələrin səyləri birləşdirməsinin vacibliyini xüsusi diqqətə çatdırdı. Artıq həmin istiqamətdə 78 dövlətin konkret iş birliyi yaratdığını dedi.

Olaf Şolts Dubayda keçirilmiş COP28-dən sonra bu sahədə məqsədyönlü tədbirlərin daha da gücləndirildiyini bildirərək dedi:

- Biz buradan Dubayda keçirilmiş beynəlxalq İqlim Konfransının uğurlarına boylanırıq. Eyni zamanda biz səy göstəririk ki, bu ilin noyabrında Bakıda, gələn il isə Belemdə keçiriləcək konfranslarla bugünkü konfransın uğurunu əlaqələndirək. Bizim məqsədimiz "Petersberq İqlim Dialoqu" vasitəsilə buna töhfə verməkdir.

Almaniyanın Kansleri iqlim dəyişikliyi ilə bağlı 2030-cu ilə qədər dünyada əsaslı irəliləyişə nail olunacağına əminliyini vurğuladı. O, qarşıda duran vəzifələrin həlli üçün Azərbaycanda keçiriləcək COP29-a qədər də ardıcıl iş aparılacağını vurğulayaraq bildirdi:

- Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya birlikdə "üçlük" olaraq öz qarşılarına məqsəd qoyublar ki, COP29 və COP30 istiqamətində milli səviyyədə müəyyən edilmiş töhfələrin birgə təqdim olunması üçün fəaliyyət göstərsinlər. Məhz bu istiqamətdə olan format uzunmüddətlidir və mən bunu alqışlayıram. Federal hökumət bütün gücü ilə bunu dəstəkləyəcək. Xanımlar və cənablar, Almaniya artıq bu istiqamətdə kurs götürüb.

Kansler Olaf Şolts iqlim dəyişikliyi ilə bağlı tədbirlərin lazımınca həyata keçirilməsi üçün ilkin hesablamaya görə təqribən 2,4 trilyon dollar vəsaitin lazım olacağını bildirdi. O, "yaşıl texnologiyalar"a keçid və qarşıda duran digər çoxsaylı vəzifələrin öhdəsindən bacarıqla gəlmək üçün birgə səyləri daha da gücləndirməyin zəruriliyini bildirərək vurğulayıb:

- Bakıda keçiriləcək konfransda 2025-ci ildən sonra da iqlimin maliyyələşdirilməsi əsas danışıqlar predmeti olaraq qalacaq. On beş il bundan əvvəl olduğu kimi, biz artıq gələcəyin texnologiyasından qoşqu kimi istifadə etmirik. Biz artıq nail olmuşuq ki, texnologiyaların qlobal səviyyədə maliyyələşməsi, yayılması mümkün olsun, özü də mümkün münasib qiymətlərlə.

## Prezident İlham Əliyevin Berlində Almaniyanın Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub



Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub.

## Prezident İlham Əliyevin Berlində Kansler Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib



Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib.

Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri

# əhəmiyyətli tərəfdaşdır

## Azərbaycan Prezidenti İlham Əliyev və Almaniyanın Kansleri Olaf Şolts birgə mətbuat konfransı keçiriblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts aprelin 26-da birgə mətbuat konfransı keçiriblər.**

**AZƏRTAC xəbər verir ki, əvvəlcə Almaniya Kansleri bəyanatla çıxış etdi.**

### Kansler Olaf Şoltsun bəyanatı



- Hörmətli cənab Prezident, Berlinə xoş gəlmisiniz.

Mən Sizi bizim hər ikimizin elə indicə iştirak etdiyimiz "Petersberq İqlim Dialoqu" münasibətilə buraya təşrif buyurduğunuza görə təşəkkür edirəm və salamlayıram.

Siz son 14 ay ərzində Almaniyaya dörd dəfə səfər etmisiniz. Sonuncu dəfə fevral ayında Münxen Təhlükəsizlik Konfransına gəlmişdiniz. Bu, onu göstərir ki, bizim müzakirə edəcəyimiz mövzular çoxdur, bu gün olduğu kimi. Təbii ki, biz xüsusən də Ermənistan və Azərbaycan arasında mövcud olan münaqişə haqqında da söhbət etdik. Hər ikimiz eyni fikirdəyik ki, bu münaqişə ancaq sülh yolu ilə həll olunmalıdır. Bunun üçün şanslar mövcuddur. Ona görə də çox gözəl bir amildir ki, Siz hazırda baş nazir Paşinyanla birbaşa əlaqədəsiniz. Münxendə bizim sonuncu görüşümüz çərçivəsində hər ikiniz məni əmin etdiniz ki, açıq olan suallar öz həllini yalnız sülh yolu ilə tapacaq. Bu, məni sevindirir.

Mən icazənizlə, bir daha onu bildirmək istəyirəm ki, Almaniya sizi məsələnin uzunmüddətli və davamlı həllinin tapılmasında dəstəkləməyə hazırdır, əgər siz hər ikiniz bunu istəyirsinizsə. Mən hər iki tərəfi həvəsləndirmək istərdim ki, lazımi kompromislər üçün istək və cəsarət göstərəsiniz. Mən düşünürəm ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu özündə şanslar və məsuliyyətlər gətirir.

Onu da qeyd edim ki, demarkasiya ilə əlaqədar ilkin razılıqlar bizi sevindirir. Yəni eşitdik ki, razılıq əldə etmisiniz. İndi bu dinamikanı saxlamaq və bu istiqamətdə cəsarətli addım atmağınızı istəyirəm. Həm Sizi, həm də Sizin əks tərəfiniz olan baş nazir Paşinyanı buna çağırıram.

Bizim görüşümüzün növbəti mövzusu da Rusiyanın Ukraynaya hücumudur və bu müharibənin Azərbaycana, Cənubi Qafqaza olan təsiridir. Biz hamımız bilirik ki, Rusiya özünün beynəlxalq hüquqazidd müharibəsi ilə Ukraynaya yüz minlərlə ağrı-acı gətirib. Bu amansız qırğın öz sonunu tapmalıdır. Putin öz müharibəsini sona çatdırmalı, əsgərlərini geri çəkməli, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü axır ki, tanımalı, qəbul etməlidir.

Cənab Prezident, Sizin bugünkü səfəriniz əsasən iqlim siyasəti çərçivəsindədir və Azərbaycan COP29-un sədrliyini üzərinə götürüb, yəni ev sahibi olacaq. COP28 çərçivəsində Dubayda vacib qərarlar qəbul olundu. Deməli, 2030-cu ilə qədər bərpaolunan enerji üç dəfə, enerji səmərəliliyi iki dəfə artırılmalıdır, metan tullantıları azaldılmalıdır. Həmçinin qeyd etmək istərdim ki, 2030-cu ilə qədər Azərbaycanın enerji sektorunda külək, Günəş və su-elektrik enerjisinin payını 30 faiz artırması çox gözəl bir xəbərdir. Almaniya 80 faizi hədəfləyib.

Düşünürəm ki, "yaşıl enerji" və hidrogen enerjisi sahələrində əməkdaşlıq üçün regionda böyük potensial mövcuddur və alman şirkətləri Azərbaycanda əməkdaşlıq etməyə maraqlıdırlar, əsasən də qeyd etdiyim kimi, hidrogen və bərpaolunan enerji sahələrində. Təbii ki, bunun üçün müvafiq çərçivə şərtləri mövcud olmalıdır.

Bakıda keçiriləcək Dünya İqlim Konfransı region üçün böyük şanslar gətirəcək. Biz iqlim siyasətinə aid sualları və Dubayda qəbul olunan qərarları birgə müzakirə edib yenidən qiymətləndirərək 2035-ci ilə qədər yeni iqlim məqsədləri, hədəfləri formalaşdıra və təbii ki, eyni zamanda iqlim maliyyələşdirmə məsələsini də irəliyə apara bilərik.

Bildiyiniz kimi, Almaniya bu məsələdə özünün böyük töhfəsini göstərir. İqlim maliyyələşdirilməsi məsələsində biz büdcəmizdən 6 milyard avro ayırmışıq və ümumilikdə 10 milyard avro səfərbər etmişik. Almaniya bununla etibarlı maliyyəçi olaraq qalır və özünün ədalətli töhfəsini göstərir.

İndi isə biz təbii ki, investisiya tələbatı məsələsini diqqət mərkəzinə gətirməliyik, özəl sektora iqlim mühafizəsinə sərmayə ayırmağa imkan yaratmalıyıq. Eyni zamanda bu günədək töhfə verən tərəflər daha çox töhfə verməlidir. Amma bununla yanaşı, digər ölkələr də iqlimin maliyyələşdirilməsi məsələsinə daha fəal töhfə verməlidirlər. Mən əmin olmaq istərdim ki, biz COP29 tədbiri çərçivəsində bununla əlaqədar müəyyən razılıqlar əldə edə biləcəyik.

Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində çox böyük rol oynayır və vacib tərəfdaşdır. Mən bu əməkdaşlıq üçün və enerji təchizatı sabitliyinə göstərdiyiniz vacib töhfənizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Biz, həmçinin sivil ictimaiyyət, azad media haqqında da müzakirə apardıq. Mən deyərdim ki, sivil cəmiyyətdə demokratiyanın ayrılmaz hissəsi canlı tənqidin mövcud olmasıdır. Fikir azadlığı, mətbuat azadlığı mövcud olmalıdır. Cənab Prezident, mən Sizə bu çətin dövrdə müxtəlif sahələr üzrə apardığımız danışıqlarımıza görə təşəkkürümü bildirmək istəyirəm. Biz hər ikimiz eyni fikirdəyik ki, mövcud olan əməkdaşlığı davam etdirə və dərinləşdirə biləcəyik. Sizə təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli cənab Kansler.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, dəvətə görə Sizə təşəkkürümü bildirirəm. Siz də qeyd etdiyiniz kimi, son vaxtlar mənim Almaniyaya səfərlərim müntəzəm xarakter alıb. Deyə bilərəm ki, son müddət ərzində Almaniya-Azərbaycan əlaqələri öz sürətli inkişaf dövrünü yaşayır. Mən keçən ilin mart ayında burada idim, iki ay bundan əvvəl biz Münxendə cənab Kansler ilə görüşmüşdük. İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün səhər "Petersberq İqlim Dialoqu" forumunun işində iştirak edərkən bir daha öz niyyətimizi ifadə etdik. Sizə COP29-la bağlı Azərbaycana göstərdiyiniz dəstəyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Bizim komandalarımızın üzvləri bir-biri ilə sıx təmasdadırlar. COP29-a evsahibliyi etmək bizim üçün həm böyük şərəf, həm də məsuliyyətdir. Biz buna hazırıq və Azərbaycanın "yaşıl gündəli"yi artıq dünyaya bəllidir.

Bu gün səhər çıxış edərkən bildirdim ki, 2027-ci ilin sonuna qədər 9 Günəş və külək-elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və Günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədərdir. Biz indi Avropaya "yaşıl enerji"ni ixrac etmək üçün fəal çalışırıq və hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün "yaşıl enerji" təchizatçısı da olacaqdır.

Təbii qaza gəldikdə, Avropa İttifaqının Energetika Komissiyası Azərbaycanı panavropa qaz təchizatçısı kimi qiymətləndirir. Bizim Avropaya qaz təchizatımız strateji tərəfdaşlıq əsasında həyata keçirilir. 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan müvafiq memorandum qəbul etmişlər. 2027-ci ilə qədər biz Avropaya ixrac edəcəyimiz qazın həcmini 20 milyard kubmetrə çatdırmaq əzmindəyik. Avropada təbii qaza - yeni mənbələrdən olan qaza tələbat artır. Əgər 2021-ci ildə biz Avropa İttifaqı ölkələrinə 8 milyard kubmetr qaz təchiz etmişdiksə, bu il bu rəqəm 12 milyarda çatıb. Biz əlavə sərmayə qoyuruq, əlavə vəsait ayırırıq ki, Avropa ölkələrini bu məsələdə dəstəkləyək. Beləliklə, həm ənənəvi enerji növləri, eyni zamanda bərpaolunan enerji növləri ilə zəngin Azərbaycan Avropa üçün uzun illər bundan sonra da əhəmiyyətli tərəfdaş olacaqdır.

Regional təhlükəsizliyə gəldikdə, Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını biz yüksək qiymətləndiririk. Cənab Kansler, Sizin dəvətinizlə Azərbaycan və Ermənistan xarici işlər nazirləri bu yaxınlarda Almaniyada görüşmüşlər. Almaniyanın xarici işlər naziri xanım Berbok da öz dəstəyini göstərmişdir. Növbəti görüş Qazaxıstanda keçiriləcək və beləliklə, biz sülh sazişinin imzalanmasına doğru əlavə addımlar atırıq.

Azərbaycan 2020-ci ildə öz suveren ərazisinin böyük hissəsini işğaldan azad etmişdir. Keçən ilin sentyabr ayında isə suverenliyini tam bərpa etmişdir. Bu gün Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib. Təbii ki, bu, tarixi nailiyyətdir və onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, BMT Nizamnaməsinin 51-ci maddəsinə söykənərək öz ərazi bütövlüyümüzü hərbi-siyasi yollarla təmin etdik.

Bu gün isə artıq Azərbaycanla Ermənistan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası və hətta demarkasiyası prosesi də başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılır. Onu da bildirməliyəm ki, Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də öz fəaliyyətini bu gün səhər dayandırmışdır, buna artıq ehtiyac duyulmur.

Yəni sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə biz əməkdaşlıq etməyə hazırıq. Ümid edirik ki, çox vaxt keçmədən bu istiqamətdə də müsbət addımlar atılacaq. Biz Almaniyanın bu sahədəki dəstəyini xüsusilə qiymətləndiririk və buna görə Sizə minnətdarıq.

* * *

Daha sonra Prezident İlham Əliyev və Kansler Olaf Şolts jurnalistlərin suallarını cavablandırdılar.

**Sual:** Cənab Prezident, Azərbaycanda insan hüquqları və mətbuat azadlığı ilə əlaqədar fikrinizi bilmək istərdim. Bir neçə kəskin tənqidi yanaşması olan İmran Əliyev adlı jurnalist həbs edilmişdi. İmran Əliyevin ailəsi deyir ki, guya, onun hüquqları pozulur və o, hazırda həbsdədir. Bununla əlaqədar nə deyə bilərsiniz?

Cənab Kansler, Siz cənab Prezidentlə insan hüquqları haqqında da ətraflı danışdınızmı?

**Prezident İlham Əliyev:** Azərbaycanda media azadlığı təmin edilir. Azərbaycanda heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir. Ona görə Azərbaycanı medianın inkişafını guya əngəlləmək istiqamətində atılmış addımları ilə tənqid etmək ədalətsiz olardı. Əgər internet azaddırsa, hansı məhdudiyyətdən söhbət gedə bilər?

Fərdi məsələlərə, hadisələrə gəldikdə isə təbii ki, hüquq-mühafizə orqanları bütün məsələləri araşdırırlar. Bir müddət bundan əvvəl xaricdən qanunsuz maliyyələşən bəzi media orqanlarının nümayəndələri istintaq orqanları tərəfindən saxlanılıb. Bu da Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə aparılıb. İstənilən ölkə öz qanunlarını müdafiə etməlidir. Əgər xaricdən qanunsuz vəsait alan hansısa media nümayəndəsi istintaqa cəlb edilibsə, o demək deyil ki, bizdə media azad deyil. Sadəcə olaraq, hər kəs qanun çərçivəsində fəaliyyət göstərməlidir. Biz istənilən ölkə kimi öz media məkanımızı xarici neqativ təsirdən qorumalıyıq və hər kəs qanunlara əməl etməlidir. Bir sözlə, demək istərdim ki, Azərbaycanda azad cəmiyyət var, insanlar tam azad və sərbəst şəkildə yaşayırlar, qururlar, yaradırlar, o cümlədən media nümayəndələri də.

**Kansler Olaf Şolts:** Mən də suala cavab verim. Təbii ki, biz söhbətimiz çərçivəsində bu məsələyə də toxunduq və ətraflı danışdıq. Bildiyiniz kimi, biz federal respublikayıq, ümumiyyətlə, bütün dünya üzrə insan hüquqlarının qorunmasına öz töhfəmizi veririk. Təbii ki, hər bir ölkədə azad mətbuat olmalıdır, insan hüquqları pozulmamalıdır. Bu, ümumi bir vəziyyətdir. Əlbəttə, bu da özlüyündə bir sirr deyil ki, müxtəlif ölkələrdə bu vəziyyətin yaxşılaşdırılması üçün potensial var.

**Sual:** Mən Kərimova Fatimə, "Mikroskop media"nın həmtəsisçisiyəm. Azərbaycanlı jurnalistəm. Həmkarım sualımın əsas hissəsini məndən əvvəl verdi. Ona görə mən Sizə digər sualımı verəcəyəm. Cənab Prezident, müharibədən sonra Qarabağda yenidənqurma-bərpa işləri başlayıb və bir çox layihələr icra olunur. Bu müddət ərzində buraya milyardlarla manat yatırılıb. Amma həmin layihələrlə bağlı bir çox detallar şəffaf deyil, yəni həm ictimaiyyətin, həm jurnalistlərin bu məlumatlara əlçatanlığı kifayət qədər deyil. Həm tenderlərin, tenderlərdə iştirak edən şirkətlərin və digər şirkətlərin seçilməsi və sair kimi detallar. Mən bunun səbəbini öyrənmək istəyirəm ki, bəzi məsələlər niyə qapalıdır və niyə bu detallar şəffaf deyil, açıq deyil bizə. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Əslində, sualınız təəccüb doğurur, çünki Qarabağda və Şərqi Zəngəzurda bütün bərpa, yenidənqurma işləri maksimum şəffaf şəkildə aparılır. Ayrılan vəsaitlə bağlı müntəzəm olaraq ictimaiyyətə, o cümlədən media nümayəndələrinə məlumat verilir və sirr deyil. Bu yaxınlarda elan edilmiş məlumat göstərir ki, işin həcmi doğrudan da genişmiqyaslıdır. Bu ilin sonuna qədər, müharibə başa çatandan sonra Qarabağa və Şərqi Zəngəzura 12 milyard manat, yəni təqribən 7 milyard dollar ətrafında vəsait yatırılır və yatırılacaqdır. Görülən bütün işlər göz qabağındadır. Tender prosedurlarına tam əməl edilir. Mən sözün düzü, bilmirəm, sizdə bu məlumat haradandır. Yəqin ki, siz bunu hansısa dəqiqləşdirilməmiş mənbədən götürürsünüz. Amma azad olunmuş torpaqlara müntəzəm surətdə media turları təşkil edilir. O cümlədən xarici media nümayəndələri də vəziyyətlə tanış olurlar. Əgər sizin belə imkanınız olsaydı, görərdiniz ki, Ermənistan bizim torpaqlarımızı necə viran qoyub və azad edilmiş torpaqlara bu gün qayıdan vətəndaşlar hansı sevinc hissləri yaşayırlar.

Müharibədən cəmi üç il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır, şəhidlərə Allahdan rəhmət diləmək sözləri ilə qayıdır. Bu, ümumxalq məsələsidir. Necə ki, torpaqlarımızın azad edilməsi ümumxalq məsələsi idisə, bu gün torpaqların bərpa edilməsi də ümumxalq məsələsidir. Mən bilirəm ki, Azərbaycan mediasının mütləq əksəriyyəti bizim fəaliyyətimizi bəyənir, dəstəkləyir və görülən işləri də təqdir edir.

**Sual:** Hörmətli cənab Kansler, iqlim məsələlərinə dair sualım var. İkinci dəfədir, beynəlxalq iqlim konfransına o ölkələr tərəfindən evsahibliyi edilir ki, onlar qazıntı enerjisi istehsal edirlər. Bu, nəyə görə belədir? Bunun səbəbi nədir? İkinci sualım, Siz cənab Makronun dünənki çıxışı ilə əlaqədar bəzi şərhlər vermişdiniz. Sizin şərhlərinizi dəqiq bilmək istərdik. Siz Avropa Birgə Fondu ilə əlaqədar bəzi şərhlər vermişdiniz, xahiş edirəm, onu aydınlaşdırın.

Cənab Prezident, Sizə də konkret bir sualım var. Bilmirəm, Siz yaxın Şərqdə - Qəzza zolağında baş verən hadisələr haqqında da danışmısınızmı? Elə fikirlər var ki, guya, İsrailin Baş nazirinə qarşı həbs cəzası, həbs əmri mövcuddur. Belə bir fikir varmı? Siz belə bir fikri dəstəkləyərdinizmi? Təşəkkür edirəm.

**Kansler Olaf** Şolts: Sualın birinci hissəsi ilə bağlı qeyd etmək istərdim ki, mən qalıq enerjini istehsal edən ölkələrin iqlim konfransına evsahibliyi etməsinə şans kimi baxıram. Ona görə ki, burada şanslar yaranır və həmçinin müəyyən maliyyələşdirmə məsələlərini də nəzərə almaq lazımdır. Bir dəfə Almaniya da öz böyük maliyyə töhfəsini verib. Düşünürəm ki, bu kimi ölkələrin də buraya qatılması, konfransı təşkil etməsi, dəstəyini göstərməsi böyük şansdır. Nəyə görə yox? Yəni təbii ki, eyni zamanda qalıq enerjinin belə deyək, miqdarını azaltmaq da bir iqlim mühafizəsi kontekstində olan mövzulardan biridir. Həmçinin enerji təhlükəsizliyi məsələləri nəzərə alınmalıdır, amma bununla yanaşı, bərpaolunan enerji məsələləri də diqqət mərkəzində qalmaqdadır. Yəni düşünürəm ki, bu, bizlərə müəyyən şanslar verən simbiozdur, qısa desəm, çətin yoldur, qəliz yoldur, amma ağıllı yoldur. Sonuncu COP da çox gözəl keçmişdi. Ona görə də düşünürəm ki, qarşıdan gələn konfrans da uğurlu olacaq. Mən qarşıdakı tədbirə də sevinirəm. Orada geniş debat və diskussiya aparılmalıdır.

**Prezident İlham Əliyev:** Bu gün biz cənab Kanslerlə daha çox Almaniya-Azərbaycan ikitərəfli münasibətlərini və regional təhlükəsizlik məsələlərini, o cümlədən COP29 ilə bağlı hazırlıq işlərini müzakirə etmişik. Digər beynəlxalq məsələlərin müzakirəsi aparılmamışdır.

O ki qaldı, Yaxın Şərqdəki vəziyyətə, Azərbaycanın mövqeyi hər zaman birmənalı olub. Fələstin xalqının azadlığı və müstəqilliyi hər zaman Azərbaycan tərəfindən dəstəklənib. Yaxın Şərqdə müharibənin və hərbi əməliyyatların tezliklə dayandırılması hər zaman Azərbaycan tərəfindən ifadə edilib.

Qaldı ki, sualın digər hissəsinə, deyə bilərəm, neftlə, qazla zəngin olan ölkələr məhz buna görə qınaq obyektinə çevrilməməlidir. Dünyada bu məsələ ilə bağlı ayrı-seçkilik, diskriminasiya aparılmamalıdır. Neft və qaz Tanrıdan verilən böyük nemətdir və ölkələrə bu nemətə görə qiymət verilməlidir. Azərbaycan neftdən, qazdan əldə olunmuş gəlirlərdən düzgün istifadə edir. Buna görə də Azərbaycanda yoxsulluq şəraitində yaşayanların faizi son 20 il ərzində 50 faizdən 5 faizə düşmüşdür. Məhz buna görə Azərbaycan öz iqtisadi potensialını ortaya qoya bilib. Bizim birbaşa xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 7,9 faizinə bərabərdir. Neftdən, qazdan gələn gəlirlər cəmiyyətdə ədalətli bölünür və bu gün ilk növbədə, Qarabağın və Şərqi Zəngəzurun bərpasına istiqamətləndirilir.

Ona görə neftlə, qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalıdır. Bu ölkələr, o cümlədən bizdən əvvəl COP-u keçirmiş Misir və Birləşmiş Ərəb Əmirlikləri iqlim məsələlərinin həlli üçün çox böyük səylər göstərmişdir və bu gün Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya, - bildiyiniz kimi, Braziliyada da təbii sərvətlər kifayət qədər böyükdür, - üçlük şəklində fəaliyyət göstərirlər. Bizim niyyətimiz budur. Biz istəyirik ki, əldə edilmiş gəlirləri "yaşıl enerji"yə sərf edək, bu istiqamətdə addımlar atırıq və COP29 da qarşıdurma arenası olmayacaq. Azərbaycan ev sahibi kimi körpülər yaradacaq. Azərbaycan Qərblə Qlobal Cənub arasında körpü rolunu oynamaq fikrindədir, o cümlədən "yaşıl enerji"yə keçidlə və iqlim dəyişikliyi ilə bağlı.

**Sual:** Vüqar Seyidov, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). Mənim sualım cənab Kanslerədir. Cənab Kansler, Almaniyanın Federal Daxili İşlər Nazirliyinin 2023-cü ilin iyun ayında yaydığı islamofobiya üzrə ekspertlər cəmiyyətinin hesabatına əsasən, ölkədə keçirilmiş sorğunun iştirakçılarının təxminən yarısı islamofob fikirlər səsləndirmişdir. Almaniya cəmiyyətində ksenofobiya və irqçilik kimi təhlükəli tendensiyaları Siz nə ilə izah edə bilərsiniz və ümumiyyətlə, bu istiqamətdə Sizin hökumətiniz hansı tədbirlər görür? Təşəkkür edirəm.

**Kansler Olaf Şolts:** Siz bildiyiniz kimi, dövlət bu məsələyə çox böyük diqqətlə yanaşır. Biz qanun çərçivəsində hərəkət edirik və digər siyasi maarifləndirmə tədbirləri həyata keçiririk. Ümumiyyətlə, müsəlmanlara qarşı, rasizm məsələlərinə çox ciddi yanaşırıq və bunun qarşısının alınması üçün əlimizdən gələni edirik. Dünya miqyasında siz müqayisə etsəniz, görərsiniz ki, burada səylər çoxdur. Almaniya o ölkədir ki, bir çox millətlərin üzvləri burada bir-biri ilə sülh şəraitində yaşayırlar və burada dini mənsubiyyət, dini fərqlilik heç bir rol oynamır.

## Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri

# AZƏRBAYCAN Avropa üçün əhəmiyyətli tərəfdaşdır

## Prezident İlham Əliyevin Berlində Almaniyanın xarici işlər naziri ilə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Annalena Berbok "Petersberq İqlim Dialoqu" çərçivəsində aparılmış müzakirələrin vacibliyini və Prezident İlham Əliyevin bu əsnada çıxışını qeyd etdi. O, COP29-la əlaqədar Almaniya ilə Azərbaycanın müvafiq heyətləri arasında sıx əməkdaşlığın olduğunu və mütəmadi əsasda məsləhətləşmələrin aparıldığını müsbət hal kimi qiymətləndirdi. Almaniyanın Azərbaycanın COP29-a sədrliyinin dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəyini dedi.

Azərbaycan Prezidenti COP29-la əlaqədar Almaniya ilə əməkdaşlığa və "Petersberq İqlim Dialoqu" formatındakı müzakirələrə dəvətə görə bir daha təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi prosesi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin tərkibi olaraq ərsəyə gəlib.

Annalena Berbok Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini bundan sonra da dəstəkləyəcəyini vurğuladı.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında keçirilmiş görüşün önəmini qeyd etdi, bu görüş çərçivəsində aparılmış müzakirələrin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə ciddi təkan verdiyini bildirdi.

Dövlətimizin başçısı Almaniya xarici işlər nazirinin dəstəyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında sülh müqaviləsi üzrə danışıqların aparıldığını vurğuladı, bunun sülh müqaviləsi üzrə danışıqların irəli aparılması üçün vacib addım olduğunu dedi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlar və dialoq vasitəsilə sərhədlərin delimitasiyası, hətta demarkasiyası sahəsində əldə olunmuş uğurları müsbət addım kimi qiymətləndirdi, regionda sabitliyin artıq təmin olunduğunu qeyd etdi.

Azərbaycanın sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini deyən Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinə sadiq olduğunu vurğuladı.

Dövlətimizin başçısı Qazaxıstan tərəfinin təklifi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində növbəti görüşün Qazaxıstanda keçiriləcəyini dedi.

## Prezident İlham Əliyevin Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub.

## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib



**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə "Petersberq İqlim Dialoqu"nun əhəmiyyəti və Prezident İlham Əliyevin bu tədbirdə çıxışı qeyd olundu.

Dövlətimizin başçısı tədbirə dəvətə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı COP29-la əlaqədar Almaniya ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq və heyətlər arasında görüşlərin önəmi xüsusi vurğulandı. COP29-la bağlı yaradılan "üçlük" mexanizminin əhəmiyyətinə toxunuldu, Almaniyanın COP29-la əlaqədar Azərbaycana bundan sonra da dəstək göstərəcəyi diqqətə çatdırıldı.

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin təşəbbüskarı məhz Azərbaycan tərəfi olub. Belə ki, sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplər Azərbaycan tərəfindən formalaşdırılıb və təqdim olunub. Azərbaycan tərəfi, həmçinin bunun əsasında sülh müqaviləsinin mətnini hazırlayıb. Dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kansleri Olaf Şoltsun dəstəyi ilə Ermənistanın baş naziri ilə keçirilmiş görüşü, bu görüş çərçivəsində də məhz delimitasiya və demarkasiya məsələlərinin, sülh gündəliyinin irəlilədilməsinə dair müsbət müzakirələrin olduğunu qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, Almaniyanın xarici işlər nazirinin dəstəyi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri arasında görüş keçirildi və bu görüşdə sülh müqaviləsi üzrə əsaslı müzakirələr aparıldı.

Söhbət zamanı sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində iki ölkə arasında birbaşa danışıqlarda əldə edilmiş nəticələr qeyd olundu.

Prezident İlham Əliyev Qazaxıstan tərəfinin təklifi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə danışıqları davam etdirmələri üçün növbəti görüşün Qazaxıstanda təşkil olunacağını dedi.

Frank-Valter Ştaynmayer qeyd etdi ki, Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyini yaxından dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Berlində Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri ilə görüşü keçirilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, Sultan Əhməd Əl-Cabir Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl-Nəhyanın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir BƏƏ-nin COP28-in sədri və ev sahibi olaraq Azərbaycanla yaxından işləməkdən məmnunluğunu bildirərək, COP29 ilə bağlı BƏƏ-nin Azərbaycana dəstəyini əsirgəmədiyini diqqətə çatdırdı, bu istiqamətdə birgə işləməyə və əməkdaşlığa hazır olduqlarını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla BƏƏ arasında birgə fəaliyyətin əhəmiyyətini və COP28-də "üçlük" mexanizminin yaradılmasının vacibliyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla BƏƏ arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu, ölkəmizin "yaşıl enerji" sahəsinə BƏƏ tərəfindən yatırılan investisiyalar nəticəsində bərpaolunan enerji ixracı imkanlarının yaranması və bu istiqamətdə potensialın artması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.

## Prezidentin Almaniyaya işgüzar səfəri başa çatıb




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri aprelin 26-da başa çatıb.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 231 QƏRAR Bakı şəhəri, 25 aprel 2024-cü il

### "Dəmiryol nəqliyyatı təyinatlı torpaqların sərhədlərinin kağız üzərində və elektron formada (ArcGİS proqramında mdb formatda) aktual qrafik təsviri"nin təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.6-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dəmiryol nəqliyyatı təyinatlı torpaqların sərhədlərinin kağız üzərində və elektron formada (ArcGİS proqramında mdb formatda) aktual qrafik təsviri" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti bu Qərarın 1-ci hissəsində nəzərdə tutulmuş dəmiryol nəqliyyatı təyinatlı torpaqların sərhədləri (dəmir yolunun təhkim zolağı və xüsusi mühafizə zonasının da hüdudları, döngə nöqtələri və onların koordinatları göstərilməklə) barədə məlumatları dövlət torpaq kadastrına daxil etsin və həmin torpaqlar üzərində hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını təmin etsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Baş prokuror** Kamran Əliyev | Tərtər | Tərtər, Ağdam, Bərdə, Goranboy, Xocalı | 03 |
| 2. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Ucar | Ucar, Kürdəmir, İmişli, Saatlı, Sabirabad, Zərdab | 03 |
| 3. | **Mədəniyyət naziri** Adil Kərimli | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | 06 |
| 4. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 07 |
| 5. | **Baş prokuror** Kamran Əliyev | Göyçay | Göyçay, Kürdəmir, İsmayıllı, Qəbələ | 14 |
| 6. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Yevlax | Yevlax, Mingəçevir, Bərdə, Ağdaş | 14 |
| 7. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Yardımlı | Yardımlı, Lənkəran, Astara, Lerik, Masallı | 15 |
| 8. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı | 15 |
| 9. | **Ədliyyə naziri** Fərid Əhmədov | Tovuz | Tovuz, Şəmkir, Gədəbəy | 17 |
| 10. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı | 17 |
| 11. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 17 |
| 12. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Ağsu | Ağsu, İsmayıllı | 17 |
| 13. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Füzuli (Horadiz şəhəri) | Füzuli, Beyləqan, Xocavənd | 17 |
| 14. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Şəki | Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | 18 |
| 15. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | 23 |
| 16. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Ağcabədi | Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Zərdab, Xocavənd | 23 |
| 17. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Qazax | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | 23 |
| 18. | **Energetika naziri** Pərviz Şahbazov | Ağcabədi | Ağcabədi, Beyləqan, Füzuli, Ağdam, Bərdə, Zərdab, Xocavənd | 24 |
| 19. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Ağsu | Ağsu, İsmayıllı | 24 |
| 20. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Yevlax | Yevlax, Mingəçevir | 24 |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Ağdam (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | 24 |
| 22. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Göyçay | Göyçay, Ağdaş, Ucar | 24 |
| 23. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Ağstafa | Ağstafa, Qazax, Tovuz | 24 |
| 24. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab | 27 |
| 25. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Qobustan | Qobustan, Şamaxı | 29 |
| 26. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Şəki | Şəki, Qax | 29 |
| 27. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Gədəbəy | Gədəbəy, Şəmkir | 31 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

## Monteneqro hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib

**Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqroya rəsmi səfəri çərçivəsində bu ölkənin Parlamentinin Sədri Andrija Mandiç ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə, tərəflər arasında təkbətək görüş keçirilib. Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Görüşdən sonra Sahibə Qafarova xatirə kitabını imzalayıb.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə görüş davam edib.

Azərbaycan Milli Məclisinin Sədrini səmimiyyətlə salamlayan Andrija Mandiç bu səfərin ölkələrimiz və qanunverici orqanlarımız arasında əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə ölkələrimizin dost və etibarlı tərəfdaş olduqları, bir çox məsələlərdə ortaq dəyərləri və fikirləri bölüşdükləri qeyd edilib.

Andrija Mandiç ölkəsinin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. Görüşdə ötən il ölkələrimiz arasında əlaqələrin yaradılmasının 15 illiyinin qeyd olunduğu vurğulanıb. Bildirilib ki, bu illər ərzində bir sıra sahələrdə münasibətlərimiz müsbət inkişaf yolu keçib.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edərək, ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin müstəsna rolunu qeyd edib.




Görüşdə ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri kimi parlamentlərin qarşılıqlı fəaliyyətinin əhəmiyyəti qeyd olunaraq vurğulanıb ki, bu istiqamətdə də əlaqələri daha da dərinləşdirmək baxımından qarşılıqlı səfərlər və dialoqu davam etdirmək çox vacibdir.

Bu səfərin Milli Məclisin Sədri kimi Monteneqroya ilk rəsmi səfəri olduğunu bildirən Sahibə Qafarova bu ölkə parlamentinin rəhbərləri ilə baş tutmuş görüşlərini məmnunluqla xatırlayıb.

Söhbət zamanı dostluq qruplarının birgə fəaliyyətinin önəmi diqqətə çatdırılıb. Qeyd olunub ki, dostluq qrupları müntəzəm təmaslar, dialoq və fikir mübadiləsi ilə parlamentlərimiz arasında körpü rolunu oynayır. Tərəflər parlament komitələri arasında da əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıblar.

Spiker Sahibə Qafarova görüşdə regionda mövcud olan vəziyyət barədə də geniş məlumat verib. O, Azərbaycanın öz ərazilərini 30 illik işğaldan azad edərək, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini xatırladaraq deyib ki, hazırda Azərbaycanın təşəbbüsü ilə ölkəmizin irəli sürdüyü 5 prinsip əsasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur.

Spiker Sahibə Qafarova, hazırda sülh sazişi üzrə danışıqlar haqqında məlumat verərək, Emənistanla Azərbaycanın bu gün sülhə yaxın olduqlarını bildirib. O, Ermənistanın işğal etdiyi 4 kəndin Azərbaycana qaytarılmasına razılıq verməsinin bu iki ölkənin heç bir vasitəçilik və kənar müdaxilə olmadan birbaşa danışıqlar yolu ilə müsbət nəticə əldə edə biləcəyinin göstəricisi olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri təəssüflə bəzi dövlətlərin, ilk növbədə Fransanın regionumuzda gərginliyi artırmaq üçün addımlar atdığını bildirib. Spiker diqqətə çatdırıb ki, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlarda Azərbaycanın yeni müharibəyə hazırlaşması yönündə uydurma, həqiqətdən uzaq iddialarla ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, antiazərbaycan siyasəti həyata keçirir. Onun sözlərinə görə, Fransa həmçinin Ermənistanı da silahlandırır ki, bu da sülhə xidmət etməyən, yeni münaqişənin alovlanmasına hesablanmış yanaşmadır.

Sahibə Qafarova aprelin 25-də Avropa Parlamentinin Azərbaycanda vətəndaş cəmiyyəti və insan hüquqları məsələsinə dair obyektivlikdən uzaq, yalan və saxta məlumatlar üzərində qurulmuş qətnamə qəbul etdiyini xatırladaraq, AP-nin bu addımını ölkəmizə qarşı qərəzli siyasi aksiya kimi qiymətləndirib. O, bu təşkilatın Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində alətə çevrildiyini deyib.

Monteneqro Parlamentinin Sədri Andrija Mandiç isə deyib ki, onun ölkəsi hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. O, imzalanacaq sülh sazişinin regionda sülh və əməkdaşlığa töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Görüşdən sonra iki ölkənin spikeri Monteneqro parlamentində yaradılan "Barbara Prammer Demokratiya Emalatxanası"nda da iştirak ediblər. Spikerlər burada şagirdlərlə görüşüb, onların suallarını cavablandırıblar.

*"Azərbaycan"*

## Azərbaycan və Monteneqro arasında əlaqələr strateji tərəfdaşlıq xarakteri daşıyır

**Monteneqro Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova bu ölkə Baş nazirinin müavini Aleksa Becic ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparılıb.

Bildirilib ki, Azərbaycan və Monteneqro arasında bir sıra sahələrdə əməkdaşlıq üzrə qeydə alınan inkişaf göstəriciləri digər sahələrdə də əlaqələrin daha da genişləndirilməsinə imkan verir.

Baş nazirin müavini ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, ölkəsinin bu əlaqələrə böyük önəm verdiyini söyləyib.

Milli Məclisin Sədri Sahibə Qafarova Aleksa Becic ilə bundan öncəki görüşünü xatırladaraq, qanunverici orqanlarımız arasında əməkdaşlığın da Azərbaycan və Monteneqro arasında münasibətlərə töhfə verdiyini söyləyib.

Görüşdə spiker Sahibə Qafarova Baş nazirin müavininə regionda mövcud olan vəziyyət, ölkəmizin sülh təşəbbüsləri, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi böyük tikinti və quruculuq işləri, nəhəng layihələr barədə də geniş məlumat verib.

Söhbət zamanı iqtisadi əlaqələrin ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsas komponentlərindən birini təşkil etdiyi vurğulanıb. Azərbaycanın Avropanın enerji təchizatının şaxələndirilməsində mühüm tərəfdaş kimi rolunu nəzərə alaraq, ölkələrimizin bu sahədə əməkdaşlığı genişləndirmək üçün mövcud olan potensialı, həmçinin turizm sektorunda nəzərə çarpan davamlı artım meyilləri, Azərbaycanın müasir nəqliyyat infrastrukturuna malik tranzit ölkə kimi mühüm rolu, bu sahədə əməkdaşlıq imkanları qeyd olunub. Təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinin ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə, insanlar arasında təmasların dərinləşməsinə töhfə verəcəyi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Əmək və sosial siyasət komitəsinin iclasında 3 məsələ müzakirə olunub

**Aprelin 26-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, icalsda 3 məsələ müzakirə olunub.**



Komitənin sədri Musa Quliyev ilk olaraq "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. Bildirilib ki, ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında parlamentə təqdim edilmiş layihədə ümumilikdə 3 məcəllədə və 5 qanunda dəyişikliklər olunur. Komitə sədri layihəyə əsasən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanuna təklif olunan dəyişiklikləri diqqətə çatdırıb.

Sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsi (ikinci oxunuş) barədə məlumat verilib. Qeyd olunub ki, layihədə təklif olunan dəyişikliklər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinə uyğun olaraq hazırlanıb.

İclasda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) də müzakirə olunub. Bildirilib ki, layihə "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanuna uyğunlaşdırılma məqsədi ilə hazırlanıb.

Hər üç qanun layihəsi müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Heydər Əliyev Fondu ilə Türkiyənin Sıfır Atık Fondu arasında Anlaşma Memorandumu imzalanıb








**Aprelin 26-da Heydər Əliyev Fondunda Türkiyənin Sıfır Atık Fondunun nümayəndələri ilə görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr haqqında danışıb.

2004-cü il mayın 10-da yaradılan və bu il fəaliyyətinin 20 ili tamam olan Heydər Əliyev Fondunun prioritet sahələrindən birinin ətraf mühitin qorunması üzrə layihələr olduğunu bildirən Anar Ələkbərov Fondun bu istiqamətdə reallaşdırdığı və nəzərdə tutulan tədbirlərini diqqətə çatdırıb.

Görüşdə bu il Azərbaycanın COP29 kimi mühüm beynəlxalq tədbirə evsahibliyi edəcəyi, ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulduğu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizi "Yaşıl enerji" zonası elan etdiyi, həmin ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsinin planlaşdırıldığı bildirilib. Qeyd edilib ki, Heydər Əliyev Fondu ətraf mühitin qorunması istiqamətindəki layihələri ilə ölkəmizdə bu sahədə reallaşdırılan işlərə önəmli dəstək verir.

Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə yaradılan Sıfır Atık Fondunun Qəyyumlar Şurasının sədri Samed Ağırbaş təmsil etdiyi qurumun əsas məqsədinin ətraf mühitin, insan sağlamlığının qorunması olduğunu bildirib, tullantı sularının təkrar istifadəsi və emalının təşviqi kimi məsələlərə xüsusi önəm verdiklərini və bu istiqamətdə həyata keçirilən layihələri qeyd edib. Görüşdə Heydər Əliyev Fondu ilə Sıfır Atık Fondu arasında COP29 çərçivəsində, eyni zamanda ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığı, mədəni mübadilənin təşviqi və mədəni irsin qorunması sahəsində birgə layihələri nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.

# "Ədibin evi"ndə Mir Cəlal Paşayevin 116 illik yubileyinə həsr olunmuş tədbir keçirilib





**Aprelin 26-da "Ədibin evi"ndə görkəmli yazıçı Mir Cəlal Paşayevin 116 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən "Ədibin evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva görkəmli ədibin həyat və yaradıcılığından söz açıb. Bildirib ki, "Ədibin evi" yazıçının 1929-1941-ci illərdə İçərişəhərdə yaşadığı məkanda yaradılıb və 2017-ci ildən etibarən mədəniyyət ocağı kimi istifadəyə verilib.

Milli Aviasiya Akademiyasının prorektoru Ədalət Səmədov çıxışında Mir Cəlal Paşayevin həyat və yaradıcılığından söz açıb, onun alim kimi Azərbaycan ədəbiyyatındakı əvəzolunmaz mövqeyindən bəhs edib. Qeyd edib ki, görkəmli ədib zəngin bədii yaradıcılığı ilə hər zaman gənclərə örnək olub.

Xalq şairi, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli Nəriman Həsənzadə, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Təhsin Mütəllimov və Milli Məclisin deputatı, akademik Nizami Cəfərov görkəmli yazıçının həyat və fəaliyyəti haqqında ətraflı məlumat verərək, Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatına, elminə müstəsna xidmətlər göstərdiyini, həmçinin alim kimi tələbələrinə hər zaman dəstək olduğunu qeyd ediblər. Bildirilib ki, Mir Cəlal Paşayev fəaliyyəti, yaradıcılığı ilə ölkə ədəbiyyatının, təhsilinin inkişafına böyük töhfələr verib.

Sonra ADA Universitetinin rektoru, professor Hafiz Paşayev atası ilə bağlı xatirələrini bölüşüb. Mir Cəlal Paşayevin yaradıcılığının gələcək nəsillər üçün də nümunə olduğunu diqqətə çatdırıb.

Hafiz Paşayev "Ədibin evi"nin yaradılmasındakı məqsədin bu yeri mədəniyyət ocağına çevirmək və bununla da Mir Cəlal irsini davam etdirmək olduğunu vurğulayıb. Qeyd edib ki, Mir Cəlal Paşayev ən yaxşı əsərlərini "Ədibin evi"ndə yazıb.

Milli Aviasiya Akademiyasının rektorunun köməkçisi, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent Gülnarə Əhmədova Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin ürək sözlərini iştirakçılara çatdırıb. Həmçinin Arif Paşayev adından "Ədibin evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyevaya xatirə hədiyyələri təqdim olunub.

Tədbirdə MAA-nın tələbələri İlknur Musayeva, Mələk Bağırova, Lamiyə Qubatova, Nazim Əzimli və Aydan Mirzəbəyova Mir Cəlal Paşayevin xatirəsinə həsr olunan şeir və musiqilər səsləndiriblər. Həmçinin tələbələr Nicat Şiriyev, Aqşin Əhmədli, Cəfər Sadıq, Turan Seyfullayev və Hüseyn Nəsirov görkəmli yazıçının ədəbi yaradıcılığından səhnə canlandırıblar.

# "Əqli mülkiyyət müasir mərhələdə" mövzusunda "dəyirmi masa"

**Aprelin 26-da Əqli Mülkiyyət Agentliyi tərəfindən "Əqli mülkiyyət müasir mərhələdə" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbir Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov aprelin sonunun əqli mülkiyyət aləmində əlamətdar dövr olduğunu - aprelin 23-nün Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün və aprelin 26-nın Beynəlxalq Əqli Mülkiyyət Gününün qeyd olunduğunu bildirib. O, Azərbaycanda da bu əlamətdar günlərin qeyd edildiyini diqqətə çatdırıb.

Agentliyin rəhbəri Azərbaycan xalqının Qələbə sevinci yaşamasında, ölkənin beynəlxalq nüfuzunun artmasında, söz sahibinə çevrilməsində Prezident İlham Əliyevin müstəsna rolunu vurğulayıb.

Azərbaycanın son illərdə əldə etdiyi nəticələrin kreativliyin, innovativliyin inkişafına böyük təsir etdiyini söyləyən professor Kamran İmanov bildirib ki, 2022-ci illə müqayisədə 2023-cü ildə müəllif hüququ obyektlərinin qeydiyyatına aid vəsatətlər 713 əsər olduğu halda (324 müəllif) 717 şəhadətnamə verilib və bu, ötən illə müqayisədə 20 faiz çoxdur. Elektron xidmət bölməsi vasitəsilə 324 müəllif (hüquq sahibi) tərəfindən 626 əsər qeydiyyatdan keçirilib. 2023-cü ildə elektron qaydada 131 müəllifə məxsus 169 əsər qeydiyyata alınıb ki, bu da 2022-ci il ilə müqayisədə 73 faiz çoxdur. Əlaqəli hüquqların obyektləri üzrə 162 ifa (2022-ci ildə 46 ifa) və 37 kompüter proqramı (2022-ci ildə 18) qeydiyyata alınıb. Sənaye mülkiyyəti sahəsində 2023-cü ildə ixtira, faydalı model və sənaye nümunələrinin patentləşdirilməsinə dair Agentliyə 302 iddia sənədi (2022-ci ildə 271 iddia sənədi) daxil olub. Bu isə ixtira fəallığının 11 faiz artması deməkdir. İxtiralar üzrə ekspertizanın müddəti ümumi qayda olaraq 12 ay təşkil etdiyi halda, 2023-cü ildə 8-9 ay müddətində aparılıb, MDB məkanında ilk olaraq, iddia sənədlərinin 3D-formatında qəbulu həyata keçirilib, hamıya əlçatanlığı təmin edən "açıq reyestr" prinsipi tətbiq edilib.

Kamran İmanov qeyd edib ki, agentliyin dəstəyi və Azərbaycan Memarlıq və İnşaat Universitetinin köməyilə bu universitetdə Əqli mülkiyyət kafedrası yaradılıb. Bakı Dövlət Universitetinin Əqli mülkiyyət hüququ kafedrasının agentliyin nəzdində daha əvvəl yaradılmış filialının fəaliyyəti isə əqli mülkiyyət sahəsində hüquqşünas mütəxəssislərin hazırlanmasında əhəmiyyətli rol oynayır. Tələbələr üçün mühazirə və məşğələlər agentlikdə müasir avadanlıqlarla təchiz edilmiş SMART tipli auditoriyalarda keçilir.

Sonra professor Kamran İmanovun "İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi" mövzusunda məruzəsi dinlənilib. Professor qeyd edib ki, müəlliflik hüququnun qorunması insan şəxsiyyətinin ləyaqəti konsepsiyasına əsaslanaraq ötürülə bilməz və onun qorunmasını yalnız yaradıcılar - müəlliflər tələb edə bilər: "Korporativ hüquq sahiblərinin müəlliflərin maraqlarını təmsil etməli olduğuna inanmaq düzgün deyil, əksinə səhv olardı. İnsanın müəllifliyini qoruma hüququ sadəcə olaraq müəllif hüquqlarının qorunmasının sinonimi və ya istinadı deyil, müəllif hüquqlarının qiymətləndirildiyi əlaqəli anlayışdır. Bir insan hüququ kimi müəllifliyin qorunması hazırda əksər ölkələrin müəlliflik hüququ qanunlarında nəzərdə tutulduğundan bəzi hallarda daha çox, bəzi hallarda isə daha az tələb edir və beləliklə, müəllif hüququ qanunu müəllifliyin qorunmasının yalnız bir elementidir. Yaradıcıların rəqəmsal mühitdə mənəvi və maddi maraqları ifadə azadlığı və mədəni həyatda iştirak hüquqlarına potensial olaraq qeyri-mütənasib şəkildə təsir etmədən onları qorumaq üçün ən yaxşı yolların tapılması istiqamətində müzakirələrin aparılmasını tələb edir. "Müəlliflik" kateqoriyasının və nəticə etibarilə "müəllifliyin qoruma hüququnun təhlili "sosium" və "mədəniyyət" mühitlərinin qarşılıqlı təsiri nəticəsində formalaşan mədəni müxtəliflik məkanında aparılacaq ümumi hal üçün məqsədəuyğundur. Hər iki aspekt vahid bütövlüyün komponentlərini təmsil edir və xüsusi hallarda - müəllif hüququ müstəvisinin ayrı-ayrı subyektlərinin davranışının təsviri hesabına formalaşır".

Professor Kamran İmanov diqqətə çatdırıb ki, müəlliflər "müəlliflik" kateqoriyasının daşıyıcıları kimi sosiumun tərkibinə daxildir və onlar mədəniyyət səviyyəsində mədəni müxtəlifliyi formalaşdırmaqdadırlar: "Mədəni müxtəliflikdə həm sosiumun təşəbbüsü ilə, həm də mədəniyyətdən qaynaqlanan, qarşılıqlı əlaqəsi onlar arasında baş verən dəyişikliklərlə, keçid prosesinin dayanmasını və sistemin pozulmadığı istənilən tarazlığın əldə olunmasını tələb edir. Mədəniyyətin özünü tənzimləməsi ilə belə bir tarazlığa nail oluna bilər, lakin bu prosesi multikulturallığı təmin edən tədbirlər vasitəsilə sürətləndirən dövlət müdaxiləsi ilə də mümkündür".

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva vurğulayıb ki, əqli mülkiyyət hüququnun qorunması mədəniyyəti termini bir yenilikdir. Bu termini Bakı Dövlət Universitetində fəaliyyət göstərən dəyərli alimlərimiz tələbələr, gənc hüquqşünaslar arasında geniş yaymalıdırlar.

Səbinə Əliyeva diqqətə çatdırıb ki, Ermənistan ölkəmizə qarşı bir çox müharibə cinayətləri törədib. Həmçinin əsrlər boyu milli-mədəni irsimizi, rəqs nümunələrimizi, kulinariya incilərimizi mənimsəməyə çalışıb. Professor Kamran İmanovun erməni yalanlarının ifşa edilməsi ilə bağlı yazdığı kitablar və həmin nəşrlərin xarici dillərdə olan nümunələri qiymətli mənbələrdir.

Sonra Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Əminağa Sadıqov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Bakı Musiqi Akademiyasının elmi işlər üzrə prorektoru Gülnaz Abdullazadə çıxış edərək əqli mülkiyyət sahəsində agentliyin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər.

"Dəyirmi masa" mövzu ətrafında müzakirələrlə yekunlaşıb.

# Türk dövlətləri parlamentlərinin Xarici əlaqələr komitələrinin sədrləri Xankəndi və Şuşada olublar






**Aprelin 26-da Azərbaycanda səfərdə olan Türk dövlətləri parlamentlərinin Xarici əlaqələr komitələrinin sədrləri Xankəndi şəhərinə gəliblər. Qonaqlar Xankəndi şəhəri ilə tanış olublar.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, sonra Şuşaya gələn qonaqlar Mərkəzi meydan, Yuxarı Gövhərağa məscidi ilə tanış olublar, Qala divarlarını və Xan qızı bulağını seyr ediblər. Qonaqlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və Şuşada cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri, şəhərdəki tarixi abidələrin bərpası və nəzərdə tutulan planlar barədə məlumat verilib.

Sonra qonaqlar Cıdır düzünə gəliblər. Bildirilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxmış, canları və qanları bahasına Şuşanı işğaldan azad etmişlər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirilməsi məkanına çevrilib.

Səfər zamanı qonaqları Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlar Cavanşir Feyziyev, Sahib Alıyev, Elman Nəsirov, Azər Kərimli, Nəsib Məhəməliyev, Sabir Hacıyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Bakı Marafonu üçün 15 mindən çox iştirakçı qeydiyyatdan keçib

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə mayın 5-də keçiriləcək "Bakı Marafonu 2024"ə qeydiyyat başa çatıb.**




AZƏRTAC xəbər verir ki, 7-ci dəfədir təşkil ediləcək Bakı Marafonu üçün 15 mindən çox iştirakçı qeydiyyatdan keçib.

Marafonda 200-dən çox fəxri qonağın, 6 mindən çox tələbənin iştirakı gözlənilir. Yarışa Azərbaycan vətəndaşları ilə yanaşı, ölkədə yaşayıb çalışan əcnəbilər, həmçinin digər ölkələrdən də qoşulanlar var. Belə ki, qeydiyyatdan keçənlərin siyahısında Almaniya, Çin, Fransa, Gürcüstan, Hindistan, İraq, İran, İtaliya, Kanada, Qazaxıstan, Pakistan, Rusiya, Suriya, Türkiyə, Ukrayna və digər ölkələrin vətəndaşları yer alıblar.

Marafonun marşrutu: Dövlət Bayrağı Meydanı - Dənizkənarı bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - Xəqani Rüstəmov küçəsi - Bakı Ağ Şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi - Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsi, "Cavanşir" körpüsündən keçməklə Üzeyir Hacıbəyli küçəsi - Neftçilər prospekti, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdmanı Sarayı) və Dənizkənarı bulvar boyunca hərəkət edərək (Su İdmanı Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı Meydanı.

# Münasibətlərin möhkəm qanunvericilik bazası yaradılır

## Azərbaycan-Qırğızıstan əlaqələrinin inkişafı xoşbəxt gələcəyə xidmət edən siyasətdir

**"Azərbaycan ilə Qırğızıstan arasında əməkdaşlığın, qarşılıqlı münasibətlərin genişlənməsi yüksələn xətt üzrə inkişaf edir. Bu, hər iki dövlətin, xalqın birliyinin, dostluğunun möhkəmlənməsinə yönəldilib".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun ölkəmizə səfəri böyük əhəmiyyət kəsb edir. Səfər zamanı iki ölkənin dövlətlərarası Şurasının 2-ci iclasının keçirilməsi, Birgə Bəyanatın, Anlaşma Memorandumunun, ümumilikdə 18 sənədin imzalanması birliyə və əməkdaşlığa yeni impuls verir.

Prezident İlham Əliyev mətbuata verdiyi bəyanatında bu səfərin əhəmiyyətini yüksək qiymətləndirərək bildirib: "Səfər ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə töhfə verəcək". Sözsüz, bu belədir, çünki Azərbaycan və Qırğız xalqlarını tarixi köklər, milli adət-ənənələr, dostluq əlaqələri birləşdirir və bu münasibətlər əsrlərdir ki, davam etməkdədir.

Tahir Rzayev qeyd edib ki, Qırğız Respublikası bütün platformalarda, beynəlxalq tədbirlərdə, ən yüksəksəviyyəli görüşlərdə, eləcə də 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirlərində Azərbaycanın haqlı mübarizəsinə dəstək verib və dövlətimizin suverenliyinin tam bərpa olunması mövqeyindən çıxış edib. "Bu dəstək iqtisadi-ticari sahədə fəal əməkdaşlığa təkan verib. Səfər zamanı Azərbaycan-Qırğız İnkişaf Fondunun dörd dəfə artırılaraq 25 milyon dollardan 100 milyon dollara çatdırılması və birgə investisiya fondu çərçivəsində layihələrin həyata keçirilməsi mexanizminin daha tez reallaşdırılması üçün yeni vəzifələrin qarşıya qoyulması buna əsas verir. Eyni zamanda səhiyyə, elm, təhsil, energetika, nəqliyyat, miqrasiya, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığa dair sənədlərin imzalanması gələcək inkişafa və möhkəm dostluğa hesablanıb. Dövlət başçımız bildirib ki, bu gün imzalanan sənədlər hələ imza atılan sənədlərin hamısı deyil. Sənədlərin bir hissəsi də müvafiq dövlət strukturlarında imzalanır. Beləliklə biz, həmçinin münasibətlərimizin möhkəm qanunvericilik bazasını yaradırıq. Prezident İlham Əliyevin Mərkəzi Asiya dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsinə, Qırğız Respublikası ilə münasibətlərin daha da yaxşılaşdırılmasına verdiyi önəm gələcəyə, xoşbəxt həyata xidmət edən bir siyasətdir və xalqlarımızın birliyinə, suverenliyimizin daimi olmasına yönəldilib", - deyə Tahir Rzayev əlavə edib.

Komitə sədri vurğulayıb ki, Azərbaycan və Qırğızıstan prezidentlərinin Füzuli şəhərində erməni faşistləri tərəfindən dağıdılmış yerlərə baş çəkmələri, şəhərin baş planı ilə tanış olmaları, Ağdam şəhərində Pənahəli xanın sarayı və imarət kompleksində görülən işlərlə maraqlanmaları, Cümə məscidinin bərpasından sonra açılışının edilməsi, Ağdam Konfrans Mərkəzi, Şahbulaq qalası ilə tanışlıq iki ölkə arasında əməkdaşlığın möhkəmlənməsinə yeni güclü zəmin yaradır. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan dövləti adından Xıdırlı kəndində tam orta məktəb binasının inşası sarsılmaz qardaşlığımızın ifadəsi kimi tarixiləşdi. Müasir tələblərə uyğun 2,7 hektar ərazisi, iki yerüstü və 1 yeraltı mərtəbəsi, 22 kabineti olan məktəbin tikintisi bu ilin sonunadək başa çatdırılacaq.

Tahir Rzayev sonda əlavə edib ki, prezidentlərin işğaldan azad olunmuş ərazilərə səfəri zamanı bərpa, quruculuq, tikinti işləri ilə tanışlıq həm də dünyaya, azğın düşmənə və onların havadarlarına bir mesajdır: "Görün, dövlətlər qardaşlaşır, qurur, yaradır və sülhə, əmin-amanlığa, təhlükəsizliyə, birliyə yollar açırlar. Siz bundan ibrət götürün".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Bakıda müasir mərhələdə Azərbaycan-Qırğızıstan münasibətlərinə dair "dəyirmi masa" təşkil edilib

**Aprelin 26-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (BMTM) "Müasir mərhələdə Azərbaycan-Qırğızıstan ikitərəfli münasibətləri: dərin strateji tərəfdaşlıq" mövzusunda "dəyirmi masa" təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev açılış nitqi ilə çıxış edərək Azərbaycan-Qırğızıstan əlaqələrinin inkişaf dinamikasından danışıb. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına toxunan F.Şəfiyev Azərbaycanın Qırğızıstanda investisiya layihələri həyata keçirdiyini qeyd edib. Əlaqələrimizin gələcəkdə daha da dərinləşəcəyindən əminliyini ifadə edən BMTM-nin İdarə Heyətinin sədri Qırğızıstan tərəfindən Ağdamda inşa ediləcək məktəb binasının əhəmiyyətini xüsusi vurğulayıb.

Azərbaycanın və Qırğızıstanın Türk Dövlətləri Təşkilatı çərçivəsində münasibətlərindən bəhs edən BMTM rəhbəri Mərkəzi Asiya 5+1 platformasında da qarşılıqlı faydalı əməkdaşlığın vacib istiqamətlərdən biri olduğuna diqqət çəkib. Ekspertlər səviyyəsində bu platformanın inkişafının zəruriliyini qeyd edən F.Şəfiyev ikitərəfli və iqtisadi sahədə meqalayihələr çərçivəsində əməkdaşlığın, habelə iki ölkə gəncləri arasında humanitar layihələrin icrasının zəruriliyini vurğulayıb.

Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana səfərinin təfərrüatlarına toxunan Qırğızıstanın ölkəmizdəki və Gürcüstandakı səfiri Kayrat Osmonaliyev səfər çərçivəsində imzalanan sənədlər və görüşlərin münasibətlərin gələcək inkişafına töhfə verəcəyini qeyd edib. Diplomat ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı ilə bağlı 5 illik proqramın və gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması ilə bağlı sazişi xüsusi vurğulayıb.

Onun sözlərinə görə, qarşılıqlı səfərlər münasibətlərə əlavə təkan verməklə yanaşı, hər iki ölkənin bütün sahələr üzrə əməkdaşlığın inkişafına sadiqliyini nümayiş etdirir. Sonra müzakirələr BMTM-in İdarə Heyətinin üzvü Gülşən Paşayevanın moderatorluğu ilə davam etdirilib. G.Paşayeva əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan uğurlu siyasətin bu gün də davam etdirildiyini və Türk dünyası ilə əlaqələrin inkişafının Azərbaycanın xarici siyasət prioritetlərindən olduğunu deyib.

Sonra ikitərəfli münasibətlərin inkişafı və gələcək imkanlar barədə Azərbaycanın sabiq baş naziri Həsən Həsənov, Qırğızıstanın keçmiş xarici işlər naziri, "Qırğız Diplomatlar Birliyi"nin sədri Janıl Tumenbayeva, DİA-nın "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müdiri Namiq Əliyev, Qırğızıstan parlamentinin sabiq spikeri Medetkan Şerimkulov və digərləri çıxış edərək, mövzu ilə bağlı fikirlərini bildiriblər.

# Qırğız Respublikasının rəqəmsal inkişaf naziri "ASAN xidmət"in fəaliyyət istiqamətləri barədə məlumatlandırılıb

**Ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikasının rəqəmsal inkişaf naziri Nuriya Kutnayeva "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, agentliyin sədri Ülvi Mehdiyev qonağa "ASAN xidmət", eləcə də Dövlət Agentliyinin digər fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

Eyni zamanda bu səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında imzalanmış Anlaşma Memorandumunun implementasiyası istiqamətində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Görüşdə Qırğız Respublikası ilə "ASAN xidmət" təcrübəsinin paylaşılmasına dair qərar qəbul edilib.

Qonaq "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, "Səyyar ASAN xidmət", "ABAD" və "Bilim Bakı" mərkəzinin fəaliyyəti ilə tanış olub.

# Ağdamda Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun iclası keçirilib

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun Ağdam rayonuna səfəri baş tutub.**



AZƏRTAC xəbər verir ki, səfərdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) və İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

İşçi qrupun üzvləri Ağdam rayonunda minatəmizləmə əməliyyatlarına cəlb olunan Fövqəladə Hallar Nazirliyinin, qadınlardan ibarət minatəmizləmə qruplarının və yerli minatəmizləmə şirkətinin fəaliyyəti ilə tanış olublar. İşçi qrup üzvləri icra edilən layihələrin gedişatını, o cümlədən aşkarlanan mina və partlamamış hərbi sursatların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini müşahidə ediblər.

Səfər çərçivəsində Ağdam rayonunda İşçi qrupun növbəti iclası keçirilib.

Agentliyin İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov iclasda açılış nitqi ilə çıxış edərək hökumət tərəfindən təsdiq edilmiş illik tədbirlər planına əsasən icra olunan humanitar minatəmizləmə əməliyyatlarının gedişatı barədə məlumat verib. O bildirib ki, əsasən yaşayış məntəqələrinin bərpası, nəqliyyat, energetika infrastrukturları, eləcə də kənd təsərrüfatı sahələri və digər prioritet istiqamətlərdə aparılan minatəmizləmə əməliyyatları nəticəsində 133,373 hektar ərazi təmizlənib, 118 835 ədəd mina və müharibənin digər partlayıcı qalıqları aşkar edilərək zərərsizləşdirilib.

İclasda, işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra edilən fəaliyyət üzrə hesabatlar dinlənilib, cari məsələlər müzakirə olunub, habelə mina təhlükəsi ilə mübarizə istiqamətində maarifləndirmə məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Cari və növbəti illərdə işğaldan azad edilmiş ərazilərə daha çox sayda keçmiş məcburi köçkünlərin geri qayıdışını nəzərə alaraq maarifləndirmə işlərinin və müvafiq qurumlarla bu istiqamətdə birgə fəaliyyətin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən İşçi qrupun iclaslarının ərazilərdə keçirilməsi Böyük Qayıdış proqramının əsas prioritetlərindən biri olan minatəmizləmə prosesinin dinamikliyi və bu prosesə cəlb olunan qurumların icra etdiyi minatəmizləmə əməliyyatları ilə yerlərdə yaxından tanış olmaq imkanı verir.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir



Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov aprelin 26-da Göygöl şəhərində, Göygöl rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında Göygöl və Daşkəsən rayonları sakinlərinin qəbulunu keçirib.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Göygöl və Daşkəsən rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerində həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri və nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri də vətəndaşları qəbul ediblər.

Vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə dövlətimizin başçına minnətdarlıqlarını bildiriblər.

* * *



Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, aprelin 26-da Baş prokuror Kamran Əliyev Ağdaş Rayon Prokurorluğunun inzibati binasında Ağdaş, Yevlax, Ucar, Zərdab rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 44 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

* * *



Bu gün energetika naziri Pərviz Şahbazov Biləsuvar rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə vətəndaşların elektrik enerjisi təchizatı, şəbəkəyə qoşulma, küçə işıqlandırılması, kabellərin çəkilişi, enerjinin keyfiyyəti, elektrik veriliş xətlərinin mühafizə zonası, qurğu və avadanlıqların istismar vəziyyəti, təbii qaz təchizatı, qaz və elektrik enerjisi sərfiyyatına görə yaranmış borc və cərimələr, həmçinin digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

Görüşdə Biləsuvar rayonu ilə yanaşı, Bakı və Şirvan şəhərləri, həmçinin Lənkəran, Salyan və Cəlilabad rayonlarından olan 22 vətəndaş iştirak edib.

# Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin bağlanış mərasimi keçirilib

**Aprelin 26-da Ağdam rayonu ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin təntənəli bağlanış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Ordusunun, Türkiyə və Rusiya Silahlı Qüvvələrinin rəhbər heyəti, həmçinin hər iki ölkənin respublikamızdakı səfirləri, hərbi qulluqçular və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə hər üç ölkənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının Qərargah rəisi general-polkovnik Levent Ergün və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini general-polkovnik Sergey İstrakov çıxış ediblər.

Türkiyə Respublikası və Rusiya Federasiyası arasında imzalanmış 11 noyabr 2020-ci il tarixli Memoranduma əsasən yaradılmış Birgə Monitorinq Mərkəzinin fəaliyyəti haqqında danışılıb.

2021-ci ilin yanvar ayının 30-dan regionda sülhün və sabitliyin rifahı naminə vicdanlı və cəsarətli xidmətlərinə görə türkiyəli və rusiyalı hərbi qulluqçulara minnətdarlıq ifadə olunub, onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

Həmçinin qeyd edilib ki, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin də iki ölkənin ali rəhbərliyi arasında əldə olunan razılığa əsasən fəaliyyətini vaxtından əvvəl dayandıraraq ölkə ərazisindən tam çıxarılması prosesinə başlanılıb.

Bağlanış mərasimində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının və Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin iştirakı ilə bədii proqram təqdim edilib.

# Qazaxıstan nümayəndə heyəti Azərbaycanın Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində olub

Qazaxıstan Respublikasının müdafiə nazirinin birinci müavini - Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Sultan Kamaletdinovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aprelin 26-da Qazaxıstan nümayəndə heyəti Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsinə gəlib. Qonaqlara komanda məntəqəsinin əsas fəaliyyət istiqamətləri, imkan və qabiliyyətləri barədə ətraflı məlumat verilib.

Daha sonra qazaxıstanlı nümayəndələr Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzini ziyarət ediblər. Burada qonaqlara mərkəzin yaranma tarixi, icra olunan fəaliyyətlərlə bağlı brifinq təqdim edilib, onları maraqlandıran suallar cavablandırılıb.

Sonda qonaqlara hədiyyələr təqdim edilib.

# İlham Əliyevin növbəti böyük diplomatik qələbəsi

## Dövlət Departamentinin hesabatında "erməni barmağı"

### ABŞ bu cür "sənəd"lərdən müxtəlif ölkələrə təzyiq aləti kimi istifadə edir



**"ABŞ Dövlət Departamenti hesabatlarında Azərbaycanla bağlı həqiqəti əks etdirməyən qərəzli münasibətini davam etdirir. 2023-cü il üzrə insan haqlarına dair hesabat ölkəmizdəki reallığı əks etdirmir, əksinə, ortada çox ciddi qərəz, Azərbaycanın demokratik inkişaf yoluna atılan böhtan var".**

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. O bildirib ki, həmişə olduğu kimi, bu hesabatda da "erməni barmağı"nın olduğu görünür. Əlbəttə, bütün bunların nədən qaynaqlandığını artıq hər kəs bilir. Səbəblər müxtəlifdir, hər ölkəyə yanaşma fərqlidir və xüsusən də bunda siyasi məqamlar üstünlük təşkil edəndə ABŞ bu cür hesabatları hazırlayarkən reallığı bir kənara qoyaraq bundan ölkələrə təzyiq aləti kimi istifadə edir.

A.Hüseynov qeyd edib ki, Amerikanın oxşar hadisələrə fərqli standartlar tətbiq etməsi yeni deyil, ikili standartlar həmişə göz qabağında olub: "ABŞ-də insan haqları bütün mənalarda ayaqlar altındadır, zorakılıq baş alıb gedir, mitinqlərdə ən qəddar üsullardan istifadə olunmaqla etiraz edənlər "zərərsiz"ləşdirilir. Amma hesabatlar hazırlanarkən bütün bunlar unudulur, demokratik ölkə adı başdan yazılır. Hesabatın Azərbaycana aid hissəsində 2023-cü il sentyabrın 19-20-də Qarabağda nəzarəti tam ələ keçirmək üçün antiterror tədbirlərindən bəhs edilir. Bəli, Azərbaycan bu tədbiri öz suveren ərazilərində separatçılara, azərbaycanlıları 30 il ərzində terrorla təhdid edən, öz evinə, yurduna getməsinə imkan verməyən, ərazilərimizdə soyqırımı törədən, dini, milli ayrı-seçkilik salan terrorçulara qarşı keçirib".

Deputat vurğulayıb ki, müxtəlif vaxtlarda bəzi təxribatçı təşkilatların Azərbaycanda həyata keçirilən siyasi, iqtisadi, sosial, hüquqi islahatlara kölgə salmağa hesablanmış qərəzli hesabatları olub. İstər ABŞ Dövlət Departamenti, istərsə də digər təşkilatlar belə hesabatlar hazırlamaqla özlərini nüfuzdan salırlar. Bu, onlara olan inamı kəskin şəkildə azaldıb. Çünki ədalət prinsipinin pozulduğu yerdə səmimiyyətdən, obyektivlikdən və hörmətdən danışmaq mümkün deyil. Bütün bunlar ölkəmizdə həyata keçirilən sistemli, davamlı islahatlar nəticəsində əldə olunmuş mühüm uğurlara təsir edə bilməz.

A.Hüseynov bildirib ki, ABŞ özünü arbitr rolunda görürsə, öz ölkəsində insan haqları sahəsində vəziyyətə dair könüllü və açıq şəkildə hesabatla çıxış etməlidir. "ABŞ-də rasizm, islamofobiya, miqrantların hüquqlarının pozulması, həbsxanalarda dözülməz şərait və digər məsələlər barədə faktlar kifayət qədər çoxdur. Əgər Dövlət Departamenti obyektivlik nümayiş etdirmək istəyirsə, bunları da hesabata daxil etsin. Amma bunu etmir. Çünki ifşa oluna bilər. Amerikada keçirilən etiraz aksiyalarının qarşısını alan zaman polisin törətdiyi vəhşiliklər barədə çoxsaylı sübutlar var. Heç bir təhlükə törətməyən qaradərilinin öldürülməsindən sonra ona atəş açan polisin məsuliyyətdən yayınma hallarına da bu ölkədə rast gəlinir", - deyə müsahibimiz əlavə edib.

Deputat qeyd edib ki, hesabatda ölkəmizdəki insan haqları ilə bağlı vəziyyət subyektiv mülahizələrə, ermənipərəst mövqelərə əsaslandığından buradakı iddialar qərəzdən başqa bir şey deyil.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Sülhə doğru daha bir addım atılıb

### Artıq delimitasiya prosesi başlayıb

**Dünyanın bir sıra ölkələrində münaqişələrin davam etdiyi, həlli yollarının tapılmadığı, hələ də müharibə ocaqlarının söndürülməsinin müşkül göründüyü bir zamanda Azərbaycanın sülhə, sabitliyə doğru atdığı addımlar, həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. Bu baxımdan, son illər ölkəmizdə baş verən hadisələr, ard-arda qazanılan qələbələr yalnız respublikamızın deyil, bütövlükdə Cənubi Qafqazın bu günü, sabahı üçün olduqca əhəmiyyətlidir.**



XX əsrin axırıncı onilliyində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrini münaqişə ocağına çevirən, işğala məruz qoyan, həmin ərazilərin yerli sakinləri olan azərbaycanlıların başlarına gətirilən müsibətlərin səbəbkarı Ermənistan idi. Uzun illər işğalçılıq siyasətini davam etdirmək üçün Ermənistan hökumətinin rəhbərləri hər vasitəyə əl atdılar. İşğalçı, təcavüzkar ölkənin rəhbərləri sözləri keçən, ərki çatan bir sıra güclü dövlətlərdən, beynəlxalq təşkilatlardan yardımlar diləndilər, aldıqları hərbi avadanlıqlardan, silah-sursatdan Azərbaycanın, azərbaycanlıların əleyhinə istifadə etdilər.

Dünyaya "demokratiya" dərsi keçən, lakin özləri demokratiyadan uzaq olan ermənipərəst ABŞ, Qərb dövlətləri və onların yedəklərindəki bir sıra beynəlxalq təşkilatların çirkin niyyətli, məkrli olduqlarını, Azərbaycanla Ermənistan arasında münaqişəyə son qoyulmasına, sülhün yaranmasına vasitəçilik etmək adı ilə yalnız vaxt qazanmağa, Qarabağda, Şərqi Zəngəzurda erməni işğalının davam etməsinə çalışdıqlarını zaman göstərdi. Beləliklə, onlar vaxtın uzanmasına, Azərbaycanın işğal faktları ilə barışmasına cəhd edirdilər.

Müharibə istəməyən, münaqişənin sülh yolu ilə başa çatmasına, ərazilərini savaşsız, qansız-qadasız işğaldan azad etməyə səy göstərən Azərbaycan dövləti və xalqı isə bir məsələdə də hər zaman eyni mövqedən çıxış edir, daha heç vaxt ermənilərə torpaq verməyəcəyini bildirirdi. Dövlətimizin başçısı, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev qətiyyətlə bəyan edirdi ki, biz Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyik.

Aprelin 23-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, biz 28 il gözlədik və ondan sonra suverenliyimizi güc yolu ilə bərpa etdik: "Biz bunu haqlı olduğumuz və edə bildiyimiz üçün etdik. Bizim üçün bu, ölüm-dirim məsələsi idi. Biz o zaman əmin deyildik ki, kimlər Ermənistan tərəfindən çıxış edəcək. Fərqli variantlar ola bilərdi. Onların heç biri bizim üçün xoş deyildi. Amma o zaman biz bu barədə düşünmürdük, ya suveren ləyaqətimizi bərpa etməli, ya da hamımız ölməli idik. Bizim yanaşmamız belə idi. Gözlədik, güc topladıq, beynəlxalq arenada işlədik. Biz mövqeyimizi sübuta yetirməyə və təcavüzün qurbanı olduğumuzu izah etməyə çalışırdıq, lakin bu, heç bir nəticə vermədi. Bəli, beynəlxalq qurumlar qətnamələr, qərarlar qəbul etdilər, amma bunlar icra olunmadı, icra mexanizmi yox idi. Beləliklə, biz bunu güc yolu ilə icra etdik. Dediyim kimi, biz sülhü müharibə ilə gətirdik".

2020-ci ilin payızında Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan, qırx dörd gün davam edən və Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsində, 2023-cü ilin sentyabrında aparılan lokal xarakterli antiterror əməliyyatları zamanı qazandığımız qələbələr tarixi ədalətin bərpa olunması idi. Digər tərəfdən, artıq qəhrəman Azərbaycan Ordusunun hünəri ilə separatizmin kökü birdəfəlik kəsilən Qarabağda sülhün əldə olunmasına tarixi fürsət yarandı.

Bu gün Cənubi Qafqazda davamlı sülhün, sabitliyin yaranması real görünür. "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevin tədbir iştirakçılarının suallarını cavablandırarkən dediyi kimi, Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və ardınca suverenliyini tam bərpa etməsi regionda dayanıqlı sülhə də birbaşa rəvac verib.

Sülh prosesinin təşəbbüskarı Azərbaycandır. Rəsmi Bakı İkinci Qarabağ müharibəsindən dərhal sonra Ermənistana beş baza prinsipi əsasında təkmil sülh modeli təklif etdi və bu istiqamətdə əməli işlər həyata keçirdi. Ancaq rəsmi İrəvan reallıqlarla tamamilə təzad təşkil edən istəkləri, Azərbaycan ərazilərinə iddia etmək kimi boş xülyaları ilə sülh razılaşmasının imzalanmasına əngəllər yaratdı. Ermənistan sazişinə qondarma "Dağlıq Qarabağ" məsələsini daxil etmək cəhdi də həmin əngəllərdən biri oldu. "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, bizim üçün tamamilə qəbuledilməz idi, çünki dırnaqarası "Dağlıq Qarabağ" Azərbaycanın Qarabağ regionu olub və olacaq, bu, Azərbaycanın daxili məsələsidir. Dövlətimizin başçısı vurğuladı ki, bu, irəliləyişə nail ola bilməməyimizin başlıca səbəbi idi.

Rəsmi səviyyədə Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edən Ermənistanın sülhə imza atmaqdan boyun qaçırmasında arxalandığı, sığındığı xarici himayədarlarının da "rolu" danılmaz oldu. Ermənipərəst Qərb dairələri Cənubi Qafqazda daimi münaqişə ocağının olmasında maraqlıdır. Ermənistana siyasi, hərbi dəstək vermələrində də bu xəbis niyyətlərinin başlıca rol oynadığı şübhəsizdir.

Yaranmış reallıq isə rəsmi İrəvanın sülhdən başqa çıxış yolunun olmadığını göstərir. Özü də bu reallıq, əslində, Ermənistanın xeyrinədir. Düşdüyü labirintdən Ermənistan yalnız sülh yoluna çıxmaqla qurtula bilər. Bunu indi ermənilər də etiraf edir.

Artıq delimitasiya istiqamətində ilk addım atılıb. Bu, 4 qeyri-anklav kəndin qaytarılması ilə bağlı iki ölkə arasında əldə edilmiş razılıqdan sonra başladı. Delimitasiya prosesində tərəflər 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

Proses davam edir. Qeyd edək ki, Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin növbəti görüşünün Qazaxıstanda baş tutması planlaşdırılır. Artıq rəsmi Bakı bununla bağlı öz razılığını bildirib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## "Delimitasiya və demarkasiya sülhün başlanğıcıdır"

### Hayastanda sərhədlərin müəyyənləşdirilməsini xilas formulu kimi görürlər

**İkinci Qarabağ müharibəsinin qalibi və məğlubu arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində sərhədlərin delimitasiya və demarkasiya proseslərinə start verilməsi görülən işlərin başlanğıcı hesab edilə bilər.**

Ümumiyyətlə, praktikada belə olub ki, əvvəlcə delimitasiya işləri aparılıb, xəritələr üzərində sərhədlər müəyyənləşdirilib və bundan sonra tərəflər arasında müqavilə imzalanıb. Sonradan yerlərdə sərhəd dirəkləri basdırılaraq demarkasiya prosesinə keçilib. Artıq Azərbaycanla Hayastan arasında sərhəd dirəklərinin basdırılmasına başlanılıb.

Bu, Hayastan cəmiyyətində təəccüb yaradıb, İrəvanda böyük reaksiyaya səbəb olub. Erməni mediasının, sosial şəbəkə istifadəçilərinin statusları, şərhləri və mövqelərindən görünür ki, onlar ölkələrinin xilas formulunu Azərbaycanla münasibətləri normallaşdırmaqda, sülh müqaviləsinin imzalanmasında görürlər.

"4rd.am" nəşri yazır ki, Azərbaycanla Hayastan arasında sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesi çərçivəsində ilk sərhəd dirəyi quraşdırılıb. İki ölkənin ekspert qruplarının işi davam edir. Bu artıq o deməkdir ki, delimitasiya üzrə konkret anlaşmalar icra olunur, ilk dirəyin quraşdırılması artıq demarkasiya anlamına gəlir. Yəni Azərbaycanla sülh müqaviləsinin imzalanması Hayastan üçün böyük şansdır: "Bu proseslər erməni xalqının dirçəliş günüdür. Bütün bunlar sülh sazişi üçün yolun başlanğıcıdır. Sülh sazişi Hayastana qarşıdakı illərdə böyük iqtisadi dividendlər qazandıracaq. Son 10 ilə nəzər yetirdikdə baş verən proseslər regionda Azərbaycanın mövqelərini daha güclü hala gətirdiyi halda, Ermənistanla münasibətdə tamam əks vəziyyət müşahidə olunurdu. Hər halda demarkasiyadan sonra qəbul edilən qərarlar Ermənistanın xilası olacaq".

Erməni siyasi ekspert Karen Tevosyan qeyd edir ki, delimitasiya və demarkasiyadan sonra sülh müqaviləsinin çox yaxın perspektivdə gerçəkləşməsi mümkün ola bilər. Sülh sazişi Hayastanın sanki dünyaya yenidən gəlməsi olacaq. Onun fikrincə, müharibədəki məğlubiyyət fonunda sülh müqaviləsi imzalanmasa, Hayastanın regional geosiyasi proseslərdən izolyasiya edilməsi daha kəskin xarakter alacaq. Tevosyan diqqəti buna yönəldir ki, bütün bu proseslər Hayastanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir: "Regional, qlobal layihələrdən kənarda qalmağımız da prosesə birbaşa təsir edir. Hayastan qlobal kommunikasiya layihələrindən kənarda qalmaqla son 30 ildə özünə qəsd edib. Ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı itirib. Sülh müqaviləsindən sonra Hayastan qazanan tərəf olacaq".

Sülh təşəbbüsləri ilə tanınan, Hayastanda kəndlərin qaytarılması və delimitasiya prosesinin uğurla getməsinə etiraz edənlərləri ifşa edən erməni fəal, bloqçu İşxan Verdyan deyib ki, Paşinyan üçün onlar milçək kimidirlər - hay-küy salırlar, amma heç bir təhlükə yaratmırlar: "Görünən odur ki, Paşinyan qonşuları ilə münasibətlərin normallaşdırılması kursunu inamla davam etdirir və heç nə ona mane ola bilməz. Anklavları tam geri qaytarmaq üçün (digər 4 kənd) qarşılıqlı protokol lazımdır. Anklavların dövlətlərin ərazilərinin əsas hissəsi ilə birbaşa əlaqəsi yoxdur, ona görə də bu mərhələdə onlardan istifadə çətin ola bilər. Bir ölkənin vətəndaşlarının digər ölkəyə qarşılıqlı giriş şərtləri isə aydın deyil. Bu səbəbdən mənə elə gəlir ki, anklavların qaytarılmasının əsas şərtləri sülh müqaviləsi və qarşılıqlı etimaddır".

Verdyan hesab edir ki, sərhədlər tam müəyyənləşməsə belə, sülh müqaviləsi imzalana bilər. Delimitasiya və demarkasiya prosesinin uzun vaxt tələb etdiyinə diqqət çəkən bloqçu, yaxın vaxtlarda sülhün olacağına inanır: "Azərbaycan və Gürcüstan arasında sərhədlərin müəyyən olunmamış hissələri olsa da, onlar dinc və gözəl şəkildə yaşamaqla nümunə göstərirlər. Bu nöqteyi-nəzərdən sülh müqaviləsinin imzalanmasına heç nə maneə olmur. Ancaq biz görürük ki, Ermənistanda dövlət sərhədinin hər delimitasiyasına görə nə qədər hay-küy yaranır və natamam sərhədlərlə sülh müqaviləsi imzalansa, bu hay-küy artmaqda davam edəcək və başqa sahələrdə artıq əldə edilmiş razılaşmalara maneə olacaq. Öz xalqımı tanıyaraq deyirəm, mənə elə gəlir ki, ermənilər son möhürü vurmazdan əvvəl öz sərhədlərini tam müəyyən etmək istəyəcəklər. Lakin hadisələrin dinamikası elədir ki, bəlkə də sərhədin dəqiqləşdirilməmiş hissələri baş nazir Paşinyanın sülh sazişi imzalamasına maneə olmayacaq. Bu, onun xalqla necə danışacağından asılıdır".

Vazgen Tohanyan adlı istifadəçi "X" hesabında "Dirəklər quraşdırıldı" paylaşımını edərək yazıb: "Heç bir tərəfin iştirakı olmadan artıq ilk addımlar atılıbdı. İlham Əliyevi bu mövzuda biz də dəstəkləyirik. Sülh müqaviləsinin imzalanmasını çox böyük səbirsizliklə gözləyirik. Bizə başqa ölkənin torpağı lazım deyil. Sülhlə ağ günə çıxa bilərik. Lənətə gəlsin, revanşistlər".

Daha bir Ermənistan vətəndaşı İvan Mnasakanyan isə "X"də belə bir status paylaşıb: "Nikol Paşinyana məsləhət görərdim ki, İlham Əliyevin verdiyi bəyanatlara diqqətlə qulaq assın. Müharibədəki səhvlərini təkrar etməsin. Xilasımız sülh müqaviləsidir. Paşinyan özü də etiraf etdi ki, Artsax *(red.Qarabağ)* Azərbaycanın olub".

Feysbuk sosial şəbəkə istifadəçisi, ixtisasca iqtisadçı olduğunu qeyd edən Levon Qasparyan yazır ki, illərdir dediyimiz gerçəkləşir. Nəhayət, yolumuz açılır, işıqlı günlərə çıxa bilərik: "Demarkasiya və ilk dirəklər qoşuldu, sərhədlər müəyyənləşir. Qarabağ problemi Ermənistanı 30 ildən çox bütün layihələrdən təcrid etdi. 30 ildə itirdiklərimizin hesabatını kim verəcək? Sarkisyan, Koçaryan, çıxın xalqa hesabat verin! Görəcəksiniz, delimitasiya və demarkasiya sülhün başlanğıcı, Hayastanın xilası olacaq".

"Tik-tok" istifadəçisi Henrix Qriqoryan isə videopaylaşımında deyir ki, müharibədən sonra yaranan iqtisadi böhran Hayastanda insanları acınaqlı vəziyyətlə üz-üzə qoyub: "Evlərini satanlar, hətta intihar edənlər də olub. Paşinyan, bir vətənini sevən erməni kimi sizə müraciət edirəm ki, sülh müqaviləsinin imzalanmasını bu dəfə uzatmayın. Öz torpağımız bizə bəsdir. Xalqın taleyini əvvəlki hökumət maraqlandırmadı. İlham Əliyevin bu xüsusda atdığı addımlara "hə" deməkdən başqa çarəniz yoxdu".

Beləliklə, ermənilər anlayırlar ki, İrəvanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Bütün baş verənlərə baxmayaraq, Azərbaycan istənilən halda sülh müqaviləsinin imzalanmasına nail olacaq. Bu, kimsənin müqavimət göstərə bilməyəcəyi qarşısıalınmaz prosesdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## ABŞ-ni insan haqları yox, öz məkrli maraqları düşündürür

**ABŞ dünyanın supergüclərindəndir. Hərbi gücə, tükənməz iqtisadi potensiala malikdir. Milli valyutası dünya ticarətində ölçü vahidi olmaqla əsas ödəniş vasitəsidir. Lakin hər bir gücə qadir bu superdövlətdə bircə şey çatışmır: haqq və ədalət. ABŞ-nin ədalət tərəzisi səhv çəkir. Dünyaya arbitrlıq etmək istəyən ABŞ özünə sərf edəni edir və bununla da haqqın gözünə haram qatır.**



Bu gün dünyanın hansı yerində silahlar partlayıb günahsız insanlar ölürsə, orada birmənalı olaraq ABŞ-nin əli var. Ya öldürən ABŞ əsgəridir, ya da insanlar ABŞ istehsalı olan silahlarla öldürülür. Bunların heç biri olmadıqda isə mütləq münaqişə tərəflərindən birini, özü də haqsız olanı, təcavüzkarı ABŞ fitvalayıb günahsızın üstünə saldırıb...

Atalar doğru deyiblər: "Başına gələn, başmaqçı olar". 30 ildir ki, bu ölkənin ikili standartlarından əziyyət çəkirik. Bu illərdə nələr görmədik ki? Təcavüzə məruz qalan da, torpaqları işğalda qalan da, bir milyon vətəndaşı doğma yurdundan didərgin düşən də, ABŞ Senatının bədnam 907-ci qanunu ilə qadağa ilə üzləşən də Azərbaycan oldu. Bu illərdə bu ölkə bizə yalnız açıq mətinlə "Torpaqlarınızı Ermənistana verin" demədi, qalan nə pislik varsa, etməyə çalışdı.

44 günlük Vətən müharibəsi zamanı "ədalət carçısı", "dünyada sülhün təminatçısı" ABŞ-nin tutduğu mövqeyi, ölkəmizə qarşı nə etmək istədiyini gördük. Görünən budur ki, bu ölkə heç də etdiklərinə "bəs" demək niyyətində deyil. Gücü var, yalnız dayanacaq yeri yoxdur...

ABŞ Dövlət Departamenti 2023-cü il üzrə insan haqlarına dair hesabatı açıqlayıb. Bəllidir ki, bu ölkəni qəti surətdə insan haqları maraqlandırmır. ABŞ-nin strateji hədəfləri və bu hədəfləri həyata keçirmək üçün özünəməxsus təzyiq üsulları mövcuddur. Dövlət Departamentinin açıqladığı 2023-cü ilə aid hesabatı da birmənalı olaraq real vəziyyətdən çox təzyiq vasitəsi üçün düşünülüb.

Bir baxın, əgər ABŞ-ni gerçəkdən insan haqları düşündürsəydi, 2-ci, 3-cü dərəcəli diplomatların sosial mediada yayılan neqativ məlumatlar əsasında, peşəkar təhlil aparmadan, həqiqətdən uzaq, təsdiqini tapmayan şayiə və dedi-qodulara əsaslanan hesabat yox, təsdiqlənmiş, real məlumatlara əsaslanan ciddi bir sənəd hazırlayardı. ABŞ Departamenti ədalətdən dəm vurursa, hesabatında öz ölkəsində məhbuslara qarşı pis rəftardan, ifadə və media azadlıqlarının sərt məhdudlaşdırılmasından və sairədən bəhs edəydi. Bu bir həqiqətdir ki, bütün iddialar Azərbaycanı günahlandırmaq, ölkəmizə təzyiq etmək üçün hasabatı hazırlayan diplomatların uydurduqları və yaxud sifarişlə hazırladıqları böhtandır.

Əsas məsələ təbii ki, yenə erməni faktorudur və qərəzdir. Azərbaycanın apardığı müstəqil siyasəti həzm etməmək mərəzidir. Hesabatda sentyabrın 19-20-də Azərbaycanın Qarabağda keçirdiyi hərbi əməliyyatdan bəhs edilir. Xüsusi olaraq vurğulanır ki, bunun nəticəsində, demək olar, bütün erməni əhalisi bölgəni tərk edib. Amma bu, lokal tədbirlər idi və separatçıları ərazilərimizdən təmizləmək məqsədinə xidmət edirdi. Yəni bu tədbirlər mülki əhaliyə qarşı yönəlməmişdir.

ABŞ-nin bu mövqeyi artıq məsələyə ikili standartla yanaşma yox, birmənalı olaraq riyakarlıqdır. 30 il ərzində ermənilər güllə altında Qarabağdan çıxmağa məcbur qalan, yaxınlarını, ailə üzvlərini itirən Azərbaycan vətəndaşları ABŞ-nin yadına düşmədiyi halda bu gün hayların hüquqlarından danışırlar.

Hər gün işğaldan azad olunmuş ərazilərdə kütləvi məzarlıqlar aşkarlanır. İnsanlar məhkəməsiz, işgəncə ilə Ermənistan ordusunun əsgərləri tərəfindən təhqir olunaraq, qətlə yetirilərək kütləvi surətdə torpağa gömülüb. Ermənistan bu gün də kütləvi məzarlıqların yeri haqqında məlumatları, minalanmış sahələrin düzgün xəritələrini vermir. ABŞ bütün bunları görməzdən gəlir və yaxud gördüyü, bildiyi halda susmağa üstünlük verir.

Göründüyü kimi, ABŞ-ni narahat edən məsələ "insan haqları" yox, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməsidir. Ölkəmiz torpaqlarını azad etməklə Cənubi Qafqaz uğrunda mübarizə aparan dövlətlərin Qafqaza girmə xəyallarını puç edib. Elə bunun nəticəsidir ki, ABŞ Departamenti, Cənubi Qafqazda gözü olan dövlətlərin yedək təşkilatları, AŞPA, Aİ və qeyriləri Azərbaycana, o cümlədən qardaş Türkiyəyə qarşı intensiv surətdə qarayaxma kampaniyaları aparırlar.

Görəsən, bu hesabatı "müzakirə" edən konqresmenlərdən, hesabatı hazırlayan naşı, təcrübəsiz diplomatlardan Amerikada oturub dünyanın müxtəlif yerlərində olan vəziyyəti necə təhlil etdiklərin soruşublarmı? Yoxsa, ABŞ Dövlət Departamentində oturanlar üçün dürüstlük, həqiqət tamamilə mənasını itirib, ittiham etmək üçün ortalıqda fakt yox, boş söz olsa da kifayətdir. Belə olmasaydı, ermənilərin hüquqlarından danışan amerikalılar bu gün Qəzza hadisələri barədə susmazdılar...

Dünya bu gün insan haqlarından gen-bol danışan, hesabatlar hazırlayan ABŞ-ni demokratiya adı altında İraqda, Əfqanıstanda insanları necə "ovladığı"nı görüb, necə qanlı cinayətlər törətdiyini bilir. ABŞ-nin dörd ildə İraqda törətdiyi statistikaya nəzər salanda dəhşətə gəlməmək mümkün deyil. 2003-2007-ci illərdə 1,2 milyondan çox iraqlı günahsız yerə öldürülüb. Bu illərdə 3,7 milyon iraqlı öz ölkəsini məcburi şəkildə tərk etməyə məcbur olub. Ailə üzvlərindən ən azı birini itirən iraqlıların sayı isə nə az, nə çox - 8-12 milyon civarındadır.

Sadaladıqlarımız deməyə imkan verir ki, bu gün insan haqlarından danışmağa ən az haqqı olan ölkə ABŞ-dir. Bəlkə ABŞ Dövlət Departamentində oturub insan haqlarını müzakirə edənlərin yaddaşlarında problem var? Yoxsa onlar ABŞ-nin Vyetnamda, Yaponiyada, İraqda, Suriyada, Yəməndə və adını qeyd etmədiyimiz digər ölkələrdə insanları necə amansızcasına məhv etdiklərini unudublar?

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Avropa Parlamenti tərəfindən qəbul olunan qətnamə Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyəti açıq şəkildə təhrif edir

**Aprelin 25-də Avropa Parlamenti tərəfindən qəbul olunan qətnamə əsassızdır və Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyəti açıq şəkildə təhrif edir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Avropa Parlamentinin qərəzli qətnaməsi ilə bağlı medianın sualına cavabında bildirib.

O, həmçinin qeyd edib: "Bu kimi birtərəfli və qərəzli qətnamələrin adekvat olaraq dəyərləndirilmədən avtomatik şəkildə qəbulu Avropa Parlamenti üçün çoxdan adi hala çevrilib.

Bu addım Avropadakı bir sıra qüvvələrin Azərbaycanla münasibətlərin daha da pisləşməsinə yönəlmiş açıq siyasi sifarişindən başqa bir şey deyil.

Belə mühitdə Avropa Parlamentinin öz daxili mülahizələrini və şəxsi mənfəətlərini rəhbər tutan müəyyən qrup üzvləri, sadəcə, Azərbaycandakı vəziyyətin təhrif olunmuş mənzərəsini irəlilətməklə məşğuldurlar.

Bu qəbildən sənədlərin qəbulunu təşviq edənlərin niyyəti, həmçinin diqqəti Avropa cəmiyyətinin həqiqətən aktual sosial-iqtisadi və siyasi problemlərindən yayındırmaqdır.

Bundan əlavə, Azərbaycana qarşı sanksiya çağırışları yalnız Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətləri mürəkkəbləşdirir.

Bir daha Avropa Parlamentini Azərbaycanın daxili işlərinə və məhkəmə proseslərinə müdaxiləni dayandırmağa çağırırıq".

## *Türk ekspert:* "Erməni diasporu və rəsmi Parisin gərginliyi artırmaq cəhdləri faktlar qarşısında iflasa uğrayır"

"İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın işğal olunmuş torpaqlarının qaytarılması prosesi ilə bağlı əsaslı və müsbət bəyanatlar verdi. Bir neçə gün əvvəl buna etiraz edənlərin olmasına baxmayaraq, dörd kəndin Azərbaycana qaytarılması prosesi də uğurla reallaşdı. Erməni siyasətçiləri arasında müəyyən etirazlar var, bəli, lakin rəsmi İrəvan Azərbaycanla bu qarşıdurmanın daha çox özünün zərərinə işlədiyini başa düşüb ki, işğal siyasətinə son qoymağa qərar verib. Lakin bu prosesdə gərginliyin artması ilə qidalanan Fransa kimi ölkələr Ermənistanın bu münasibətinə qarşı çıxır. Eynilə ABŞ və digər ölkələrdəki erməni diaspor nümayəndələrinin də gərginliyin davam etdirilməsinin tərəfdarı olduqlarını görə bilərik".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Optimar Araşdırma" şirkətinin rəhbəri, siyasi ekspert Hilmi Daşdemir səsləndirib.

Qondarma "erməni soyqırımı" məsələsinə toxunan müsahib Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə komissiyasının sədri Andranik Köçəryanın buna dair sözlərini xatırladaraq deyib: "Köçəryan hər il "soyqırımı" ilə bağlı mərasimlərin keçirildiyini, lakin buna dair açılan muzeydəki şəkillər və sənədlərin belə inandırıcılıq səviyyəsinin aşağı olduğunu bildirdi. O, hətta 1915-ci il hadisələrində ölənlərin sayı ilə bağlı müəmmaların olduğunu da dedi. Bu, bir növ həqiqəti qəbul etməkdir. Bu sözlərdən də göründüyü kimi, erməni diasporu və rəsmi Parisin gərginliyi artırmaq cəhdləri faktlar qarşısında iflasa uğrayır. Bütün bunlar başlı-başına olan irəliləyişlər deyil. Bu, İlham Əliyevin liderliyi ilə Azərbaycan və Türkiyə prezidentlərinin müəyyən ahənglə hərəkət etməsinin qələbəsidir. Bəli, problemlər hələ də tam aradan qalxmayıb. Hələ gedəcəyimiz uzun yol var. Lakin hazırda burada ən mühüm amil Azərbaycan və Türkiyənin erməni məsələsi ilə bağlı həqiqətləri həm Qərb, həm də bütün dünya ictimaiyyətinə daha da geniş şəkildə çatdırmasıdır. Bu mövzu və ümumiyyətlə, erməni həqiqətlərinə dair sənədlər, məqalələr və sənədli filmlərin müxtəlif dillərdə hazırlanıb daha çox insana çatdırılması xüsusilə hazırkı vəziyyətdə olduqca vacibdir".

## Azərbaycanın Zəfəri Avropa Parlamentinin yuxusunu ərşə çəkib

### Bu riyakar qurum 2021-ci ildən bəri ölkəmizə qarşı qəbul etdiyi, lakin adi kağız parçası qədər dəyəri olmayan 8 qətnamə ilə özünü gülünc vəziyyətə salıb

**Avropa Parlamenti bu il aprelin 25-də Azərbaycana qarşı qəbul etdiyi növbəti qərəzli qətnaməsi ilə korrupsiya yuvası olduğunu bir daha nümayiş etdirdi. Bu rüşvətxor qurum bədnam əməli ilə ölkəmizə qarşı böhtan xarakterli və ittihamlarla dolu qətnamələr qəbul etmək kimi murdar vərdişindən əl çəkmək istəmir.**

Bütün bunlar isə erməni lobbisinin oyuncağına çevrilən qurum və onun korrupsioner deputatlarının ölkəmizin Qarabağ Zəfərini həzm edə bilməməsinə görədir.

Yoxsa, Avropa İttifaqının o boyda qurumuna nə düşüb ki, Avropada tüğyan edən islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütləvi və kobud şəkildə pozulması və sair kimi çoxsaylı problemlərlə məşğul olmaq əvəzinə, Azərbaycanla bağlı bədxah qətnamələr qəbul etsin? Təsəvvür edin, Vətən müharibəsindən sonra - konkret olaraq 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələrlə Azərbaycana qarşı 8 qətnamə qəbul edib.

### Delimitasiyanı alqışlamaq əvəzinə...

"Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam", - deyə - hələ 2022-ci ildə Prezident İlham Əliyev Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid Mak Alisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman Aİ-nin bu qurumunun ölkəmizə qərəzini bu sözlərlə ifadə etmiş və vurğulamışdı ki, bəzən elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir.

Avropa Parlamentinin 2024-cü il aprelin 25-də qəbul etdiyi növbəti bədnam qətnaməsinin məhz Azərbaycan ilə Ermənistan arasında ilk dəfə olaraq masa arxasında razılaşmaya gəlinməsi, 4 qeyri-anklav kəndin qaytarılması, delimitasiya ilə bağlı addımların atılması və iki ölkə arasında sərhəd dirəklərinin quraşdırılması kimi mühüm bir ərəfədə qəbul edilməsi ortada çirkin məqsədlərin olduğundan xəbər verir. Aydın görünür ki, müstəmləkəçi Fransanın əmri ilə oturub-duran AP indi də bölgədə sülhün əldə edilməməsi üçün qarayaxma kampaniyalarına start verib. Gözləri puldan başqa bir şey görməyən avroparlamentarilər xristian təəssübkeşliyi ilə ölkəmizə qarşı əsassız ittihamlar irəli sürürlər. O da danılmaz reallıqdır ki, Aİ-nin bu qurumu bəzi Qərb dairələrinin Azərbaycana qarşı çıxdığı səlib yürüşünün təşkilatlandığı mərkəz kimi fəaliyyət göstərir.

Korrupsioner qurumun qəbul etdiyi növbəti qərəzli qətnamədə insan hüquqlarının və azadlıqlarının qorunması ilə bağlı Azərbaycana böhtan atılır, heç bu əsasa dayanmayan yalan ittihamlar səsləndirilir.

AP-nin qərəzli qətnaməsi bir sual da ortaya çıxarır ki, indi insan haqlarından ağız dolusu dəm vuran avroparlamentarilər, bəs 990-cı illərin əvvəllərində Ermənistan tərəfindən bir milyona yaxın azərbaycanlının hüquqlarının tapdalanmasına səsini niyə çıxarmayıb? Hansısa qətnamə qəbul etməyib, işğalçı ölkəyə sanksiyaların tətbiqindən dəm vurmayıb? Hansı ki həmin illərdə azərbaycanlılar yurdlarından didərgin salındı, etnik təmizləməyə, işgəncəyə, qətliamlara, soyqırımlarına məruz qaldı, çadır, vaqon, yataqxanalara sığınaraq acınacaqlı şəkildə yaşamağa başladı.

Sadalananlar nə uzaq keçmişdə, nə də əsrlər əvvəl baş verib, Ermənistanın xalqımıza qarşı törətdiyi bu mənfur əməllərin üzərindən cəmi 30 il keçib. Bu 30 ildə bir dəfə də olsun Avropa Parlamentinin "insan hüquqlarının qoruyucu"ları olan deputatları sadalanan məsələlərə görə toplaşmayıb, hansısa qətnamələr qəbul etməyib. Ermənistanın işğal altında illərlə saxladığı ərazilərimizi mina tarlasına çevirməsi bu gün də dədə-baba torpaqlarından didərgin düşən insanlarımızın öz yurdlarına qayıdışına mane olan başlıca əngəldir. Amma AP deputatları dəqiq mina xəritələrinin ölkəmizə verilməsi üçün İrəvana güldən ağır bir söz demir, yəni hər zaman olduğu kimi, ikili standart nümayiş etdirir, bununla həm də beynəlxalq təşkilat olaraq nüfuzunu yerlə bir edir. İnsan haqları barədə danışacaq dünyadakı son qurum olduğunu isbat edir.

### ABŞ Dövlət Departamentinin növbəti qərəzi

ABŞ Dövlət Departamentinin "2023-cü il üzrə insan haqlarına dair hesabatı" da başdan-başa böhtan xarakterlidir. ABŞ real vəziyyəti və gerçəklikləri əks etdirməkdən çox-çox uzaq olan bu hesabatları ilə digər ölkələrə təzyiq göstərmək məqsədi güdür. Lakin Dövlət Departamentinin hər il dünya ölkələrində "insan haqlarına" dair hesabatını artıq heç kəs ciddi qəbul etmir, çünki bu hesabatın riyakarlıqdan başqa bir şey olmadığı bilinir. İkinci və üçüncü dərəcəli ABŞ diplomatları tərəfindən ölkələrdə sosial mediada yayılan neqativ məlumatlar toplanıb dəqiqləşdirilmədən, heç bir peşəkar təhlil aparılmadan hesabata daxil edilməsi, əlbəttə ki, obyektiv ola bilməz.

Əgər ABŞ dünyada "insan haqlarının keşikçisi" rolunu öz üzərinə götürübsə, hazırladığı hesabatları şayiələr, dedi-qodu üzərində qurmamalı, təsdiqini tapmış real faktlara əsaslanmalıdır. Həmçinin yaxşı olar ki, Dövlət Departamentinin hazırladığı bu hesabatda ABŞ-də tarix boyu mövcud olan rasizm, islamafobiya, miqrantların hüquqlarının pozulması, həbsxanalarda dözülməz şərait və sair kimi problemlər də öz əksini tapsın.

Göründüyü kimi, Azərbaycanın qazandığı zəfərlərlə bölgədə reallığı dəyişdirməsi Avropa Parlamenti, ABŞ Dövlət Departamenti kimi qərəzli Qərb təsisatlarının yuxusuna haram qatıb. Buna görə də bu qurumlar ölkəmizə qarşı ard-arda qəbul etdikləri bədnam qətnamələrlə, hazırladıqları riyakar hesabatlarla həm qərəzlərini ortaya qoyurlar, həm də nüfuzlarını yerlə bir edirlər.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## "Nobel şousu" Vardanyanı xilas edə bilməz

**"Cinayətkar Ruben Vardanyanın "qəhrəmanlaşdırılması" istiqamətində aparılan kampaniya heç bir nəticə verməyəcək. Nəzərə almaq lazımdır ki, onun Azərbaycanda separatizmi dəstəkləməsi, terrorçu rejimdə təmsil olunması, ölkəmizə hədə-qorxu gəlməsi beynəlxalq hüququn norma və prinsiplərinə ziddir. Təkcə Qarabağda törətdiyi cinayətlərin sübutu bəs edir ki, ona onillərlə həbs cəzası verilsin".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, 2022-ci ildə Rusiya vətəndaşlığından imtina edərək Ermənistan vətəndaşı olan Vardanyanın əsas məqsədi separatçı rejimin rəhbəri olmaq, daha sonra Ermənistanda ali vəzifə tutmaq idi: "Bu çirkin məqsədi onu qondarma Dağlıq Qarabağ rejiminin "dövlət naziri" vəzifəsinə qədər gətirib çıxarmışdı. 2022-ci ildə isə bu "vəzifə"sindən kənarlaşdırıldı. Ruben Vardanyan ötən ilin sentyabrın 27-də Azərbaycanın Laçın sərhəd-keçid məntəqəsində hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Dövlət Təhlükəsizlik Xidməti tərəfindən Ruben Vardanyan Azərbaycan Cinayət Məcəlləsinin bir sıra maddələri ilə ittiham olunub. Onun cinayətkarlıq fəaliyyəti sübut olunarsa, ən azı 30 ilədək həbs cəzası ala bilər".

Deputat qeyd edib ki, bu cinayətkar şəxs təkcə Azərbaycanda deyil, Ukraynada da separatizmə dəstək verib: "Ona görə Ukrayna tərəfindən sanksiyalara məruz qalıb. Ukraynalı deputatlar Vardanyanın "Nobel sülh mükafatı"na namizəd kimi göstərilməsi ilə bağlı Nobel Komitəsinə etiraz məktubu da göndəriblər. Ümumiyyətlə, Vardanyanın "Nobel sülh mükafatı"na namizəd göstərilməsi heç bir çərçivəyə sığmayan, absurd məsələdir. Separatizmə dəstək verən cinayətkar necə olur ki, siyasi məhbus kimi gündəmə gətirilir?! Hansı məntiqlə CNN kimi telekanallar Vardanyanı "qəhrəman" kimi təqdim edirlər?! Aydındır ki, bununla bağlı ortada "pul mübadiləsi" gedir, sifarişlər götürülür".

Arzu Nağıyev vurğulayıb ki, hələ Qarabağda olarkən özünün qəhrəman obrazını yaratmaq üçün kampaniya təşkil edən Vardanyan o dövrdə olduğu kimi, yenə də uğursuzluğa düçar olacaq. Onun guya aclıq aksiyasına başlaması, ailə üzvlərinin CNN kimi platformalarda danışdıqları çox keçmədən ifşa olunacaq. Ona görə də bu cinayətkarın müdafiəsinə qalxan ABŞ mediası və PR şirkətləri Vardanyanın düzüb-qoşduğu şounun qurbanı olmamaq üçün düşünməli və cinayətkara uyğun qərar verməlidirlər. Cinayətkar milyarderin puluna görə siyasi əqidəyə xəyanət etmək heç bir məntiqə sığmır".

Deputat sonda bildirib ki, Vardanyanın qəhrəmanlaşdırılması ilə bağlı aparılan təbliğatın sistemli və ardıcıl olması PR kampaniyasının konkret maraqlara xidmət etdiyini sübut edir. Vardanyanın çox uğursuz siyasətçi olduğunu nəzərə aldıqda isə məsələnin kökündə birbaşa pul faktorunun dayandığı bir daha aydınlaşır. Odur ki, gec və ya tez öz layiqli cəzasını alacaq bir cinayətkara görə, hansısa canfəşanlıq etməyə dəyməz. Ümid edək ki, ABŞ-nin şirkət və media qurumları bunu vaxtında başa düşəcək".

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

## Qərb fırıldaqçı milyarderi niyə müdafiə edir?!

### Vardanyanın çirkli pulların yuyulması sistemindən Üsamə bin Laden də istifadə edib

**Bədnam erməni oliqarx Ruben Vardanyanla bağlı növbəti təbliğat kampaniyası başlayıb və bu prosesə dünyanın məşhur PR şirkətləri cəlb olunub.**

Hər kəs yaxşı xatırlayır ki, Vardanyan Qarabağda olanda da bu cür kampaniya təşkil etmişdi, indi isə onun azadlığa buraxılması və "qəhrəmanlaşdırılması" istiqamətində təbliğat aparılır. İlk addım kimi Vardanyanın "Nobel sülh mükafatı"na namizəd kimi göstərilməsi, bunun ardından onun guya aclıq aksiyasına başlaması, ailə üzvlərinin CNN kimi platformalara çıxışı və sair.

### Qanunsuz əməliyyatlardan fantastik gəlirlər necə əldə edilib?

Ruben Vardanyan xarici ölkə vətəndaşı olduğu halda 2022-ci ilin sentyabr ayında Azərbaycanın dövlət sərhədini qanunsuz keçərək ölkəmizin Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi əraziyə daxil olub, Azərbaycan qanunlarına zidd fəaliyyətə başlayıb - terrorçu rejimdə təmsil olunub, silah-sursat alınmasında iştirak edib, Azərbaycanın ünvanına hədə-qorxu bəyanatları səsləndirib.

Vardanyanın təkcə Azərbaycanda yox, Ukraynada da separatizmə dəstək verməsi danılmaz faktdır. Bu səbəbdən o, Kiyev tərəfindən sanksiyaya məruz qalıb və ukraynalı deputatlar Nobel Komitəsinə etiraz məktubu göndəriblər.

Ruben Vardanyan üzdə xeyriyyəçi obrazı yaratsa da, 1990-cı illərdə qara pullarla varlanan, xüsusən çirkli pulların yuyulmasında mahir olan fırıldaqçı imiş. Hələ 2019-cu ildə OCCRP (Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi) R.Vardanyan barədə "The Troika Landromat" kimi təqdim edilən araşdırma hesabatını təqdim edib.

Hesabatda Ruben Vardanyanın Rusiyanın ən böyük investisiya bankı olmuş, sahiblik etdiyi "Troika Dialoq" və heç nədən xəbəri olmayan erməni fəhlələrin adlarına yaratdığı nəhəng ofşor şirkətlər vasitəsilə milyardlarla məbləğdə çirkli pulların yuyulmasına, bu qanunsuz əməliyyatlardan fantastik gəlirlər əldə etməsinə dair üzə çıxan çoxsaylı faktlar təqdim edilmişdir. Bildirilirdi ki, onun nəhəng ofşor şəbəkəsi milyardlarla pul vəsaitlərinin dövriyyəsini Rusiya Federasiyasına məxsus banklar vasitəsilə həyata keçirib.

Qeyd olunan şirkət 2006-cı ildən 2013-cü ilin əvvəlinə kimi fəaliyyət göstərərək mürəkkəb maliyyə şəbəkəsi yaradan azı 75 şirkətdən biri idi. Bu müddət ərzində "Troika" 4,6 milyard ABŞ dolları vəsaitin sistemə daxil olmasına, həm də 4,8 milyard dollar vəsaitin sistem vasitəsilə müəyyən istiqamətlərə yönəldilməsinə şərait yaratmışdır. Bu əməliyyatlar üzrə qarşı tərəflər arasında böyük Qərb bankları olan Citigroup Inc., Raiffeisen və Deutsche Bank da çıxış etmişdilər. Bunlardan başqa da həmin sistemə aid olan onlarla şirkət nağd pulun mənbəyini gizlətmək məqsədilə 8,8 milyard dollar dəyərində daxili əməliyyatlar həyata keçirmişdir.

### "Troika" pulyuma maşınıdı




Həmin ərəfələrdə Vardanyan "Troika"nın prezidenti, baş icraçı direktoru və əsas partnyoru idi. O, Skolkova Moskva İdarəetmə Məktəbi həmtəsisçisi, ölkənin biznes mühitinin inkişafına çalışan şəxs kimi tanınaraq Rusiya kapitalizminin Qərb dostu nümayəndəsi kimi qazandığı nüfuzu ilə fərəhlənirdi. Bu vaxt, "Troika"nın işçiləri qeyri-şəffaf maliyyə sistemi qururdular - OCCRP tərəfindən aşkar edilmiş əvvəlki çirkli pulların yuyulması sxemlərinə bənzədiyinə görə bu sistem "Troika" pulyuma maşını adlandırılırdı.

Əvvəlki çirkli pulların yuyulması sistemlərində olduğu kimi, burada da böyük əməliyyatların çoxu uydurma ticarət sövdələşmələri əsasında həyata keçirilirdi. Saxta invoyslar "mallar", "ərzaq malları", "metal mallar", "fakturalar" və "avtomobil hissələri" kimi müxtəlif adlarla rəsmiləşdirilirdi. Sızmış məlumatlara daxil olan invoyslar proksilər (həqiqi sahibin gizlədilməsi məqsədilə müvəkkil edilmiş digər şəxslər) tərəfindən təsdiq edilərək Troika.ru elektron poçt ünvanlarından göndərilirdi.

Bu əməliyyat portreti OCCRP və Litvanın "15min.lt" xəbər saytı tərəfindən əldə edilən və 21 media partnyoru ilə paylaşılan sızmış bank əməliyyatları və digər sənədlər toplusundan aşkarlanıb.

Bütövlükdə qeyd olunan məlumatlar 238 min şirkət və insan tərəfindən aparılan 1,3 milyondan çox bank əməliyyatlarından, eləcə də minlərlə elektron məktub, müqavilələr və şirkət qeydiyyatı formalarından əldə edilib.

O vaxt Rusiyada bu tipli təcrübələr adi hesab edilsə də, mütəxəssislər "Troika" pulyuma maşını kimi sistemlərin ciddi fəsadlar verə biləcəyini qeyd edirdilər.

Maliyyə laundromatları sadəcə çirkli pulların yuyulması sistemi deyildir. Bu həm də gizli investisiya vasitəsi, rüşvət ehtiyatı, vergidən yayınma sxemi və digər cinayətlərdən ibarət idi.

"Troika"nın müştəriləri bu sistemdən Böyük Britaniya, İspaniya və Monteneqroda əmlak, lüks yaxtalar və sənət əsərləri, tibbi xidmətlər və dünya çempionatının biletlərini almaq, övladlarının nüfuzlu Qərb məktəblərində oxumaları üçün təhsil haqqını ödəmək, hətta kilsələrə ianə etmək məqsədilə istifadə edirdilər.

Əlavə olaraq, "Troika Laundromat"ı mütəşəkkil cinayətkar qruplara və fırıldaqçılara əldə edilən çirkli pulları yumaq imkanı verirdi. OCCRP və tərəfdaşlar Rusiyada özlərinə məxsus pul vəsaitlərinin mənbəyini gizlətmək məqsədilə maliyyə laundromatı şirkətlərindən istifadə edən bir neçə yüksəksəviyyəli fırıldaqları müəyyən etmişdir.

Laundromatdan pul əldə edən şəxslər arasında Vardanyan və onun ailəsi də olmuşdur. 3,2 milyon dollardan artıq vəsait onun American Expres kartının ödənişlərinə istifadə edilmiş, həyat yoldaşına və ailəsinə məxsus hesablara köçürülmüş, Böyük Britaniyada üç övladının təhsil haqqının ödənilməsinə yönəldilmişdir.

1990-cı illərin əvvəllərində yaradılan "Troika Dialoq" Rusiyanın iri özəl investisiya bankına çevrilmişdi. O, 2012-ci ilə qədər ölkənin ən böyük dövlət kreditoru olan "Sberbank" tərəfindən satın alınana qədər Vardanyanın rəhbərliyi altında fəaliyyət göstərmişdir.

Bütün investisiya bankları kimi, "Troika"da səhm və istiqrazların buraxılması ilə, ilkin ictimai təkliflərlə məşğul olur və sığorta agenti kimi fəaliyyət göstərirdi. O, həmçinin "Citibank Inc"in yerli ofisi ilə güclü əlaqələrə malik idi, belə ki, "Troika"nın yeni investorlarının 20 faizə qədəri ABŞ-nin nəhəng təşkilatları vasitəsilə gəlirdi. "Troika"nın həmtəsisçisi Pavel Tepluxinin 2006-cı ildə verdiyi müsahibəyə əsasən, bu, Nyu Yorkda yerləşən Citibankı "Troika"nı ən böyük xarici maliyyə institutu etmişdir.

Bununla bağlı "George Mason" şirkətinin korrupsiya üzrə eksperti Şelley bildirmişdir: "Siz qeyri-qanuni ödənişin malların daşınması ilə əlaqəli olduğunu gizlədirsiniz. Bu gün dünyada çirkli pulların yuyulmasında ən mükəmməl sistem ticarət sistemidir. Əl-Qaidənin qurucusu Üsamə bin Laden də Yaxın Şərqdə pul köçürmək üçün oxşar sistemdən istifadə edirdi".

### ABŞ mediası və PR şirkətləri "Vardanyan şou"da...

Son vaxtlar qurulan "Vardanyan şou"da ABŞ mediası və PR şirkətləri də iştirak edirlər. Qərbin bəzi dairələri, məsələn USAİD, Samanda Pauer, ABŞ-nin EDELMAN PR şirkəti və sair bu oliqarxa dəstək verirlər. Vardanyanın çirkli pulu müqabilində bu gün CNN kimi telekanallar onu "qəhrəman" obrazında təqdim etməyə çalışırlar. Vardanyanın PR-ı ilə isə EDELMAN şirkəti məşğul olur. Bəs necə olur ki ABŞ şirkəti Ukraynada separatizmə birbaşa dəstək verən rusiyalı oliqarxı dəstəkləyir? Necə olur ki, Samanta Pauer kimi yüksəkçinli amerikalı məmur rusiyalı oliqarxa - pulyuma sisteminin ixtiraçısına dəstək verir?

Son məlumata görə, Vardanyan cəmiyyətdən təcrid olunsa da, Ermənistanda çaxnaşma yaratmaq cəhdlərindən hələ də əl çəkmir. Belə ki, Tavuşdakı etirazları Ruben Vardanyanın "Yaşamaq üçün ölkə" partiyası təşkil edib. Bunu erməni bloqçu Roman Baqdasaryan deyib: "Noyemberyan sakinləri mənə yazıblar ki, Tavuşda keçirilən aksiyaların arxasında "Yaşamaq üçün ölkə" Partiyasından pul alan adamlar var. Onlar Alaverdidəki dilənçi qadınlar taparaq, pul müqabilində Tavuşun yollarında oturdublar. Ruben Vardanyan, Bakıda həbsxanada oturanda belə xalqınıza kədər gətirirsiniz. Tanrı həm səni, həm də partiyanı cəzalandıracaq".

Xatırladaq ki, toplanılmış sübutlarla hazırda Ermənistan vətəndaşı olan Ruben Vardanyan Azərbaycan Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilib. Bu əməllərə görə onu uzun müddətə azadlıqdan məhrumetmə cəzası gözləyir. İstintaq davam edir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***




# AZERBAIJAN COP29

## Yaşıl dünya naminə həmrəylik ili 2024



**COP29-u beynəlxalq ictimaiyyət haqlı olaraq Azərbaycana böyük etimadın və dəstəyin göstəricisi kimi dəyərləndirir. Hazırda ölkəmiz bu mühüm tədbirə hazırlığın fəal mərhələsindədir.**




# "COP29 bütün dünya üçün faydalı olacaq"

## Müxtəlif ölkələrin aparıcı beyin mərkəzlərinin təmsilçiləri bu fikirdədir

Prezident İlham Əliyev dediyi kimi: "Bizim bir ildən az vaxtımız var idi və yaxşı nəticələr əldə etmək üçün biz olduqca fəal və səmərəli çalışmalıyıq. Əlbəttə, bizim üçün COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir".

Məqsəd iqlim dəyişikliyi ilə mübarizə baxımından COP29-un uğurlu olmasıdır. Bu, eyni zamanda ölkəmiz üçün uğur hekayələrimizi diqqətə çatdırmaq üçün bir fürsətdir. Belə ki, evsahibliyi edəcəyimiz bu unikal tədbirə on minlərlə qonağın gəlməsi gözlənilir. Onlara deyəcəyimiz söz, göstərəcəyimiz nailiyyət çoxdur. Əlbəttə, ilk növbədə həm də təbiətlə, ekologiya ilə, iqlim dəyişiklikləri ilə bağlı olanlar.

Şübhəsiz ki, COP29-a evsahibliyi etmək həm də böyük məsuliyyətdir. Azərbaycanın bu məsələyə necə ciddi yanaşdığını bütün dünya görür. Aprelin 23-də ADA Universitetində keçirilmiş "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum bunun daha bir nümayişi oldu.

Tədbirdə dövlətimizin başçısı demişdir: "Sədrlik veriləndən dərhal sonra müxtəlif QHT-lər və media tərəfindən bizə qarşı hücumlar olmuşdur - yenə də neft hasil edən ölkə COP-a sədrlik edir. Sanki elə bilin ki, bu, bizim günahımız idi. Mənim isə onlara mesajım ondan ibarət idi ki, bizim neft ölkəsi olmağımız bizim günahımız deyil. Baxın görün, biz bu resurslardan necə istifadə edirik. Əvvəla baxın görün ki, biz bu resurslardan ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması üçün necə istifadə edirik. Sonra baxın görün ki, biz ondan infrastruktur, "yaşıl enerji" üçün necə istifadə edirik. Beləliklə, bu gün biz sabit neft və artan qaz hasilatına malikik, eyni zamanda "yaşıl enerji" layihələrini inkişaf etdiririk".

Sözügedən forum müxtəlif ölkələrdən gəlmiş mütəxəssis, alim və siyasətçilərin Azərbaycanın COP29-a hazırlığı barədə fikirlərini, ümumiyyətlə, qarşıdakı qlobal konfransla bağlı təkliflərini söyləmək üçün bir imkan və məkan oldu.

Qazaxıstan Xarici İşlər Nazirliyi yanında Xarici Siyasət Araşdırmaları İnstitutunun İdarə Heyətinin sədri Bolat Nurqaliyev fikirlərini belə ifadə etdi: "Prezident İlham Əliyevlə görüşdə biz Azərbaycanın beynəlxalq mövqeyi ilə tanış olduq. Prezident, xüsusən də ölkənin COP29 beynəlxalq konfransına hazırlaşması kontekstində ən aktual məsələlərə toxundu. Azərbaycanın dövlət başçısı iqlim dəyişikliyi ilə bağlı məsələləri də qeyd etdi. Prezidentin söylədikləri Azərbaycanın müstəqillik illərində nə qədər irəlilədiyini, ən əsası Azərbaycanın beynəlxalq nüfuzunun artdığını göstərir. Sülh prosesi başlayandan sonra Azərbaycan dünya səviyyəsində əhəmiyyətli dərəcədə yüksəlib və son zamanlar bütün nailiyyətlər, əlbəttə ki, ölkənizin nüfuzunun əhəmiyyətli dərəcədə artmağa davam etməsi və Azərbaycanın üst səviyyəyə yüksəlməsi ilə bağlı olub".

Qazaxıstanlı ekspert bunların Azərbaycanın bütün dostlarına və xüsusən də Qazaxıstanın nümayəndəsinə sevinmək üçün böyük səbəb olduğunu söyləyərək əlavə edib: "Bu, bizim üçün böyük qürur mənbəyidir. Biz Azərbaycan xalqına öz mütərəqqi hərəkatını, sosial-iqtisadi inkişafını davam etdirməyi arzu edirik. Bu mühüm konfransın - COP29-un keçirilməsinin Azərbaycana həvalə olunması onu göstərir ki, beynəlxalq ictimaiyyət Azərbaycanın potensialını çox yüksək qiymətləndirir. Şübhəsiz ki, konfransın keçirilməsi nəticəsində yalnız ölkənizin mövqeyinin müəyyənləşməsi deyil, həm də ən aktual problemlərin həlli üçün əməli yollar tapılacaq. Məsələn, hazırda Qazaxıstanda vəziyyət çox çətindir. Daşqınlardan sonra ölkədə fövqəladə vəziyyət yaranıb. Bu, iqlim dəyişikliyinin və bu yeni çağırışlarla mübarizə aparmaq üçün təcili koordinasiya tədbirlərinin görülməsinin zəruriliyinin əyani təzahürüdür. Hesab edirəm ki, Azərbaycan COP29 çərçivəsində bu məsələlərin öhdəsindən uğurla gələcək".

Milandakı İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, "Eurasiaticanews"un təsisçisi və direktoru Karlo Marino da fikirlərini məmnuniyyətlə bölüşüb: "Dünən mənə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə iştirak etmək nəsib olub. Prezident məndə çox böyük təəssürat doğurdu. O, bizimlə üç saatdan çox görüşdü və bütün suallarımızı cavablandırdı. Mənim Prezidentə Azərbaycan ilə İtaliya arasında münasibətlər haqqında sual vermək imkanım oldu. Onun cavabı məni sevindirdi. Dövlət başçısı dedi ki, iki ölkə arasında münasibətlər çox yüksək səviyyədədir və qarşılıqlı fəaliyyət, o cümlədən "yaşıl iqtisadiyyat" sahəsində əməkdaşlıq üçün çoxlu yeni imkanlar mövcuddur".

Karlo Marino ölkəmizin beynəlxalq arenada müsbət imicə malik olduğunu vurğulayaraq əlavə edib ki, qarşıdakı COP29 konfransı Azərbaycan üçün öz potensialını bütün dünyaya nümayiş etdirmək baxımından gözəl imkandır: "Bu hadisə Azərbaycanın böyük uğurudur və eyni zamanda, bütün bəşəriyyətə aiddir. Əgər özümüzü ətraf mühitə həsr etsək və döyüşməyi dayandırsaq, dünya daha yaxşı olar".

Ceymstaun Fondunun İdarə Heyətinin üzvü Metyu Brayza Xəzəryanı dövlətlərin dəniz problemlərini həll etmək üçün toplanacağı Xəzər Dialoq Platformasının təşkil olunmasını tövsiyə edib: "Ölkələr iqlim dəyişikliyi ilə mübarizə aparmaq, ola bilsin ki, Xəzər dənizinin su ekosistemlərini, "yaşıl nəqliyyat" dəhlizlərini, dəniz ekosistemlərini qorumaq üçün COP29-da bir araya gələ bilərlər. Ancaq regional əməkdaşlıqda Azərbaycanın mərkəzə çevrilməsi, bundan sonra artıq təhlükəsizlik və sülhün iqlim dəyişikliklərinə qarşı mübarizədə effektiv rolunu qeyd etmək lazımdır".

Cenevrə Dövlət Universitetində Qlobal ətraf mühit siyasəti proqramının direktoru Aleksandr Hedjazi Azərbaycanın COP29-a hazırlıq məsələsinə yanaşma tərzinə heyran olduğunu bildirib: "Həm COP29-un məqsədlərinə, həm də davamlı inkişaf üçün uzunmüddətli baxışa həqiqətən yönəlmiş düşüncə, ixtiraçılıq və innovasiya səviyyəsi məni heyran edir. Ötən gün biz bunu Prezidentlə ətraflı müzakirə etdik".

Böyük Britaniyanın Methinks şirkətinin enerji təhlükəsizliyi üzrə mütəxəssisi Con Roberts sanki bütün iştirakçıların fikirlərini ümumiləşdirərək bildirib ki, Azərbaycanda keçiriləcək COP29-un bütün dünya üçün faydalı olacağına ümidvardır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Almaniya Azərbaycanı COP29-da dəstəkləməyə hazır olduğunu ifadə edib

**AZƏRTAC xəbər verir ki, bu barədə dünən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevin iştirakı ilə keçirilən brifinqdə Almaniya XİN-in başçısı Annalena Berbok bəyan edib.**



"Mən şadam ki, bu il COP29 Azərbaycanda keçiriləcək. Azərbaycan bu tədbir çərçivəsində Almaniyanın dəstəyinə əmin ola bilər", - deyə Almaniyanın xarici siyasət idarəsinin başçısı bildirib.

# Finlandiya Prezidenti Bakıda keçiriləcək COP29-a dəvət olunub



Azərbaycanın İsveç, Finlandiya, Norveç və Danimarkadakı səfiri Zaur Əhmədov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu ilin noyabr ayında Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçiriləcək Dünya Liderləri Sammiti ilə əlaqədar Finlandiya Prezidenti Aleksandr Stubba ünvanlanmış dəvət məktubunu Finlandiyanın İsveçdəki səfiri Maimo Henrikssona təqdim edib.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycanın COP29-a hazırlıq çərçivəsində atdığı ardıcıl addımlar barədə qarşı tərəfə məlumat verilib, eləcə də, Azərbaycan və Finlandiya arasında ikitərəfli əməkdaşlıq gündəliyinə nəzər salınıb.

Finlandiya səfiri dəvət məktubuna görə təşəkkürünü ifadə edib və onun yüksək ünvanına çatdırılacağını bildirib.

## *ABŞ Prezidentinin İqlim üzrə xüsusi nümayəndəsinin müavini:*

# "Azərbaycan COP29-la bağlı çox güclü komandaya malikdir"

**ABŞ Prezidentinin İqlim üzrə xüsusi nümayəndəsinin müavini Syu Biniaz AZƏRTAC-ın ABŞ bürosuna müsahibə verib. Müsahibəni təqdim edirik.**

*- Bizə müsahibə verdiyiniz üçün təşəkkür edirəm. Əvvəlcə belə başlamaq istərdim ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 bu il Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. Bu seçimi necə qiymətləndirirsiniz? COP29-dan gözləntiləriniz nələrdir?*

- Biz Azərbaycanın COP29-a evsahibliyi etmək üçün aparılan seçim prosesini dəstəklədik və hazırda COP komandası ilə işləməyi səbirsizliklə gözləyirik. Mən artıq onlarla işləməyə başlamışam. Gözləntilərə gəldikdə, bunu dörd hissəyə bölmək istərdim. Birincisi, Dubayda keçirilmiş sonuncu COP tədbirinin əldə etdiyi nəticələr çox güclü oldu. Bu, Paris Sazişi əsasında Qlobal Anbar (Global Stocktake) yaradıldı və bu istiləşmə ilə bağlı 1,5 dərəcə məhdudlaşdırmanı əlçatan məsafədə saxlamaq və iqlim təsirlərinə davamlılığı və uyğunlaşmanı təşviq etmək üçün bir növ yol xəritəsi kimi nəzərdən keçirildi. Beləliklə, COP29 üçün ən vacib məsələlərdən biri bu qərarın icrası ilə bağlı tempi qüvvədə saxlamaqdır. Biz Dubayda əldə olunmuş qərarın masa üzərində qalmasını istəmirik. Bu istiqamətdə addımlar COP çərçivəsində razılaşdırılmış bəzi qərarlarla bağlı yan təşəbbüs və tədbirlərin keçirilməsi şəklində atıla bilər. Bu, birinci gözləntimizdir.

İkinci vacib məsələ isə COP29-da iqlim dəyişikliyi ilə mübarizədə maliyyə üzrə qərar qəbul edilməsinin nəzərdə tutulmasıdır. İndiyədək 100 milyard dollar məbləğində maliyyə toplanmasına dair hədəf mövcud idi və bu hədəfə əsasən, inkişaf etmiş ölkələr 2020-ci ildən başlayaraq hər il bu maliyyəni toplamaqla inkişaf etməkdə olan ölkələrə dəstək barədə razılıq vermişdilər. Bu hədəf 2024-cü ildən sonra başa çatır. Yəni razılaşma 2024-cü ilə kimi idi və bu o deməkdir ki, 2025-ci ildən etibarən hansı addımlar atılacağına dair bu il qərar vermək lazımdır. Beləliklə, COP-da həll edilməsi vacib olan məsələlərdən biri Yeni Kollektiv Kəmiyyət Məqsədi (New Collective Quantified Goal-NCQG) adlandırdığımız yeni hədəfin müəyyənləşdirilməsidir.

Üçüncü gözləntimiz Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (National Determined Contributions - NDC) bağlıdır. Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr Paris Sazişinin onurğa sütunudur. Burada tərəflər istixana qaz emissiyalarının azaldılması ilə bağlı öhdəliklərinin nədən ibarət olmasına dair qərar verirlər. Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin növbəti yığımı gələn ilin fevralınadəkdir. Yəni bir ildən az vaxt qalıb və bu, Azərbaycanın COP-a sədrlik etməsindən qısa müddət sonradır. Beləliklə, Bakıda ən vacib məsələlərdən biri odur ki, iddialı Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr paketinin əldə olunmasının əsası qoyulsun. Azərbaycan artıq 1,5 dərəcə selsi ilə məhdudlaşdırmaya uyğunlaşdırılacaq güclü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr müəyyənləşdirəcəyini elan edib. Düşünürük ki, COP29-a sədrlik edən Azərbaycanın bu addımı digər ölkələr üçün çox yaxşı nümunə olacaq.

Sonuncu, dördüncü gözləntimiz İkiillik Şəffaflıq Hesabatları (Biennial Transparency Reports-BTR) ilə bağlıdır. Bu o deməkdir ki, Paris Sazişinə əsasən, bütün tərəflər istixana qaz emissiyalarına dair hesabatların təqdim edilməsi üçün çox güclü şəffaflıq sisteminin qurulmasına dair razılığa gəliblər. Buraya, həmçinin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin icrası və emissiya öhdəlikləri ilə bağlı hesabat da daxildir. İlk hesabat bu il dekabrın 31-dək hazır olmalıdır. Beləliklə, Azərbaycan sədr ölkə kimi mümkün qədər çox ölkənin hesabatla bağlı müəyyənləşdirilmiş son tarixə əməl etmələri üçün çalışır. Səhv etmirəmsə, mayın ortalarında Bakıda bununla bağlı seminar keçirilməlidir. Bununla yanaşı, düşünürəm ki, biz Azərbaycanla birlikdə Afrika qitəsi üçün müəyyən işlər görməyə çalışacağıq. Bilirsiniz ki, bu ölkələrin potensialının artırılması üçün çox köməyə ehtiyacları var. Bütün hallarda dördüncü gözləntimiz odur ki, COP29 daha çox ölkənin hesabatla bağlı müəyyənləşdirilmiş son tarixə əməl etməsində böyük rol oynayacaq.

*- Bu ilin fevralında Münxendə Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ Prezidentinin iqlim məsələləri üzrə xüsusi elçisi Con Kerri arasında görüş oldu. ABŞ Dövlət Katibinin enerji ehtiyatları üzrə köməkçisi Cefri Pyatt bəyan edib ki, Birləşmiş Ştatlar Azərbaycanın COP29-a sədrliyini çox güclü şəkildə dəstəkləyir. COP29 mövzusuna aprelin 3-də ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərkən də toxunulub. Ümumilikdə COP29-un təşkili ilə bağlı Azərbaycanla ABŞ arasında hansı istiqamətdə təmaslar var və nə kimi əməkdaşlıq addımları atılır?*

- Düşünürəm ki, bunlar çox müsbət addımlardır. İlk növbədə biz COP29-la bağlı Azərbaycanın sədrliyini alqışladıq. Biz demək olar ki, hazırda komanda ilə bütün səviyyələrdə işləyirik. Qeyd edim ki, Azərbaycan çox güclü komandaya malikdir. Bu ilin əvvəlində biz Bakıda olduq. Bir sıra nazirlərlə, o cümlədən COP29-un prezidenti ilə müxtəlif görüşlər keçirdik və COP-da müzakirə olunacaq məsələlər, o cümlədən COP-un nəticələrini sürətləndirə biləcək yan təşəbbüslər və tədbirlər barədə fikir mübadiləsi apardıq. Ötən həftə Azərbaycanın COP komandası Dünya Bankının keçirdiyi görüşlər çərçivəsində Vaşinqtonda səfərdə oldu. Biz komanda ilə təkrar görüşdük və bu həftə Berlində bir araya gələcəyik. Yəni həm COP prezidenti, həm baş danışıqçı, həm də komanda ilə müxtəlif səviyyələrdə təmaslar gerçəkləşir.

*- COP çərçivəsində Azərbaycanın sədrliyi iqlim maliyyələşdirilməsi mövzusuna həsr olunub. Bu mövzu COP-un gündəliyində duran ən vacib məsələlərdən biridir. İqlim maliyyələşməsinin qarşısında duran əsas problemlər nədir, COP29 və Azərbaycan bu məsələnin həllinə necə töhfə verə bilər?*

- Doğrudur, iqlim maliyyələşməsi builki COP-un əsas mövzusudur, lakin yeganə mövzusu deyil. Paris Sazişinə baxdıqda görürük ki, hədəflər temperatur artımının təhlükəsiz temperatura qədər məhdudlaşdırılmasını, iqlimin təsirlərinə dözümlülüyü və uyğunlaşmanı təbliğ etməkdir. Bunlar ambisiyalı hədəflərdir. Aydındır ki, bunların həlli çox maliyyə tələb edir. Bu günədək beynəlxalq danışıqlar daha çox 100 milyard dollarlıq hədəfə köklənmişdi. Təbii ki, bu çox vacib hədəfdir və biz bu hədəfin davamı barədə razılığa gələcəyik. Lakin biz daha böyük çərçivədən də baxmalıyıq, çünki 100 milyard dollar iqlim böhranını həll etmək üçün kifayət deyil. Ona görə də biz istər özəl sektor, istər ölkələr daxilində yerli investisiya, istər çoxtərəfli inkişaf bankları, istərsə də davamlı donor ölkələr və onların dəstəyi olsun - bütün növ maliyyə mənbələrini nəzərdən keçirməliyik. Ona görə də düşünürəm ki, biz 2024-cü ilə yalnız dar mənada yeni dəstək hədəflərini müəyyən etmək kimi deyil, daha geniş baxmalıyıq. Bilirsiniz ki, bəzən söhbət milyardlardan deyil, trilyonlardan gedir.

*- Ümumiyyətlə, ABŞ Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid istiqamətində atdığı addımları necə dəyərləndirir və bu istiqamətdə iki ölkə arasında hansısa əməkdaşlıq planları var? İqlim hədəflərinin uzlaşdırılması istiqamətində tərəflər arasında nə kimi dialoq mövcuddur?*

- Biz Azərbaycanın "yaşıl enerji" iqtisadiyyatına keçidlə bağlı bəzi planları barədə məlumatlıyıq. Onların bəziləri Xəzər dənizi və külək enerjisi ilə bağlıdır. Biz Azərbaycanla əməkdaşlıq planları və imkanları barədə daha çox müzakirələr aparmaqda maraqlıyıq. Buraya təkcə Xəzər dənizində külək enerjisi deyil, ümumilikdə külək enerjisi, Günəş enerjisi məsələləri daxildir. Hesab edirəm ki, Azərbaycanda bərpaolunan enerji ilə bağlı çoxsaylı imkan və potensial mövcuddur. Bu, ABŞ-nin marağında olan və COP29-a gedən yolda araşdırmaq istədiyimiz sahədir.

*- Bilirsiniz ki, Xəzər dənizinin külək potensialı əsasında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı əhatə edən "yaşıl enerji dəhlizi" layihəsi mövcuddur. ABŞ-lə bu enerji dəhlizi üzrə nə kimi əməkdaşlıq imkanları ola bilər?*

- Bu layihə haqqında daha çox məlumat əldə etmək üçün həvəsli və maraqlı olduğumuzu söyləyə bilərik. Layihə barədə cəlbedici nələrsə eşitmişik və daha çox öyrənmək istəyirik. Əlbəttə, bu sahədə əməkdaşlığa müəyyən maraq ola bilər.

*- Azərbaycan hər il "Cənub Qaz Dəhlizi" üzrə Məşvərət Şurasının iclasına evsahibliyi edir. Artıq 2 ildir paralel olaraq Bakıda "Yaşıl Enerji" Məşvərət Şurası nazirlərinin iclası da keçirilir. Bu iclasın keçirilməsinin qlobal miqyasda "yaşıl enerji"yə keçidin təşviq olunmasındakı rolunu necə görürsünüz?*

- Bəli, biz bu barədə məlumatlıyıq. Bu, Azərbaycan və Avropa İttifaqının keçirdiyi tədbirdir. Biz tədbirdə prosesin inkişafını izləmişik. Belə bir tədbirin olmasından məmnunuq. Düşünürəm ki, bu, görüşün özü və verilən bəyanatlar baxımından çox vaxtında təşkil olunmuş tədbirdir. Yəni mədən yanacaqlarından imtinaya dair Dubay razılaşmasının olmasını və növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr yığımının yaxınlaşdığını nəzərə alsaq, deyə bilərik ki, bərpaolunan enerji ilə bağlı istənilən növ əməkdaşlıq bizi sevindirir.

*- Bildiyimə görə, sizin etnik olaraq regionla bağlılığınız var. Bu barədə daha detallı məlumat verməyinizi istərdim.*

- Nəhayət, bu il ilk dəfə Azərbaycana getdiyim üçün çox sevinirdim. Çünki atam iranlıdır. Mən həmişə bilirdim ki, onun anasının qızlıq soyadı Naxçıvandır. Lakin çox sonralar bildim ki, Naxçıvan Azərbaycan daxilində muxtar respublikadır. Yeniyetmə yaşlarımdan bunu biləndə hər zaman beynimdə Azərbaycana və xüsusilə Naxçıvana getmək fikri var idi. Bakıda olanda da "Naxçıvan" adlı restorana getdik və orada milli yeməkləri yedim. Amma COP-dan sonra Naxçıvana getməyi və ailəmin bir hissəsi olan bu şəhərlə tanış olmağı düşünürəm.

*- İndiyədək bu barədə hansısa araşdırma aparmısınızmı?*

- Əlbəttə, mən artıq bunu araşdırmışam. Bildiyimə görə, nənəmin ailəsində hər kəs general olub. Onlardan biri II Dünya müharibəsi zamanı İranda nazir vəzifəsində çalışıb. Lakin onların harada doğulduğunu dəqiq olaraq bilmirəm. Fikrimcə, onlar Təbrizdə doğulublar, amma buna əmin deyiləm. Bunu aydınlaşdırmaq üçün axtarışlar aparıram.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ölkəmiz qlobal dəhliz layihələrinin də əsas iştirakçılarındandır

### Prezident İlham ƏLİYEV: "Bu gün Trans-Xəzər Nəqliyyat Dəhlizinə heç vaxt olmadığı qədər ehtiyac var"

**Dünyada qütbləşmə və qarşıdurma sənginmək əvəzinə getdikcə kəskinləşir. Tərəflər bir-birinə gizli və açıq savaş elan ediblər. Düzdür, hələlik onlar birbaşa döyüşmürlər, bunu Rusiya-Ukrayna, HƏMAS-İsrail müharibəsi, müxtəlif terror təşkilatlarına açıq və ya gizli dəstək verməklə həyata keçirirlər.**



Mütəxəssislərin gəldikləri qənaətə görə, açıq və total şəkildə üçüncü dünya müharibəsi enerji resursları və beynəlxalq ticarət marşrutları ələ keçirildikdən sonra başlanacaq. İndiyədək Ermənistan tərəfindən Zəngəzur dəhlizinin açılmasına olan maneçiliyə də bu kontekstdən baxmaq lazımdır. Elə Amerikanın Azərbaycana zaman-zaman müxtəlif bəhanələrlə etdiyi təzyiqlərin bir səbəbi də Orta və Zəngəzur dəhlizləri ilə bağlıdır. ABŞ başda olmaqla Qərb anlayır ki, Çinin "Bir kəmər, bir yol" layihəsinin davamı olan Orta dəhlizin fəaliyyətində region ölkələri maraqlıdır və onları bundan imtinaya məcbur etmək mümkün deyil. Bunun üçün də müxtəlif vasitələrlə Orta dəhlizə və "Şimal-Cənub" marşrutuna nəzarəti ələ keçirmək istəyirlər. Bütün ziddiyyətlər də bundan qaynaqlanır.

Hazırda Qərb dünyanın demək olar ki, enerji resurslarının böyük əksəriyyətinə nəzarət edir. Qalır dünya ticarət marşrutları. Amma bu sahədə ciddi müqavimət var. Səbəbi hər bir dövlətin ərazisindən keçən dünya əhəmiyyətli layihənin iştirakçısı olub siyasi və iqtisadi dividendlər qazanmaq istəməsidir.

Məlum olduğu kimi, hazırda dünya ticarətinin 80 faizi okean və dənizlər üzərindən həyata keçirilir. Həmin ticarətə isə dünyada ən güclü hərbi dəniz donanması olan ABŞ nəzarət edir. Belə hal bir çox ölkədə ciddi etiraz doğurur. Çin Xalq Respublikasının Mərkəzi Hərbi Şurasının sədr müavini, general-polkovnik Çjan Yüsyanın həyəcanlı bəyanatı da bununla bağlıdır. General bildirib ki, okeanlar döyüş və güc nümayişi meydanına çevrilməməlidir, çünki tarix dənizdə hakimiyyət uğrunda mübarizənin bəşəriyyətə ancaq iztirablar gətirdiyini göstərir. O, okeandan dinc məqsədlərlə istifadənin bəşəriyyətin inkişafına töhfə verdiyini, onun nəzarəti uğrunda mübarizənin isə ancaq bədbəxtlik gətirdiyini vurğulayaraq deyib: "Dünya okeanları güc nümayişi və qarşıdurma üçün deyil, dinc yanaşı yaşamaq və ümumi maraqların möhkəmləndirilməsi platformasına çevrilməlidir. Bu gün qlobal okean idarəçiliyi yeni problemlərlə üzləşir və okeanın təhlükəsizliyini və inkişafını təmin etmək üçün bir araya gəlməlidir. Çin ordusu həmişə beynəlxalq əməkdaşlığı dəstəkləyib və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib".

Çinin qlobal "Bir kəmər, bir yol" layihəsi ilə ticarət marşrutlarını dənizlərdən quru ərazilərə keçirməsi də bu rahatsızlıqdan qaynaqlanır. Çünki quru yolla ticarətində maraqlı ölkələrin sayı çox olur və onların müqavimətini qırmaq Qərb üçün çətindir. Çin də bu fürsətdən istifadə edib ABŞ-yə və onun müttəfiqlərinə qarşı mübarizə aparmaq üçün quru yolla ticarət aparmağa üstünlük verir.

Mütəxəssislərin fikrincə, Qərbin Orta dəhlizə alternativ olaraq yaratdığı "Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi" (İMEC) ideyası istənilən nəticəni verməyəcək. Belə ki, bu marşrut yaradılarkən Türkiyə faktoru nəzərə alınmalıdır. Amma qəsdən Türkiyə bu nəhəng layihədən kənarda tutulub. Halbuki bu marşrutun Türkiyə üzərindən keçməsi iqtisadi baxımdan ən düzgün qərar olar bilərdi.

Türkiyənin Qərbin bu gedişinə həmləsi gecikmədi. Prezident Rəcəb Tayyib Ərdoğanın İraq səfəri zamanı "Kalkınma yolu" ("İnkişaf yolu") marşrutu ilə bağlı müqavilə imzalandı. Yeni müqavilə İMEC-in iqtisadi dəyərinə böyük zərbə vurur. Belə ki, İraqın Bəsrə limanından başlanan, Türkiyədən keçən 1200 kilometrlik marşrut İMEC-dən iqtisadi cəhətdən Avropaya və əksinə yük daşımaq üçün daha sərfəli marşrutdur. Bu layihəyə Birləşmiş Ərəb Əmirlikləri ilə Qətər də qoşulub. Bununla dünya ticarətində önəm daşıyacaq marşruta aid sənədi dörd ölkə birlikdə imzalayıb.

Onu da qeyd edək ki, bu yolun istismara verilməsi üçün az vəsait və az vaxt lazımdır. Sözün qısası, görünən odur ki, yeni dünya düzənində türk dövlətləri qlobal miqyasda siyasi və beynəlxalq ticarət yolları ilə bağlı söz sahibinə çevrilir. Bu tarixi fürsət yeni yüzillikdə türk dövlətlərinə öz müstəqilliklərini qorumaqla yanaşı, dünyada söz sahibi olmaq imkanı da verəcək. Artıq üzümüzü başqa yerlərə tutmağa ehtiyac qalmayacaq. Üstəlik, bəzilərinin üzlərini bizə sarı döndərməyə məcbur olacaqları günə çox qalmayıb.

Bu tarixi imkanı ən yaxşı dəyərləndirən Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı andiçmə mərasimində yeni dünya düzənində türk dünyasının beynəlxalq əhəmiyyəti, hansı siyasi orbitdə ölkəmizin yer alacağı barədə demişdir: "Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Çinlə Avropa arasında olan geniş coğrafi məkan türk dövlətlərinə məxsusdur. Buna görə də ÇXR-in də dünya ticarətini okean və dənizlərdən yan keçirməklə quru yolla aparmaq üçün türk dünyası ilə əməkdaşlıq etməyə ehtiyacı var. Bu üzdən son dövrlər "Əjdahalar ölkəsi" Orta Asiyadakı türk dövlətləri və Azərbaycanla siyasi və iqtisadi əməkdaşlığı artırmağa xüsusi önəm verir. Dövlətimizin başçısı dəfələrlə bu qarşılıqlı fayda gətirən əməkdaşlığın Çinə, türk dünyasına, həmçinin bütün dünyaya xeyir gətirəcəyini bildirmişdir. Prezident növbəti dəfə Azərbaycanın tranzit ölkə kimi dünya üçün əhəmiyyətli olması barədə aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda demişdir: "Bu gün Trans-Xəzər Nəqliyyat Dəhlizinə heç vaxt olmadığı qədər ehtiyac var. Biz Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını görürük. Yeri gəlmişkən, ötən ay Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Beləliklə, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi. Sözsüz ki, Qazaxıstanla Çin daha fəal əməkdaşlıq edir. Lakin Azərbaycanla Çin də əməkdaşlıqlarını çox ümidverici və çox nəticəyönümlü şəkildə inkişaf etdirir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Rehabus" layihəsi üzrə əlilliyi olan 1400-dən çox şəxsə xidmət edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2022-ci ildən icrasına başladığı "RehaBus" (Reabilitasiya Avtobusu) layihəsi çərçivəsində əlilliyi olan 1410 şəxsə xidmət göstərilib.**

Bakı və ətraf ərazilərdə yaşayan əlilliyi olan şəxslərin ambulator və icma əsaslı reabilitasiya xidmətlərinə əlçatanlığını artırmağa xidmət edən layihə həmin şəxslərin müvafiq reabilitasiya müəssisəsinə asan, rahat şəkildə çatmasını təmin edir.

Reabilitasiya avtobusları Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunda əvvəlcədən təyin edilmiş gözləmə məntəqələrindən əlilliyi olan uşaqları (onları müşayiət edən yaxınları ilə birgə) götürərək Bakı şəhərindəki 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə çatdırır.

Reabilitasiya proseduru bitdikdən sonra isə onlar yenidən geri qaytarılırlar.

## Dərinsulu Günəşli platformasında hasilat profilaktik işlər səbəbindən dayandırılıb

**"Azəri-Çıraq-Günəşli"nin (AÇG) illik iş proqramının bir hissəsi olaraq Dərinsulu Günəşli platformasında planlaşdırılmış profilaktik işlər proqramı həyata keçirilir.**



BP-dən bildirilib ki, plana əsasən, Dərinsulu Günəşli platformasından hasilat aprelin 25-dən başlayaraq 15 gün müddətinə dayandırılıb ki, planlaşdırılmış profilaktik işlər, inspeksiya və layihə işləri effektiv şəkildə aparılsın.

Bu proqram çərçivəsində müxtəlif layihələr, o cümlədən ventillərin dəyişdirilməsi, radioizotop mənbələrin dəyişdirilməsi və vacib təmir işləri həyata keçiriləcək.

Belə proqramlar normal əməliyyatların bir hissəsidir və onlar planlaşdırılmış şəkildə həyata keçirilir. Bu proqramın planlaşdırılması işlərinə 2023-cü ildən başlanılıb və proqram üzrə həyata keçirilən işlər cari ilin illik iş proqramı və büdcəsinə daxil edilib. Platformanın müvəqqəti dayandırılması həmçinin bu ilin hasilat planına da daxil olunub.

AÇG-nin digər platformalarından, həmçinin "Şahdəniz" yatağının platformalarından hasilat, Səngəçal terminalında əməliyyatlar, "Bakı-Tbilisi-Ceyhan" və Cənubi Qafqaz Boru Kəməri (CQBK və CQBKG) vasitəsilə ixrac əməliyyatları normal davam edir.

Bu planlaşdırılmış proqram obyektlərin uzunmüddətli təhlükəsiz, etibarlı, bütöv şəkildə, ətraf mühitə ziyan vurmadan istismarının vacib bir hissəsidir və əsasən elə profilaktik təmir və modifikasiya işlərindən ibarətdir ki, həmin işləri yalnız obyektin fəaliyyətini müvəqqəti dayandıraraq həyata keçirmək mümkündür.

## "Azeri Light" markalı neft ucuzlaşıb

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,59 dollar və ya 0,66 faiz azalaraq 88,9 dollar olub.**

AZƏRTAC xəbər verir ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Beynəlxalq "İKT-də Qızlar" Günü ilə bağlı forum keçirilib

**"INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzində Beynəlxalq "İKT-də Qızlar" Günü ilə bağlı "Qadın, Texnologiyalar və İnnovasiyalar" adlı forum keçirilib.**

Tədbir "Könüllü DOST" proqramı və "ASAN Könüllüləri" Təşkilatı tərəfindən "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin və DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin tərəfdaşlığı, ASAN Radio və DOST TV-nin media dəstəyi ilə təşkil olunub.




"Könüllü DOST" proqramına və "ASAN Könüllüləri" təşkilatına üzv olan 70-dən çox xanım könüllülərin iştirak etdiyi tədbir gənc xanımları İKT sahəsinə cəlb etmək, onların bu sahədə fəaliyyətini stimullaşdırmaq məqsədi daşıyıb.

Forumda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Layihələrin idarəedilməsi və texnoloji həllər şöbəsinin müdir müavini Aynur Qurbanlı, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin Rəqəmsal İqtisadiyyat şöbəsinin rəhbəri Xəyalə Fətullayeva, "BakuID" investisiya tədbirinin rəhbəri Talifa İsgəndərli, "Zəhra Kosmosda" platformasının təsisçisi, kontent yaradıcısı Zəhra İmanova və "Unibank"ın Digital laboratoriya şöbəsinin back-end üzrə baş mütəxəssisi Süsən Yunisova İKT-də qadınların rolu və şəxsi uğur hekayələri barədə məlumat veriblər.

İKT-də gender bərabərliyinin qadınların hüquq və imkanlarının genişləndirilməsində əsas amillərdən biri olduğu qeyd edilib. İştirakçıların böyük marağına səbəb olan forum sual-cavab sessiyası və "Mədəniyyət Carçısı" proqramının üzvlərinin ifaları ilə yekunlaşdırılıb.

## Ölkəmiz sürətlə Çin bazarına daxil olur

### ÇXR-də Azərbaycanın 5 Ticarət Evi artıq fəaliyyət göstərir

**Xəbər verildiyi kimi, Çinin Sıçuan vilayətinin paytaxtı Çendu şəhərində "Azərbaycan Ticarət Evi" fəaliyyətə başlayıb. Ticarət evinin açılış mərasimində çıxış edən Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov, Siçuan şəhəri Çinbaycian rayonunun xalq hökuməti sədrinin müavini Ley Tin, "Azərbaycan Ticarət Evi"nin rəhbəri Huan Çao iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişafından danışıblar.**



Bildirilib ki, Ticarət Evi dadı və keyfiyyəti ilə seçilən Azərbaycan məhsullarının Çində təşviqi ilə yanaşı, iki xalq arasında mədəni əlaqələrin dərinləşməsində də rol oynayacaq.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanda istehsal edilən məhsulların "Made in Azerbaijan" brendi ilə xaricdə tanıdılması üçün müxtəlif ölkələrdə ticarət evlərinin açılması prosesi 2017-ci ildən start götürüb. İlk ticarət evi həmin il Rusiyanın Arxangelsk vilayətində açılıb. Sonrakı illərdə Belarus, Ukrayna, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Latviya, Çin, Qazaxıstan, Qətərdə belə evlər fəaliyyətə başlayıb. Həmin ölkələrdəki ticarət evləri Azərbaycanın ticarət imkanlarının artırılması, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və ölkəmizə xarici investisiyanın cəlb edilməsi baxımından əhəmiyyətli olub. Azərbaycanın xarici ticarət tərəfdaşlarının da ölkəmizin bu sahədə böyük ixrac potensialının olduğunu etiraf etmələrinin bir səbəbi də budur.

İlk zamandan xaricdə ticarət evlərinin açılmasında qarşıya məqsəd qoyulmuşdu ki, qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlar üçün xarici ölkələrə çıxmaq imkanı yaradılsın. Bu məqsəd yerinə yetirilərsə, sahibkarlar həmin ölkələrin fərqli sektorlarında vəziyyəti öyrənəcək və bazarlarda marketinq araşdırmalarının aparılmasını təmin edəcəklər. Nəticədə Azərbaycan məhsulları tanıdılacaq, birgə layihələr həyata keçiriləcək və sərmayə qoyuluşları reallaşacaq. Belə də oldu. Bu gün Azərbaycandan kənarda fəaliyyət göstərən 15 Ticarət Evi "Made in Azerbaijan" brendini tanıtmaqla yanaşı, ölkələr arasında iqtisadi əlaqələrin qurulmasına da töhfə verir. Ticarət evlərinin fəaliyyət göstərdiyi Avropa və Asiyadakı ölkələr genişhəcmli bazarlara malikdirlər, iqtisadiyyatları inkişaf edib, əhalinin alıcılıq qabiliyyəti yüksəkdir. Ona görə də məhz bu ölkələrin bazarlarında mövqe qazanmaq və məhsulları reallaşdırmaq Azərbaycana fayda verir.

Onu da deyək ki, ticarət evləri fəaliyyət göstərdiyi ölkələrin elə bir ərazisində yaradılır ki, həm obyekt geniş sahəni əhatə etsin, həm də əhalinin gediş-gəlişi, alış-verişi üçün rahat məkan olsun. Bu məsələdə İqtisadiyyat Nazirliyinin rolu böyükdür. Nazirliyin dəstəyi ilə Ticarət evlərində təkcə alış-veriş yox, həm də Azərbaycanın zəngin mədəni irsinə, turizm potensialına, iqtisadi imkanlarına, eləcə də sərmayə mühitinə aid materiallar nümayiş etdirilir.

Çində açılan Ticarət Evi də bu baxımdan istisna deyil. Çendu şəhərindən Orta dəhliz vasitəsilə Avropaya göndərilən yük qatarları məhz bu azad zonadakı beynəlxalq dəmir yolu limanından yola salınır. Liman ərazisindəki ölkə pavilyonları şəhərciyində yerləşən Azərbaycan Ticarət Evinin sahəsi təxminən 600 kvadratmetrdir. Hazırda bu şəhərcikdə Türkiyə, Yunanıstan, Almaniya, İtaliya, İspaniya, Niderland, Belçika və Yeni Zelandiya da daxil olmaqla 34 ölkənin pavilyonu fəaliyyət göstərir. Azərbaycn Ticarət Evi ən böyüklərdən biridir. Ticarət evinin operatoru olan "Sichuan Rongda Juxin International Trade" şirkəti Azərbaycan məhsullarının idxalçısı və bir neçə Ticarət Evinin operatoru olan "Sino-foreign Economic Cooperation (Peking) Science and Trade" şirkəti vasitəsilə Azərbaycan məhsullarının alışını həyata keçirir. Şirkət geniş işgüzar əlaqələri vasitəsilə gələcəkdə Azərbaycan məhsullarının Çendu şəhərində satışını genişləndirməyi hədəfə alıb.

Qeyd edək ki, bu, Azərbaycanın Çində sayca 5-ci Ticarət Evidir. Digər 4 Ticarət Evi Çindao, Canciaciye, Sian və paytaxt Pekində fəaliyyət göstərir. Əhalisinin sayına görə dünyanın nəhəng dövlətlərindən olan Çində 5 Ticarət Evinin açılması müsbət haldır. Sonuncu Ticarət Evinin yerləşdiyi Çendunun 21 milyon əhalisi var, ölkənin ən iri 4-cü şəhəridir. Çinin əsas iqtisadi, maliyyə, ticarət, nəqliyyat, kommunikasiya və tədqiqat mərkəzlərindən biridir. Şəhərin ümumi daxili məhsulunun dəyəri 310 milyard dolları ötür. Çində Pekin və Şanxaydan sonra ərazisində 2 beynəlxalq hava limanı olan 3 şəhərdən biridir. Ölkənin əsas dəmir yolu qovşaqlarından biri olan Çendudan Avropa da daxil, dünyanın 61 şəhərinə qatarlarla yüklər daşınır. Çendu dünyada elmi-texnoloji tədqiqatların həcminə görə 25 əsas şəhər siyahısındadır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

"Azərbaycan"ın tənqidi çıxışından sonra...

# Bizi kəmiyyət yox, keyfiyyət qane etmir



**Qəzetimizin 5 mart 2024-cü il tarixli sayında "Doğrudanmı biz bu qədər kasıbıq?!" başlıqlı məqalə dərc olunmuşdu. Məqalənin məğzini, yəni nədən bəhs etdiyini elə həmin məqalədən gətirdiyimiz sitatla açıqlayaq:**

*"Torpaqlarımızı işğalçılardan təmizləyərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa edərək mümkün olmayanı gerçəkliyə çevirmişik.*

*Amma ötən üç-dörd ildə bu möhtəşəm Zəfərin, qəhrəman sərkərdə və oğullarımızın şücaətini, igidliyini, qeyrət və mərdliyini əks etdirən bədii əsər, bədii film yaradıb ortaya qoymamışıq".*

Sitatdan belə görünə bilər ki, müəllifin məqaləni yazmaqda məqsədi məlum, məramı aydındır - indiyəcən Qələbəmizə, onun müəlliflərinə aid, ən əsası möhtəşəm Zəfərə layiq yazılı və viziual bədii əsərlərin yaranmaması qəbuledilməzdir! Lakin məqaləni diqqətlə oxuyub mahiyyətinə varanda məlum olur ki, bu, heç də tam belə deyil. Yenə məqaləyə müraciət edək. Müəllif erməni işğalının 30 il ərzində ölkəmizə və xalqımıza yaşatdığı görünməmiş faciələri sadalayaraq sual edir: *"Niyə bunları bədii əsərlərə və filmlərə çevirib dünyaya təqdim etmirik?" "Niyə real həyatda mövcud olan qəhrəmanlar kino lentlərində yoxdur?!"* Bax sözügedən məqalənin əsl yazılma səbəbi, vermək istədiyi mesaj budur, daha Mədəniyyət Nazirliyinin imzasız-filansız redaksiyamızın elektron ünvanına göndərdiyi "cavab məktub"unda sadalanan və heç kəsin eşitmədiyi, görmədiyi, oxumadığı hesabat xarakterli siyahısı yox!

İndi keçək əsas mətləbə.

Biz yazanda ki, birinci və ikinci savaşlar da daxil olmaqla keçmiş Qarabağ münaqişəsi, onun yaranma səbəbləri, tarixi, faciələri və digər həqiqətləri barədə hələ də dəyərli əsərlər yaradılmayıb, heç də bu mövzuya aid statistikanı nəzərdə tutmuruq. Ola bilsin, say sarıdan bu mövzuya aid ermənilərin yazdıqlarından, çəkdiklərindən geri qalmırıq. Amma söhbət kəmiyyətdən getmir axı... Bizim istədiyimiz, gözlədiyimiz keyfiyyətdir, keyfiyyət! O keyfiyyət ki, onun hesabına dünya kitab sərgilərinə, nüfuzlu beynəlxalq kino festivallarına çıxa bilək, həm də təkcə çıxmayaq, mükafat alaq, yer tutaq.

Bəs əvəzində biz nə edirik?

Mədəniyyət Nazirliyinin həm də tarixsiz arayışından da göründüyü kimi, ayrılan vəsait yerdə qalmasın deyə, nə gəldi yazırıq, nə gəldi çəkirik. Daha dərk etmirik, yaxud dərk etmək istəmirik ki, indi "ura vətənpərvərlik" zamanı deyil, boş pafos qəbul olunmur, ən yaxşı halda bunlar daxili auditoriyada işləyir, o da səviyyəli yazılarsa, yaxud çəkilərsə! Bu gün həqiqəti dünyaya bəşəri ideyalar vasitəsilə çatdırmaq lazımdır. Bəşəri ideyalar isə heç bir insanı milliyyətinə, irqinə, dininə görə düşmən obrazında verməməyi tələb edir. Bax əsl sənət və əsər də odur ki, belə bir tələb çərçivəsində öz həqiqətlərini göstərə, təbliğ edə biləsən!

Təəssüf ki, Mədəniyyət Nazirliyinin siyahısındakı istər ədəbi əsərlər, istərsə də bədii və sənədli filmlər arasında belələri demirik, hətta beləsi yoxdur! Olsaydı, səsi çıxardı! Bu fakt bir daha göstərir ki, nazirlik bu sahəyə vəsait ayırarkən müəlliflərdən heç də keyfiyyət yox, kəmiyyət tələb edib.

Elə ona görə də çoxmilyonlu dünya ictimaiyyətinə haqq səsimizi sənət dili ilə çatdıra bilmirik. Yazdığımız, çəkdiyimiz keyfiyyətsizlik üzündən sərhədlərimizi keçmir, çox nadir hallarda keçəndə də kölgədə qalır. Ukraynanın Buça şəhərində törədilən faciə bizim Qarabağda ermənilərin xalqımıza qarşı etdikləri faciələrlə müqayisədə, necə deyərlər, toya getməlidir. Amma nə olsun?! Ukraynalıların çəkdikləri "Buça" adlı sənədli film bu yaxınlarda ABŞ-də "Oskar"ın televiziya ekvivalenti sayılan beynəlxalq "Emmi" mükafatı aldı. Halbuki Buça faciəsi təxminən 2 il əvvəl, yəni Xocalı soyqırımından 30 il sonra baş vermişdir. Bu, ukraynalıların 2 ilə ortaya qoyduqları, bu da bizim 30 ilə görə bilmədiyimiz iş. İndi gəl Mədəniyyət Nazirliyinin 2 səhifəyə sığmayan siyahısını oxuyub "afərin!" de görüm, necə deyirsən.

Bəlkə buna görədir təbliğat cəhətdən beynəlxalq səviyyədə uzun illər ermənilərə uduzmağımız?! Yaxşı ki, Prezident İlham Əliyev kimi liderimiz, Heydər Əliyevin adını daşıyan fondumuz var. Yoxsa, Mədəniyyət Nazirliyinin siyahısı ilə, xalq arasında deyildiyi kimi, Biləcəridən uzağa gedə bilməzdik. Ümumiyyətlə, özümüz deyib, özümüz eşitməyimiz bizim çoxdankı adətimiz və bəlkə də mərəzimizdir. Adıçəkilən məqalənin bir yazılma səbəbi də bizi bu mərəzdən sağaltmağa olunan cəhddir. Müəllif yazanda ki, erməni özünə yalançı tarix yazır, qondarma "soyqırım"lar düzəldir, hamını ona inandıra bilir, biz isə olanları, etdiklərimizi və bizə edilənləri ortaya çıxarmağı bacarmırıq, heç də daxili auditoriyanı nəzərdə tutmur. Xalqımızın əksəriyyətinin bu sarıdan heç bir məlumatsızlığı yoxdur. Uzaqbaşı şikayəti, narazılığı, məsələn, telekanallarda adını "sosial veriliş"lər qoyub şou xarakterli, ara müğənnilərin bayağı mahnıları ilə müşayiət olunan əttökən verilişlər əvəzinə lap elə Mədəniyyət Nazirliyinin siyahısındakı sənədli və bədii filmlərin, bədii qiraətlərin nümayiş etdirilməməsi ilə bağlı ola bilər. Əsas problemimiz təkrar olmasın, həqiqətlərimizi beynəlxalq səviyyəyə çıxara bilməməyimizdir ki, onun da səbəbini qeyd etdik.

Lakin qeyd etmədiklərimiz də var. O da bundan ibarətdir ki, gəlin "Azərbaycan" qəzetinin sözügedən məqaləsində qaldırılan, ictimaiyyətin diqqətini çəkməyə xidmət edən problemlərə başdansovdu arayış səviyyəsində yanaşmayaq. Mürəkkəb dünyada yaşayırıq, doğru yalana, haqq haqsızlığa, ədalət ədalətsizliyə qarışıb, ölkələrin, xalqların taleyini beynəlxalq qaydalar, qanunlar yox, güc həll edir. Belə bir vaxtda duruş gətirmək, haqlı olduğumuzu sübut etmək hesabat xarakterli siyahı qədər asan deyil. Gözümüzün qabağında separatçıları maliyyələşdirən, Azərbaycanın ərazi bütövlüyünə qəsd edən terrorçunu Nobel mükafatına namizəd irəli sürürlər, özümüzdən savayı dinən yoxdur. Əksinə, bu ədalətsiz, abırsız cəhdə hətta dünya miqyasında dəstək verən, qəhmər çıxanlar tapılır. Kimdir günahkar? Təkcə həqiqətə arxa çevirib yalana əl uzadan çoxsifətli həmin o ədalətsizlər və abırsızlarmı? Təbii ki, yox! Özümüzdə də günah var. Həqiqətimizi, haqlı olduğumuzu vaxtında dünya ictimaiyyətinə başa düşdüyü dildə, qəbul etdiyi səviyyədə çatdıra bilməmişik. Vətənşüvən şeirlərlə, özlüyündə guya erməniləri hədəfə alan şit gülüş doğuran səhnələrlə, Qarabağ hadisələrinə aid ən yaxşı halda bayağı hind döyüş kinoları səviyyəsində çəkilən filmlərlə özümüzü aldatmışıq. Daha fikirləşməmişik ki, bu cür "sənət əsərləri" ilə dünyaya çıxmaq, dünyanı inandırmaq mümkün deyil. Bu yerdə qeydlərimizi həmin məqalədən növbəti sitatla yekunlaşdırmaq istərdik:

*"Belə çıxır ki, bu barədə də göstərişi yalnız Prezident verməlidir?*

*Bəs bizim vətəndaş mövqeyimiz?*

*Bəs bizim vətənpərvərliyimiz?*

*Bəs bizim vəzifə borcumuz, məmur məsuliyyətimiz?"*

***"Azərbaycan"***

## Böyük qayıdış proqramı uğurla icra olunur

# Füzuliyə qayıdış davam edir

### Daha 140 nəfər yurduna qovuşdu









**İşğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin nəticəsində keçmiş məcburi köçkünlər dədə-baba yurdlarına qovuşurlar. İndi bu ərazilərimizdə şəhər, qəsəbə və kəndlər müasir yaşayış məkanına çevrilir.**



Düşmən əsarətindən qurtulan ərazilərimizə indiyədək 1665 ailə - 6532 nəfər olmaqla, 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 472 ailə (1773 nəfər) Laçın şəhərinə, 783 ailə (2979 nəfər) Füzuli şəhərinə, 215 ailə (819 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb.

Ən çox qayıdış karvanının ünvanı isə hələlik Füzuli şəhəridir. Dünən daha 140 füzulilinin yurd həsrəti sona çatıb. İndiyədək Füzuli şəhərində 783 ailənin, yəni 2979 nəfərin daimi məskunlaşması təmin edilib.

İşğaldan azad olunan ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin bu torpaqlarda daimi məskunlaşması dövlətimizin prioritet məsələlərindəndir. Böyük qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədilə müvafiq işlər görülür. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura mütəmadi səfərlər edir, bərpa-quruculuq işləri ilə şəxsən maraqlanır, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak edir.

Aprelin 25-də dövlət başçısı ölkəmizdə səfərdə olan Qırğızıstan Prezidenti ilə birlikdə Füzuliyə səfəri zamanı şəhərin baş planı ilə tanış olub. Baş plana əsasən, müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa edilən Füzuli azadlığa qovuşmuş ən böyük şəhərlərdən biri olacaq. Burada şəhərin dayanıqlı inkişafına töhfə verəcək rəqəmsal həllərdən istifadə etməklə, ənənəvi şəbəkə və xidmətlərin daha səmərəli olmasının təmin edilməsi məqsədilə "ağıllı şəhər" konsepsiyasından istifadə ediləcək.

2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları, "Poeziya" meydanı, amfiteatr, kafe-restoranlar və sairə sosial obyektlər fəaliyyət göstərəcək. Burada müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq. Füzuli şəhərində inşa olunacaq Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq, kompleksdə, həmçinin İşğal və Zəfər muzeyləri yaradılacaq.

Qısa müddətdə həyata keçirilən irimiqyaslı layihələr, işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanması Azərbaycanın iqtisadi gücündən xəbər verir. Dövlətimizin gücü, ölkə rəhbərinin birbaşa nəzarəti ilə tezliklə Qarabağ və Şərqi Zəngəzur cənnətməkana çevriləcək, bütün keçmiş məcburi köçkünlər doğma yurdlarına qovuşacaq.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

## *Füzuli sakini:* "Arzu edirəm bütün məcburi köçkünlər öz doğma el-obalarına qayıtsınlar"



**"Arzu edirəm ki, bütün məcburi köçkünlər öz doğma el-obalarına qayıtsınlar". Bu sözləri AZƏRTAC-a müsahibəsində keçmiş məcburi köçkün, Füzuli sakini Ağa Abdullayev söyləyib.**

Böyük qayıdışın Füzuli salnaməsi davam edir. Keçmiş məcburi köçkünlərimiz sevinc, qürur, fəxr hissi ilə öz doğma yurdlarına, el-obalarına qayıdırlar.

"Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tarixi qələbə qazandı, torpaqlarımızı işğaldan azad etdi. Bizə yaradılan şəraitə görə dövlət başçımıza minnətdarıq",- deyə A.Abdullayev bildirib.

A.Abdullayev qalan ömrünü doğulub boya-başa çatdığı yerdə yaşamaq istədiyini və Füzuliyə ailəsi ilə birgə getdiyini vurğulayıb. O, torpaqlarımızın azad olunmasında əməyi olan Azərbaycan Ordusuna təşəkkür edib, qazilərə şəfa, şəhidlərə rəhmət diləyib.

Keçmiş məcburi köçkün qeyd edib ki, 44 günlük Vətən müharibəsində onun bir neçə yaxını canından keçərək şəhidlik zirvəsinə yüksəlib.

## *Keçmiş məcburi köçkün:* "Füzuliyə qayıtdığım üçün sevincimin hədd-hüdudu yoxdur"



**"Füzuliyə qayıtdığım üçün sevincimin hədd-hüdudu yoxdur. İllər əvvəl çox ağrılı-acılı günləri yaşamışıq. Allaha şükürlər olsun ki, çətin günlər geridə qaldı".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuliyə qayıdan keçmiş məcburi köçkün Gülsadə Sadiqova söyləyib. Ailəsi ilə birlikdə Füzuliyə qayıtdığını vurğulayan keçmiş məcburi köçkün Sumqayıt şəhərində məskunlaşdıqlarını bildirib.

Gülsadə Sadıqova keçmiş xatirələri unutmadığını, doğma el-obalarını görməyi səbirsizliklə gözlədiyini deyib.

"Bu gözəl günləri bizə yaşadan cənab Prezidentimizə öz minnətdarlığımı bildirirəm. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirəm", - deyə keçmiş məcburi köçkün vurğulayıb.

# VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinə sayılı günlər qalıb

**Mayın 1-dən 3-dək ölkəmizdə "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunacaq.**




Forum Mədəniyyət Nazirliyi, BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC), Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) və BMT-nin Ümumdünya Turizm Təşkilatının birgə tərəfdaşlığı ilə keçiriləcək.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, forumun əsas məqsədi mədəniyyətlərarası əməkdaşlıq və dialoqun təşviqi üçün mühüm beynəlxalq platforma kimi "Bakı Prosesi"nin rolunu möhkəmləndirməkdir.

Üç gün davam edəcək tədbir çərçivəsində on iki panel müzakirə və dörd plenar sessiyanın keçirilməsi nəzərdə tutulur. Müzakirə olunacaq mövzular təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər sahələri əhatə edir.

Tədbirdə dünyanın 100-dən çox ölkəsinin aparıcı beynəlxalq təşkilatları, hökumət üzvləri, parlament sədrləri, müavinləri, beynəlxalq media nümayəndələri, beyin mərkəzləri, qeyri-hökumət təşkilatlarının qatıldığı forum iştirakçıları dünya üçün aktual olan çağırışlar və məsələləri müzakirə edəcəklər. Həmçinin bir sıra ölkələrdən dini liderlərin iştirakı ilə "Dinlərarası dialoq vasitəsilə etimadın möhkəmləndirilməsi" adlı plenar iclasın keçirilməsi də planlaşdırılıb.

Forum iştirakçılarının işğaldan azad edilmiş ərazilərə səfəri, Ağdam və Şuşada iki xüsusi panel sessiyanın keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi olan forumun əsası 2011-ci ildə qoyulub.

Bakıda ilk dəfə 2011-ci ildə keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu daha sonra 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkə və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıb. Eyni zamanda forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub.

Bəşəriyyəti narahat edən çağırışların diqqət mərkəzinə çəkildiyi ötən beş forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb.

Onu da əlavə edək ki, ötən dövr ərzində "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib qlobal platforma kimi qəbul olunub.

# Ağdamda əmək yarmarkasında 200-dən çox vakansiya təklif olunur

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən növbəti əmək yarmarkası Ağdam rayonunun Quzanlı qəsəbəsində təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, Olimpiya İdman Kompleksində keçirilən yarmarkada işsiz və işaxtaran şəxslərə 14 müəssisə tərəfindən müxtəlif istiqamətlər üzrə 200-dən çox vakansiya təqdim edilir.

Yarmarka iştirakçılarına agentliyin icra etdiyi layihə və tədbirlər barədə də ətraflı məlumat verilir.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 26 fevral (Çərşənbə günü) tarixli 123-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası




# AZƏRBAYCAN

Çaharşənbə, 25 cəmadiyələvvəl sənə 1337.
26 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.


## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**11-inci iclas**

*(keçən nömrədən mabə'd)*

**Sədr** - Daha söz istəyən yoxmu? Məhəmməd Əmin Rəsulzadə.

**Rəsulzadə** - Möhtərəm Sultan Məcid [Qənizadə] əfəndi söylədilər ki, aşkardır onuncu nömrə siyahı Mərkəzi Komitə tərəfindən tərtib edildiyindən, hamı müsəlmanlar ona səs verəcəkdilər. Amma məsələ o qədər də aşkar deyildir. Əgər məsələ Sultan Məcid əfəndinin buyurduğu kimi aşkar olsaydı, meydana 11, 14 və qeyri nömrəli müsəlman siyahıları çıxmazdı. Camaat 5-6 müsəlman siyahısı üzərində düşündü və səsini, rəyini müdafiə etmək istədiyi yerə verdi. Bu məsələnin bir cəhəti. Bir də təklif olunur ki, "Müsavat" öz hissəsinə düşən namizədini versin, yerdə qalan namizədləri 42 nəfər versin. Biz buna etiraz etməzdik, çünki "Müsavat" həman 42 [nəfər] arasında əksəriyyət təşkil etdiyindən mexanik hərəkət etsəydi, istədiyi qədər adam keçirə bilərdi. Fəqət, biz mexanik səsə qoymaqla əksəriyyətimizdən istifadə etmək istəmədik. Lakin milli komitələr içində bir vəziyyət var ki, onu nəzərə almalıdır. Çünki siyahı məsələsində bunu böylə düşünmək olmaz. Hərçənd Milli Komitənin səlahiyyəti 42 nəfərə verilmişdi, fəqət, böylə düşünmək şəklən düz olsa da, mənən düz olmaz. Əgər bu səlahiyyəti Parlaman qəbul etsə, yenə "Müsavat" bir şey qeyb etməz. Lakin bir tənasüb əsası var ki, biz onu pozmuş olarız. Seymdə də olduğu kimi, çıxmış üzvlər yerinə mənsub olduğu firqə namizəd göstərməlidir. Biz bu əsası pozmaq istəmədik və on nömrəli siyahı daxilində qalmış üzvlər, çıxanların yerinə yeni namizəd qoymaq istədilər. Buna şəklən irad olsa da, mənən ola bilməz. Çünki müəyyən bir qisim əhali on nömrəli siyahıda olan müəyyən adamlara səs vermiş, demək o adamlara etibar etmişdir. Seçiləcək namizədlər də camaatın qismi-müəzzəminin [böyük hissəsinin] rəğbətini qazanmış olan adamların fikrinə uyğun və onları təmsil edəcək adamlar olmaq üçün, həmin siyahının üzvləri tərəfindən intixab olunmalıdırlar [seçilməlidirlər]. Şimdi o adamların yarısı yoxsa, onu təmsil edəcək və yerlərinə nümayəndə verəcək bir mərkəz varsa, o da həman onuncu nömrəyə səs verən əhalinin etibarını qazanmış on nömrəli siyahıda olan başqa nümayəndələrdir. Siz bu haqqı onların əlindən almaqla əhalinin hüququna təcavüz etmiş olursunuz. Biz də buna mötərizik [etiraz edirik].

**Sədr** - Söz Qənizadənindir.

[Sultan Məcid] Qənizadə - Mən genə deyirəm o 8 nəfər Parlaman əzalığına [üzvlüyünə] geçəcək və biz də onlara etibar edəcəyiz. Ancaq biz burada əsasdan danışırdıq, düzdür onuncu nömrə "Müsavat"dan və Milli Komitədən ibarətdir. Bu da doğrudur ki, "Müsavat" var, amma Milli Komitə dönüb Parlaman olmuşdur. Deməli, o Milli Komitə var, mövcuddur. O vaxt 44 nəfər idi. *(Səslər: 42 idi.)* Şimdi həştad olmuşdur. İndi o həştad nəfərin ixtiyaratını "Müsavat"a vermək olmaz.

**Sədr** - Təklif var ki, müzakirat qət olunsun [kəsilsin]. Əhməd bəy, təklifinizmi var?

**Əhməd Cövdət** [Pepinov] - Təklif edərdik, o 8 adamın siyahısı verilsin 42 nəfərin səvabdidinə [təsdiqinə].

Sədr - Onuncu nömrə siyahının barəsində böylə bir təklif var: Parlamandan xaric olan üzvlərin yerinə bu adamlar namizəd göstərilirlər: Mustafa Vəkilov, Ağa Əminov, Yusifəli Əliyev, Məhəmmədbağır Şeyxzamanov, Məhəmməd Əli Rəsulzadə, Behbud ağa Cavanşir, Bəhram bəy Axundov və Əbdüləli bəy Əmircanov. Mən bu siyahını səsə qoyuram. Hər kim bu siyahıya razı isə əlini qaldırsın - 19, kim əleyhinə isə əlini qaldırsın - 15, kim səs verməmişsə əlini qaldırsın - 2. Deməli, məsələ qəbul olunur.

**Cəmo bəy** [Hacınski] - Kvorum yoxdur.

**Səslər** - Var, var!

**Sədr** - Mən təsdiq edirəm ki, var və keçirəm növbədəki məsələyə. Oxuyun.

**Katib** - Göyçay nümayəndəsi Hacı Hüseyn Əfəndizadənin 5 günlük, Qarabağ vəkili Qara bəy Əliverdiyevin bir aylıq, Zaqatala nümayəndəsi Bayram Niyazi Kiçikxanovun 20 günlük və Cavad bəy Məlik-Yeqanovun 10 günlük məzuniyyət haqqındakı ərizələrini oxuyur. Cavad bəy ərizəsini geri götürür. Yerdə qalanların məzuniyyəti qəbul olunur.

**Sədr** - Keçirəm növbədəki məsələyə. Söz Abuzər bəy Rzayevindir.

**Abuzər bəy Rzayev** - Dağıstan Hökuməti bizdən 10 milyon manat faizsiz borc istəyir. Hökumət bu borcun verilməsinə razıdır. Əgər Parlaman təsdiq edərsə, verəriz. Pul təcili surətdə istənildiyindən Parlaman baxıb təsdiq edənədək hökumət Senoren Konventin [Ağsaqqallar Şurasının] rizası ilə 3 milyon manat buraxmışdır. Parlaman təsdiq etdikdən sonra qalanını da verəcəkdir. Dağıstan Hökuməti bu borcu iki ilə qaytarmalıdır. Bundan əlavə, Dağıstan Hökuməti bizim hökumətimiz tərəfindən Şimali Qafqaziyada alınmış olan 90 vaqon buğda və sair ərzaq şeylərini xərcsiz buraxmağı vəd etmişdir. Əgər Parlaman qəbul edərsə, Maliyyə nazirinə tapşırılsın bu xüsusda Dağıstan Hökuməti ilə müqavilənamə bağlansın. Büdcə-maliyyə komissiyası tərəfindən borcun verilməsinə mümaniət [maneçilik] yoxdur və təklif olunur ki, Parlaman təsdiq etsin.

**Sədr** - Bu barədə kim danışmaq istəyir?

**Səslər** - Heç kəs; səsə qoyunuz.

**Sədr** - Danışan yoxdur. Səsə qoyuram. Hər kəs Cibaliyyun Hökuməti-Cümhuriyyəsinə [Dağlılar Respublikası Hökumətinə] 10 milyon manat borc verilməsinə razı isə rica edərim əlin[i] qaldırsın. Deməli, əksəriyyətlə qəbul olunur. Növbədəki məsələ spirtolara aksiz qoymaq haqqındakı qanun layihəsidir.

**Səslər** - Qalsın sonraya.

**Sədr** - Təklif var ki, bu məsələ sonraya qalsın. Məsələ gələn iclasa qalır. Komisyonlara təklif olunan namizədlər bunlardır: Ləvaehiqanuniyyə [Qanun layihələri] komissiyasına: [Arşak] Malxazyan (erməni), [Qazi Əhməd] Məhəmmədbəyov (İttihad), [Vasili Mixayloviç] Kujim (       ) və [Abdulla əfəndi] Qəbulzadə (Müsavat). Ərzaq və məmləkət məhsulatı işlərini hüsnidarə üçün Parlaman komissiyasına…

**Məhəmməd Əmin** (yerindən) - Komissiyalar haqqında mənim bir əsas mülahizəm var.

**Sədr** - Buyurun!

**M. Ə. Rəsulzadə** - İndiyə qədər Parlamanda komissiyalar təşkil edildikdə fraksiya hesabı ilə, yəni hər fraksiyadan birər üzvdən ibarət olurdu. Halbuki komissiya Parlamanın rəyini təmsil etməlidir. Bu mülahizə ilə paritet əsası ilə qurmaq düz deyildir. Zira Parlamanda fraksiya qüvvələri müxtəlifdir. Öylə fraksiya var 4 nəfərdən ibarətdir, öyləsi var 20-dən də ziyadədir. Ona görə də bu əsas ədalətsiz olur. Doğrudur, komisyon öz başına heç bir məsələni həll etməyib Parlamana verir, fəqət bununla bərabər komisyonun rəyinin böyük təsiri olur. Bu mülahizə ilə bu fraksiya başı (paritet) hesabının əleyhindəyiz. Doğrudur, Parlamanın bu xüsusda müəyyən bir qanunu yoxdur və nizamnamə bu günlərdə müzakirə ediləcəkdir. Nizamnamə bu məsələni aydınlaşdırar. Lakin o vaxtadək biz təklif edərdik komissiyaların doğru əsas üzərinə qurulması üçün indilik hər komissiyaya firqələr öz üzvlərinin miqdarı nisbətində nümayəndə versinlər. Ona görə biz təklif ediriz nizamnamə qəbulunadək hələlik hər 10 məbusdan bir nümayəndə hesabı ilə təşkil olunsun. Yarıdan ziyadənin də bir nümayəndəyə ixtiyarı olsun. Bu surətlə 10-24 əzadan ibarət fraksiya iki nümayəndə 25-dən 30-adək 3 nümayəndə versin. Bu əsas üzərinə 23 əzadan ibarət olan "Müsavat" fraksiyasına komissiyada 2 nümayəndə yeri verilsin.

**[Səməd ağa] Ağamalıoğlu** (yerindən) - Evinizi Allah yıxsın, görəsən bizə də bir şey düşdümü?

**Sədr** - Təklif barəsində danışan varmı?

**Səslər** - Kvorum yoxdur!

**Sədr** - Rica edirəm sakit olasınız. Deyirsiniz kvorum yoxdur. Bir neçə qanun var ki, onlara baxacaq komisyon yoxdur. Yoldaşlarınızı buraxmayınız çıxıb getsinlər. Papiros çəkmək bəhanəsi ilə dişarı çıxıb gedirlər, işlər də qalır. Heybətqulu əfəndi, danışmaq istəyirsiniz buyurun!

**[Heybətqulu] Məhəmmədbəyov** - Cənab sədr buyurdu bir neçə komissiya təşkili lazımdır. Bir para layihə var ki, onlara baxmaq lazım gəlir. Sədrin buyurduğuna görə, komissiyalar təcili olduğundan mən təklif edərdim bu komissiyalar bu saat köhnə əsas ilə intixab edilsinlər [seçilsinlər]. Nizamnamə Parlamana gəldikdən sonra təzə əsasla intixab edərik.

**Sədr** - İclasda 35 adam var. Kvorum olmadığından iclası qapamağa məcburam. Rica edirəm, gələn iclasın vaxtını təyin edəsiniz.

**Səslər** - Divani-Rəyasət təyin etsin.

**Sədr** - İclası qapanmış elan edirəm.

İclas saat 5-ə 20 dəqiqə qalmış qapanır.

**Hökumətin istefası**

Məclisi-Məbusanın 25 fevral iclasında Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətlərinin istefa məktubu oxunaraq qərar verilmişdir: Bu Kabinənin istefası qəbul edilərək yeni kabinə təşkili üçün namizəd tapmaq Məclisi-Məbusan sədrinə mühəvvəl edilsin [tapşırılsın] və yeni kabinə təşkilinədək məmləkətin idarəsi sabiq Kabinəyə tapşırılsın.

## SÜLH ƏTRAFINDA

**Azərbaycan heyəti-mürəxxəsəsinin Parisə əziməti**

İstanbuldan alınan xəbərlərə görə, Azərbaycan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] İstanbuldan çıxaraq Parisə mütəvəccihən əzimət etmişdir [Paris istiqamətində yola düşmüşdür].

**Böyükada müşavirəsi**

Parisdən xəbər verirlər ki, estonlar, latışlar, litvalılar və ukraynalılar Böyükada müşavirəsinə gəlmək üçün Müttəfiqlərin dəvətini qəbul eyləmişlərdir.

## TELEQRAF XƏBƏRLƏRİ

Kiyev, 18 fevral - Şura qoşunları Kiyevi işğal etdikdən sonra burada icra komitəsi təşkil edilmişdir. Komitə rus, yəhudi və ukrayna dilində bir qəzetə nəşrinə qərar vermişdir. Kiyevdə olan fabrikaçıları bolşeviklər 200 milyon manat hərbi naloq verməyə məcbur etmişlərdir. Bu xüsusda fabrikaçıların bir neçə iclasları olmuş, müxtəlif dəstələr arasında naloq təqsim edildikdə [bölündükdə] ixtilaf əmələ gəlmişdir.

**Çerniqov** - Kiyev qəzetələri xəbər verirlər ki, Odessa, Nikolayev və Xersonda aclıq üsyanı başlanmışdır.

**İrlandiyada iğdişaş yoxmuş**

Qafqaziyada olan İngiltərə heyəti İrlandiyada iğtişaş olmadığını xəbər verir.

## QƏZETƏLƏRDƏN

- Türklər Qarsdan çıxmışlardır və tədricən Qars mahalından da çıxırlar.

- "S. R." qəzetəsinin məlumatına nəzərən [görə], Ənzəlidə iranlılar Lianozovun mədənini işğal və bütün əmələləri [fəhlələri] həbs etmişlərdir. Rusiya səfarətxanası mədən məsələlərinin həllini tə xirə saldığı üçün bu hallar meydana gəlmişdir. Ənzəlidə olan ruslar bu münasibətlə həyəcana düşüb bu barədə general Prjevalskiyə müraciət etmişlər.

**General Baratov**

İrandakı rus qolordusunun [korpusunun] sabiq komandanı general Baratov Hindistandan Batuma qayıtmışdır. Oradan Tiflisə, Tiflisdən də Bakıya gələcəkdir.

* Kiyevdə məişət adi halına düşür. Hökumət idarələri işə başlayırlar. Kiyev, Şura qoşunları tərəfindən işğal edildiyi üçün Odessada böyük həyəcan vardır. Bir çoxları Odessanın Şura qoşunları tərəfindən işğalını zənn etdiklərindən Odessadan çıxırlar.

* Şura qoşunları Kiyevi işğal etdikdən əvvəl hökumət banklarında bulunan 4 milyard paranı alıb özləri ilə bərabər aparmışlar.

**İstanbulda yunan qoşunları**

Bern, (13 fevral) - Atina acentəliyinin məlumatına görə, yunan qoşunları İstanbula daxil olmuşlardır.

Vilna, (18 fevral) - Şərqi Prussiyadan övdət edən [qayıdan] Rusiya hərbi əsirləri saxlanılıb cəbrən [zorla] Könüllü nəfərləri cərgəsinə alınırlar və onları sərhədi saxlamağa məcbur edirlər.

* Havas acentəliyi xəbər verir ki, mayda həftədə bir dəfə Qahirə ilə Kəlküttə (Hindistandadır) arasında təyyarə işləyəcəkdir.

## NƏZARƏTLƏRDƏ

**Azərbaycan və Dağıstan müqavilənaməsi**

Bakı, 29 noyabr 1918. Bir tərəfdən Azərbaycan Hökuməti-Cümhuriyyəsi namına [adına] Ticarət və Sənaye naziri vəkili Behbud xan Cavanşir və Maliyyə naziri Məhəmmədhəsən Hacınski hökumətin noyabrın 28-indəki qərarı mövcibincə [əsasında] və digər tərəfdən Dağıstan Hökuməti-Cümhuriyyəsi vəkilləri Bahadır bəy Mallaçıxan və İbrahim bəy Heydərov zeyldəki maddələri havi [aşağıdakı maddələrdən ibarət] işbu müqavilənaməni əqd və imza etdilər [bağladılar və imzaladılar]:

1) Dağıstan Hökuməti noyabrın 1-indən başlayaraq iki illik müddətinə faizsiz olaraq Azərbaycan Hökumətindən 10 milyon borc alır.

2) Əkinçilik rayonlarında Dağıstan Hökumətinin məmuriyyəti vücuda gətirildiyi təqdirdə həmin cümhuriyyət aşağıdakı 3-4-cü maddələr mövcibincə öz borcunu taxıl ilə ödəməyə borclu olur.

3) Hər iki cümhuriyyət birər şəxs təyin edirlər. Bunlar da öz aralarındakı etilafa [razılığa] görə üçüncü bir şəxs intixab edib [seçib], hər üçü bir komissiya təşkil edirlər.

4) Müqavilənamənin 3-üncü maddəsində göstərilən qərar üzrə təşkil edilən komissiya, 2-ci maddə qərarı ilə Azərbaycan Hökumətinə veriləcək taxılın verilməsi müddətini, miqdarını və cinsini müəyyən edir.

5) Azərbaycan Hökumətinin ixtiyarı vardır ki, Dağıstan Cümhuriyyətinin hər bir yerində Dağıstan Hökuməti nümayəndələrinin iştirakı ilə məzənnə qiyməti ilə olaraq öz acentələri vasitəsilə taxıl alsın.

Bu qərarla alınan taxılın Azərbaycana gətirilməsi üçün Dağıstan Hökuməti tərəfindən heç bir mümaniət [maneçilik] göstərilməyir.

6) Həman 10 milyon hesabına olaraq Dağıstan Hökuməti həmin il noyabrın 28-inə qədər müxtəlif vaxtlarda 3 milyon manat almışdır.

Qalan 7 milyon isə dekabr ayı ərzində hissə-hissə verilməlidir.

Həmin müqavilənamə Bakı şəhərində hər iki tərəfin imzası ilə iki nüsxə yazılmalıdır.

Əlavə maddə: Dağıstan Hökuməti Gürcüstan Hökuməti ilə bir yerdə kağız pullar kəsmək sazişinə girişsə, məzkur [deyilən] borc həmin kağız pullar buraxıldığı gündən altı ay müddətindən gec olmamaq şərti ilə əda edilməlidir [qaytarılmalıdır].

Azərbaycan Hökuməti vəkilləri: Məhəmmədhəsən Hacınski, Behbud xan Cavanşir.

Dağıstan Hökuməti vəkilləri: Bahadır Mallaçıxan, İbrahim bəy Heydərov.

*(Əslinə mütabiqdir)*

## TÜRKCƏ DƏFTƏRDARLIQ [MÜHASİBAT]

Hər mülkün, hər xırda bir imarətin tərtibi memar, dülgər, bənna, daşçı, dəmirçi kimi bir çox sənətkarların iştirakı ilə əncama gəlir. Bunlardan bir neçəsi, hətta təkcə biri işdən boyun qaçırarsa, mətlub [tələb olunan] təmirat yarımçılıq qalar, bəlkə heç də düzəlməz. Bu bir balaca təşbeh və timsaldır ki, bunu dövlət və millət maraqlıları heç vaxt gərək unutmasınlar. Zira dövlətin təşkilatı, onun ağırlığı örfən [ənənəyə əsasən], ədəbən, elmən; tüccar, əmələ və əkinçi kimi bir çox əsnafın iştirakı ilə həll və rəf olunar. Hər sinif və bəlkə hər əfradi-millət [vətəndaş] özünə məxsus vəzifəsini bitirdiyi əsnada mənfəəti-şəxsiyyəsindən [şəxsi mənfəətindən] artıq mənfəəti-milliyyəsini [millətin mənfəətini] düşünməlidir. Mənfəəti-milliyyə mülahizə olunmazsa, hər kəs öz güzaranı üçün çalışarsa, hər sinif məhz cibinin dolmağına səcdə edərsə, qəyur [qeyrətli] cavanlarımızın, vətən şühədamızın [şəhidlərimizin] tökülmüş qanı ilə qazanılmış hakimiyyətimiz yenə əlimizdən çıxar, yenə özgələrə möhtac, yenə özgələrə əsir olarıq. Bir dəfə düşünülsün ki, zalımların boyunduruğu altında qalmaq, qasiblərin [qəsbkarların, işğalçıların] ayaqları ucunda sürünmək öylə bir ağır hallardır ki, öylə bir rəzalətdir ki, bugünkü vəhşilərin ən dəniləri [alçaqları] bunu qəbul etmək istəməyir. Bakının altı aylıq əsarəti unudulmasın. Türk qeyrəti və müsəlman namusu olan bir şəxs bunu unuda biləcəkdirmi ki? Bakı xalqının məhkumiyyəti əsnasında ruhanilərdən kimi güllələndi, tacirlərin mədənləri, paraxodları əllərindən alındı, özləri müflis qaldı. Varlılar yoxsul oldu. Yoxsullar çörəksiz qaldı. İşlilər işsiz, fəhlələr ac, əkinçilər çılpaq, imdad istəyənə ölüm, çörək istəyənə daş verildi. Müsəlmanlardan hangi bir sinifə ehtiram göstərildi? Ürəfayamı [ziyalılaramı], tacirlərəmi, füqərayamı? Ziyalılarımız bolşevik əlindən qaçıb gizləndi. Tacirlərimizin ali saraylarını meyxanalara yaxud tövlələrə döndərdilər. "Cümlə cahan füqərası birləşin" deyib bağıran "ağalar" müsəlman füqərasının qanını içirdi. Miskin fəhlə və hamballar yüzlərcə öldürülürdü. Meyitləri də quyulara doldurulurdu. Bumu füqəraya nicat, bumu demokratlara imdad?

Həzərat! Keçmiş günləri fəramuş etməyin [unutmayın]. Bugünkü hakimliyin, bugünkü nemətin qədrini bilin!

Milləti-hakimə [hakimiyyət qazanmış millət] olduğunuzu düşünüb də başınızın üstündə asılmış məhkumiyyətin hədə toxmağını nəzərdə tutun ki, məbada bir gün yenə başınıza taqqıldamasın!! Öylə olarsa, məhşərnizə, qiyamətinizə bir də bu dünyada hazırlaşın!

Öylə zənn olunmasın ki, "Türkcə dəftərdarlıq" ünvanının bu fəğanlara heç də dəxli yoxdur! İrad olunmasın ki, tacirlərin mənfəəti-şəxsiyyəsinə xidmət edən dəftərdarlığın millətlə heç də əlaqəsi yoxdur! Bərəks [əksinə] millət və hökumət təsisatının ehtiyacı bircə ürəfa və ziyalılarımıza deyil, bəlkə əhalimizin ənvai təbəqatına [müxtəlif təbəqələrinə], hətta dərviş və hambalına qədər hamının iştirakı, hamının ictihadı ilə əsas tapacaqdır.

Aya [bəs], millətin əsası nədən ibarətdir? Millətin əsası zəki üləmanın [alimlərin] elmi ilə, ürəfanın mərifəti ilə, ərbabi-fənnin hünəri ilə, zənginlərin malı ilə, əmələnin zəhməti ilə, əkinçinin əməyi ilə və tamam əhalinin də canı və fədakarlığı ilə sabit və bərqərar olar.

İştə hər zəhmətkeş, hər sənətkar özünə məxsus kəsbkarlığı dalınca gedərkən məşğuliyyətindən millətinə xeyir və ya zərər yetişə biləcəyini qabaqca düşünməlidir. Tacirlərimiz düşünsünlər ki, bahalığın ağırlığı millətin füqərası üçün böyük bir cəhənnəm qapısıdır. Bugünkü müsri [yoluxucu] naxoşluqlar ki, həm varlıları, həm də yoxsulları bərabərcə qırıb-çatır, bahalığın bəlası deyilmi? Məmurların rüşvətxorluğu hökumətin əsasına böyük bir sədəmədir [zərbədir]. Bunu rüşvət alanlarla bərabər rüşvət verənlər də düşünsünlər. Əkinçilər, fəhlələr anlasınlar ki, onların zəhməti və hümməti ilə vətənin övladı yaşayır, aclığın qabağı alınır. Bəs zəhmətlərini, hümmətlərini birəbeş, birəon artırsınlar. Bir vaxt Qarabağ kandravatçıları [qaçaqmalçıları] Rusiyadan minlərcə tüfənglər gətirib əğyara, millətin düşməninə böyük qiymətlərə satdılar. Axırda nə oldu? Həman tüfənglərlə yüzlərcə müsəlman əhalisi qətl olundu. Bəlkə, kandravatçıların öz əmiləri, dayıları, hətta özləri tələf olundu. Bu fəqərə [hadisə] "Be mən çe?" deyib axırını mülahizə etməyənlərə ibrət dərsi olsun. Oğruları, quldurları, qatilləri gizlədib hökumətə verməyənlər bilsinlər ki, böylə hərəkətlərlə millətə uçurumlar hazır edirlər ki, həman uçurumlara millətlə bərabər özləri də yıxılacaqlar. Rum tayfası kimi qədim millətlərin tarixi nəzərdən kənar olunmasın. Onların qəza və qədəri bizim də başımıza gələ bilər. Əlhasil, bugünkü mənfəəti-şəxsiyyə gözümüzə pərdə çəkməsin.

Milyonçuların ehsanına darüləcəzələr [qocalar evi], darüşşəfalar [xəstəxanalar], üniversələr [universitetlər] təsis olunacaqdır. Buna iman və etiqad edənlərdənəm. Lakin zənginlərin hümmət və qeyrəti ehsanla deyil, bu gün ən xırdaca şeylərdən, məsələn türkcə dəftərdarlıq kimi məsələlərdən başlanmalıdır.

Hökuməti-müstəbidənin [istibdad hökumətinin] məcburiyyəti ilə müsəlman ticarətxanalarında müamilati-ticariyyə [ticarət əməliyyatları] siyahıları, yəni ticarət dəftərləri rusca saxlanılmalı idi. Türkcə saxlanılmış dəftərlər rus məhkəmələrində qəbul olunmayırdı. Zənn edirəm ki, bu gün bu məcburiyyətə daha ehtiyac qalmamışdır. Tacirlərimiz qeyrətə gəlsinlər. Dəftərdarlarından tələb etsinlər ki, bundan sonra dəftərləri türkcə yazsınlar. Bu bir çətin məsələ deyil. Osmanlı türklərində "türkcə dəftərdarlıq" üsulu mövcuddur. Bunu rusca hifz etmiş zəvat [öyrənmiş şəxslər] türkcəsini də on beş günün ərzində öyrənə bilərlər. Buna dair hətta dəftərdarlıq kursu da açmaq heç də çətin işlərdən deyil. Türkcə dəftərdarlığı təlim edə biləcək müəllimlərimiz də Bakıda mövcuddur. Bunu istəyənlər, arzuməndlər [arzu edənlər] tapılarsa, əlbəttə onlar üçün bir kurs da açılar.

Ticarət dəftərləri türkcə saxlanarsa, bunun millətə faydası çox olar:

1) Ticarətxanalarımız türkləşər, milliləşər.

2) Bir çox müsəlman dəftərdarları [mühasibləri] iş başına dəvət olunub, çörək və güzəran sahibi olarlar.

3) Bu olarsa, məhkəmələr də müruri-zamanla [vaxt ötdükcə] milliləşməyə məcbur olarlar.

İştə, tacirlərimiz il başından istifadə edərək fədakarlıq deyil, cüzi bir təşəbbüsat ilə, balaca bir hümmətlə vətənin bünövrəsinə bir daş qoysunlar. Sübut etsinlər ki, ehtiyaclarımızın rəfinə [aradan qaldırılmasına] hamı ilə bərabər onlar da çalışırlar. Rusca deyil, türkcə dəftərdarlığın maraqlı[sı] olduqlarını sübut etsinlər. Tacirlərə yadavərlik etdik [yadlarına saldıq]. Tacirlərin ittifaqı vardırsa, yəqin ki, iş bir az da sürətlə yapılar. Kim əvvəl başlayacaqsa, mətbuat vasitəsi ilə bildirsə, gözəl olardı. Zira bunun intizarını çəkən çoxdur. Bəlkə dəftərdarlar da öz mülahizələrini bildirəcəklər. Buyursunlar. Xülasə, bunun müştaqında və intizarında davam ediriz!

*Fərhad Ağazadə*

## POSTA VƏ TELEQRAF MƏKTƏBİ

Azərbaycan posta və teleqraf işlərinin müşkülatlara, maneələrə giriftar olmasına birinci və baş səbəb posta və teleqraf müəssisələrimizdə öz xalqımızdan həqiqi məmurlarımızın yoxluğudur. Digər səbəbi isə, Azərbaycanda mövcud posta və teleqraf müxabirat və münasibatının [rabitə və əlaqəsinin] məmləkətin tələb etdiyi ehtiyacı üzrə təsis edilməməsidir. Zatən Rusiyada posta və teleqraf işləri xəzinəyə milyonlara baliğ [çatan] mədaxillər gətirmiş, fəqət yenə məmləkətin və əhalinin tələbinə və ehtiyacına riayətən təsis edilmədiyindən çox mənfəətlərdən məhrum qalmış, baxüsus [xüsusilə] Qafqaziyada düz və həqiqi posta işçiləri olmadığından daha da fəna məhsul vermişdir. Bu cəhətləri Azərbaycan Hökuməti nəzəri-diqqətə alaraq Azərbaycandakı posta və teleqraf işlərinin və müəssisələrinin tənzimatına və təkmilatına [nizama salınmasına] iqdam etmişdir [başlamışdır]. Əlbəttə, əgər məmləkətin posta və teleqraf işləri birinci mədəni damar mənziləsində [yerində, mövqeyində] görülərsə, onun nəşvü-nüması [inkişafı] xüsusunda hər bir tənzimatın nə qədər vacib və mühüm olduğu təbiidir.

Binaənileyh [ona görə], tənzimatın birinci və baş rüknü [ünsürü] əlbəttə Nəzarət tərəfindən açılan posta və teleqraf məktəbidir ki, buradan yerli, həqiqi məmurlar, işçilər çıxacaq. Kəza [eyni zamanda] həmin məktəb məmləkətimizin həyatına, təbiətinə, ehtiyacına, ruhuna, lisanına aşina, ixlaslı [səmimi, sədaqətli], elmli məmurlar buraxmaqla müəssisələrimizdə bulunan əski tərbiyəli, [əski] əxlaqlılara yer qalmayacaqdır.

Posta və teleqraf məktəbini bitirəcək olanlar məmləkətin hər bir nöqtəsinə dağılıb, az bir zamanda hər yerin postaya olan ehtiyacını, onun əhvalını dərk edib lüzum görüləcək şeyləri yapıb, həm də müəssisələrdə mənsəbdarlıqla [vəzifə tutmaqla] məşğul olan, toza batmış, ruhu sönmüşlərə həyat bəxş edəcəklərdir. Bu təzə qüvvələr hökumətə posta və teleqraf nöqsanlarının tənzimi və təshihi [nizamlanması və düzəldilməsi] yolunda çalışıb, lazımi ləvazimatın verilməsinə, yəni məmləkətdə posta və teleqraf müəssisələrinin çoxalmasına və baxüsus [xüsusilə] məmləkətimizdə təzəcə başlamış telsiz teleqraf (radio) işlərini[n] – ki ona dəniz hərəkatı işlərində, məhəlli [yerli] ticarət, vapor işlərində böyük ehtiyac görülməkdədir – təkmil olunmasına [kamilləşməsinə] müsaidət edəcəkdir. Radio müxabiratının mükəmməl bir vəchlə təsis olunması üçün ayrıca şöbə açılacaqdır.

Bu açılan posta və teleqraf məktəbinin məqsədi birinci növbətdə posta və teleqraf məmurlarını, teleqraf işlərinin icrasına texniklər, mexaniklər hazırlamaqdır. Məktəbdə təhsil zamanı üç dövrə, kursa ayrılır və bütün təhsil zamanı bir sənə olacaqdır. Hər kursa dair ayrı-ayrı proqrammalar hazırlanmışdır. Dərs oxumaqdan savayı təcrübə üçün postaxanalarda, teleqraflarda, karxanalarda və teleqraf xətlərində lazımi təcrübələr və səyahətlər olacaqdır.

Məktəbə hər bir türkcə və rusca savadlı olan şəxslər daxil olarlar. Müsəlmanlara türkcəni bilmək vacib və ruscadan da az savadlı olmaq, qeyri-müsəlmanlara isə rusca savadlı və türkcə danışığını mükəmməlcəsinə bilmək lazımdır.

O şəxslər ki, onların savadları və bilikləri edadi məktəblərin beş klasından artıqdır, onlar posta və teleqraf işlərini gözəlcə bildikdə, tezcə bir kursdan digər kursa keçmək ixtiyarı verilir. Məktəbi bitirdikləri zaman da dərhal onları hökumət Azərbaycandakı posta və teleqrafxana müəssisələrində xidmətə təyin edəcəkdir. Dərs haqqı az miqdardadır. Məktəbin idarələnməsi Posta və Teleqraf Nəzarətindədir.

Fövqəlzikr [yuxarıda adı keçən] posta və teleqraf məktəbi haqqında bir qədər olsa da müxtəsər məlumatın verilməyindən məqsudum həmin məktəbin bizcə nə qədər mühüm və nə qədər faydalı olacağıdır. Gərək Azərbaycan türk əhalisi posta və teleqraf məmurlarına olan ehtiyacımızı düşünüb təhsilini itmama yetirməmiş [tamamlamamış] çocuqlarını, yəni sinni-rüşdə [həddi-büluğa] yetmiş övladlarını həmin məktəbə verməli. Unutmamalıdırlar ki, hazırda müəssisələrimizdə bulunan posta və teleqraf məmurlarımızın içində çox az və bəlkə də yüzdə beş faizi müsəlmanlardandır.

Posta və teleqraf işlərinin bütün məsuliyyətli və mühüm məmuriyyətləri qeyrilərin əlindədir və bu üzdən məxfi teleqraf müxabirələrimiz bəzən bədxahlarımızın əllərinə yetişir. Bu cəhətləri Posta və Teleqraf naziri həzrətləri nəzərə alaraq həmin bu məktəbi zatən Azəri türkləri və müsəlmanlar üçün açdırdı ki, oradan həqiqi vətənini və millətini sevən, doğru və sadiq məmurlar çıxsın da məmləkətinə canü dil ilə qulluq etsin ki, bədxah xaricilərə möhtac qalmayaq.

*Posta və Teleqraf Nəzarəti kargüzarı: D.Rəhimli*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 26 fevral (Çərşənbə günü) tarixli 123-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## İŞLƏMƏK ZAMANIDIR

Biz müsəlman millətinin şimdiyə qədər nə qədər əsarət və məzəllətlə [zəlilliklə] acı günlər və zamanlar keçirdiyimiz hər kəsə məlumdur. Şu mətləbi inkar edəcək cavabın fəqət bir müxtəsər dəlili biz millətin elmsizlik üzündən cəhalətdə qalmağımızdır. Ona görədir ki, yeni parlamış Azərbaycan nam [adlı] istiqlaliyətimizin kəndi millətinin gənclərindən, əfradlarından [fərdlərindən] kəndisinə bu gün də imdad edərək baqi [diri; əbədi] qalması yolunda elmlə çalışacaq hər kimsəsi varsa, bir an rahat və asudə olmayıb, bir neçə vaxtlar milləti uğrunda zəhmət çəkib çalışmaları lazımdır.

Məsəldir, deyərlər ki, özgə özgənin sifarişini lələ boyatısı ilə söylər. Bizim bu qədər qan töküb tapdığımız istiqlaliyyətimizin aparatı özgələr əlində olub, axıra qədər davam edərmi? Aya, görən bizim istiqlalımızda lazım olan qədər öz köməkçimiz var ya yox? Əlbəttə, var. Nə qədər olmasa, arxadan gələn kömək yetişənə qədər çatar. Bəs onlar hanı?

Əfsuslar olsun ki, onlar bu saat mənfəət yolunda ciddən can fəda etməkdədirlər. Şimdiyə qədər cürbəcür işlərdə çalışan ziyalılarımız "məvacib məni görmür, Azərbaycan Hökuməti verən məvacib məni dolandırmır" – deyə düşüblər çöllərə. Nə var, ticarət edəcəyik ki, biz də milyoner olaq! Dəxi çəkdiyimiz zəhmət bəsdir.

Doğrudan bu hal şayani-təəccübdür [təəccübə layiqdir]. İndiyə qədər rus xidmətində bulunub o vaxt da məişəti təng [çətin] keçən ziyalılarımızdan soruşduqda ki, balam, niyə bir peşəyə getmirsən? Bu məvacib axır səni dolandırmır? Cavab verirdi ki, nə edim, milləti buraxmaq olmaz. Çalışaq görək bir təhər müsəlman uşaqların ali məktəblərə zada qəbul etdirə bilirikmi? Bilmirəm o vaxt niyə öylə idi. İndi hamısı milyoner olmaq istəyir!

Bir tərəfdən də istudentlərimiz, tələbələrimiz, ali məktəb qurtaran gənclərimiz nə tövr çalışırlar? Tamam dəmiryolda kontrolyor, vaqon nazirləri [müfəttişi] olublar. Görəndə deyirsən, canım, niyə gedib ayrı qulluqda işləməyirsiniz? Nazirlərimiz xüsusi işlərin özgə millətlər əlinə verir, niyə gedib oralarda olmursunuz? Yaxşı da məvacib verirlər. Deyirlər, yox, bura yaxşıdır. Çünki burada bir balaca "xüsusi" mənfəət var. Bir tərəfdən sərnişinlərdən para alırlar, bir tərəfdən də gürcülər sərhədindən Bakıya, Bakıdan oraya lazım olan şeyləri aparıb mənfəət edirlər.

Görürsən bir tələbə ki, diplom almağa bir az vaxtı var, gəlir ərzaq şöbələrində anbar məmuru olur. Halbuki o vəzifəni kənd məktəbi ikmal etmiş [bitirmiş] bir uşaq da idarə edə bilər. Çünki anbar məmurluğunda bir "yuridiçeski vopros" [hüquqi məsələ] və politika işi yoxdur.

Bu saat atalar az qalıb uşaqlarını məktəblərdən də götürüb ticarətə göndərələr. Necə ki, mənim kəndi arxadaşlarımdan bir nəfəri ki, ali məktəbin axırıncı sinfindədir, bu saat ticarətlə məşğuldur. Qardaşım, bəs işləmək böylədirmi? Tamam Azərbaycan məmləkəti bir ticarətxana olub, siyasi işlər buraxılmışdır. Mənim zənnimcə, böylə olsa, gözəl məmləkətimizi və istiqlaliyyətimizi fəna hala uğradacaq olarız. Qızıl teşt hazırladığımız halda, içində qan qusarıq.

*Başir Səfərzadə*

## CƏNUB-QƏRBİ ZAQAFQAZİYA HÖKUMƏTİ

Batum oblastı dəxi daxil olduğu halda Qars və Ərdahan vilayətlərindən ibarət olmaq üzrə Cənub-Qərbi Zaqafqaziya Müvəqqəti İslam Hökuməti təşəkkül etmişdir.

Məzkur [adı keçən] hökumət əhaliyə müraciətən böylə bir bəyannamə nəşr etmişdir:

1335 kanuni-sani 18-də Qarsda ictima edən [toplaşan] qərbiyi-cənubi [cənub-qərbi] Qafqaziya müsəlmanlarının mürəxxəsləri [nümayəndələri] Qarsda bilictima [toplaşaraq] beavni-təala [Allah taalanın köməyi ilə] Məclisi-Məbusanı təsis və güşad eylədik [açdıq]. Bu məclisə bila-xirə [daha sonra] qeyri-müslüm əzaların da [müsəlman olmayan üzvlərin də] qəbul ediləcəyinə qərar verdik. Atidəki [aşağıdakı] bəyannamənin nəşrinə müttəfiqən [hamılıqla] qərar verdik:

*Qars hökuməti-müvəqqətəsi [müvəqqəti hökuməti] və Məclisi-Məbusanı qərbiyi-cənubi Qafqaziya müsəlmanlarının əfkar və amal və müqəddərati-milliyyələrini tövhid eyləmək [fikirlərini, arzularını və milli müqəddəratlarını birləşdirmək] məqsədində olduğunu bəyan edərək, burada sakin [yaşayan] bilumum [bütün] qardaşlarına xitab edir ki, bu məmləkətlərin xilas və səadəti ancaq ittihaddadır [birlikdədir]. Dağınıq və bir ittifaqa müstənid olmayan [söykənməyəyn] ufaq mövcudiyyətlər daima qonşularını təhris [iştaha gətirər] və onların meyli-təcavüzlərini təzyid eylər [təcavüz meyillərini artırar]. Nəhayət düçari-inqisam olar [parçalanar], yutular [udular], boğular, məhv olar gedər.*

*Qarsda ingilis valiyi-əsgərisi [hərbi valisi] müttəhid və ixtilafdan azadə yaşamaq əzmində bulunan hökuməti-müvəqqətəmizlə daima bərabər çalışa biləcəklərini və müzahirətdə [yardımda] bulunacaqlarını söylədi. Şimdi bir milyon üç yüz əlli min mövcudunda bulunan qərbiyi-cənubi Qafqaziya müsəlmanlarının önündə ancaq bir rahi-səlamət və tərəqqi [xilas və tərəqqi yolu] vardır ki, o da birləşmək, bir iman və bir vicdanla yekdi- gərə mərbut [bir-birinə bağlı] olmaqdır. Vətənimizi, mövcudiyyətimizi, ənənatımızı [ənənələrimizi], müqəddəsatımızı ancaq bu surətlə himayə və siyanət edə [qoruya] biləriz. Övladlarımızı bugünkü dövreyi-zülmətdən, istiqbalın ağuşi-pər-tövi-ürfan və rifahına [gələcəyin ürfan və rifahla dolu işıqlı qucağına] ancaq bu surətlə təslim edə biləriz. Rəhbərimiz istiqamət [doğruluq, düzgünlük], istinadgahımız kəndi haqqımızdır. Hürriyyəti-milliyyəmizi kəndi əlimizdə bulundurmaq istədiyimizdən, cahanda bütün böyük və kiçik hər millətin əsarətdən qurtulduğu şu həngamda [vaxtda] bizlər yenidən əsir olmaq və müqəddəsatımızı çiynətmək [tapdalatmaq] və məmləkətimizin bu surətlə istiqbalına [gələcəyinə] ihanət etmək arzu etmədiyimizdən, xaricdən mənfəətpərəst heç bir qüvvətin müdaxiləsinə möhtac və razı deyiliz. Bu gün tarixi-aləmin [dünya tarixinin] ən gurultulu və qarışıq zamanını yaşayırız. Bizim kimi bir çox millətlər də haqq və həyat istəyir və istiqlalını təxlisə [xilas etməyə] çalışır. Artıq tərəddüd, bəkləmək zamanı keçmişdir. Biz bir millət, həm əsrlərdən bəri tanılmış bir millətiz... Bizim qüvvətimiz, gözəl məmləkətlərimiz və qabiliyyətimiz... binaənileyh [ona görə də] həqqi-həyat və hürriyyətimiz vardır. Bizim ittihadımız sarsılmaz bir qüvvətdir. Müinimiz [köməkçimiz] də Həzrəti-Allahdır. Yaşasın qərbiyi-cənubi Qafqaziya hökuməti-müvəqqətəsi! Yaşasın müsəlman ittifaqı! Yaşasın Məclisi-Məbusan!*

## MƏTBUAT

Məlum olduğu üzrə, fevralın 18-indən etibarən erməni məbusları dəxi Azərbaycan Məclisi-Məbusanına iştirak edirlər. Bunlar məclisdə sol cinah, yəni sosialistlər cərgəsində əyləşmişlərdir.

"Daşnaksutyun" firqəsi naşiri-əfkarı [mətbuat orqanı] olan "Vperyod" qəzetəsi bunların Parlamana hangi proqramla gəldiklərini yazarkən, əvvəlcə "Daşnak" firqəsinin az qala sosialist olduğunu (?!) və onillərdən bəri erməni burjuaziyası və müsəlman xan və ağaları müqabilinə mübarizə etdiyini, həm də mübarizədə erməni demokratiyası ilə bərabər müsəlman füqərayi-kasibəsinin də [proletariatının da] mənafeyini müdafiə etdiyini qeydlə şikayət edir ki:

*"Bu vaxtadək "Daşnaksutyun" firqəsinin türk və erməni demokratiyasının zəhmətindən bərabərcə sui-istifadə edən müsəlman dərəbəyləri müqabilinə etdiyi sırf inqilabçı mübarizəni müsəlman demokratiyası siyasi və sinfi cəhalətinə görə milli ədavət hesab etmişdir."*

1905-ci ildən bəri Zəngəzur, Şuşa, Şamaxı və xüsusən Şərur, İğdır, Qars, Axalkələk və sair uyezdlərində qanı tökülən bütün müsəlmanların xan və hətta knyaz olduğunu təsdiq və həman əli qabarlıların, xüsusən arvad və uşaqların başı kəsilməsini "Daşnaksutyun" istilahınca [təbirincə] "inqilab" adlandırmağa biz də razı olardıq amma başdan-ayağa sərvətdar və mütəəssib millətçilərdən mütəşəkkil "Daşnaksutyun" firqəsi erməni burjuaziyası ilə də mübarizədə bulunduğunu iddia etdikdə istəyirdik deyək: "Kirvə, xoruzun quyruğu görünür".

Bəli! Bu "inqilabçı" firqə müsəlman demokratiyasının cəhalətdə qaldığını qeyd və müsəlman sosialistlərinin vəzifəsinin ağır olduğunu bəyanla sosialist firqələrimizə mütəvəccihən [üz tutub] naz ilə bir göz vuraraq onlara köməyini vəd edir, deyir ki:

*"Cavan türk sosialistlərinin öhdəsinə ağır vəzifə düşür və şübhəsiz onlar bu müqəddəs və ağır mübarizə qarşısında zəifdirlər."*

Ona görə bütün demokrat və sosialist firqələr Azərbaycan sosialistlərinə kömək etməli imişlər.

*"Xüsusən müsəlman arasında inqilabçı və demokrat firqələr görməyə çoxdan həris olan "Daşnaksutyun" firqəsi müsəlman zəhmətkeşlərinin arasında sinif ayıqlığına kömək etməyə bilməz. Bu kömək təşriiyyə müəssisəsi [qanunverici orqan] olan Parlamanda türk sosialistləri ilə bahəm çalışmaqla bir həqiqi forma alar."*

İltifatınıza qarşı təşəkkür edəriz, qəyyum əfəndilər. Fəqət qəyyuma ehtiyacımız olmadığını bəyanla təvəqqe edərdik, qabaqca binəva erməni millətinin öz pənceyi-qəddaranənizdən xilas olmaq qədər tərəqqisinə çalışaydınız. Qarın qardaşdan irəlidir.

Məqalənin axırında erməni məbuslarının nasıl işləyəcəklərini bəyanla qəzetə yazır ki:

*"Bizim nümayəndələrimiz Azərbaycan Parlamanına onun üçün getməyirlər ki, irticai hökumətin camaat ixtiyarını qəsb etməsini təsdiq eyləsinlər. Biləks [əksinə], gedirlər ki, hökumətin demokratizmə müğayir [zidd] siyasəti ilə mübarizə və mümkün olan qədər türk demokratiyasında sinif hissi oyanmasına müzahirət [kömək] etsinlər."*

Bu məqsədlə də erməni məbusları Azərbaycan sosialistləri ilə müttəfiqən;

*"Həmişə zəhmətkeş əhali mənafeyinin keşiyində durub Azərbaycan ərazisində hüquq, qanun paydar [bərqərar] olmasına çalışacaq. Qafqaziya millətləri arasında dostluq ideyası intişarına [yayılmasına] səy edəcək, təcavüzkar hökumətin cahangirlik [imperializm] xəyalı ilə mübarizədə bulunacaq və nəhayət "Müsavat"dan solda oturan ümum firqələrlə həm azlıqda qalan millətlərin, xüsusən erməni demokratiyasının hüququnu mühafizə və müdafiə edəcəklərdir."*

Müsaidənizlə, tovariş "Ye. Mir" Azərbaycan sosialistləri Şaumyan-Suxartsev tiplərindən olmadıqlarından ittifaqa girmək üçün firqə seçməkdə də onlardan fərqlidirlər. Amma bunca işvə və naz ilə "İttihad" firqəsinin sağ böyrünə keçsəydiniz, daha artıq müvəffəqiyyətlə "uxajivat" edərdiniz [qulluq edər, yaltaqlanardınız].

## BAKI XƏBƏRLƏRİ

**Mühərrirlər Cəmiyyətində**

Eşitdiyimizə görə, Bakı Türk Mühərrir [yazıçı] və Ədibləri Cəmiyyəti heyəti-idarəsi bugünlərdə fövqəladə bir iclasi ümumi dəvət edəcəkdir. Birinci növbədə heyəti-idarənin istefası müzakirə olunacaqdır.

**Hərarətli şeirlər**

Məşhur şairlərimizdən Əbdüssəlimzadə Məhəmməd Hadi əfəndinin "Hərarətli şeirlər" sərlövhəli yeni bir mənzum əsəri dəxi təb'dən [çapdan] çıxıb məhəlli-füruşa [satışa] qonulmuşdur. Bu əsər türk şairlərindən Səməd Mənsur əfəndiyə ithaf edilmişdir. Qarelərimizə bu əsəri oxumağı tövsiyə ediriz.

**Hadisat [Hadisələr]**

- Fevralın 12-sində Saray uçastoku, Qala kəndinin sakini Əsəd Adıgözəl oğlu öldürülmüşdür. Təhqiqatdan məlum olmuşdur ki, onu öz oğlu Oruc öldürmüşdür. Oruc tövqif [həbs] edilib, istintaq vaxtında məlum etmişdir ki, o öz atasını ögey qızı ilə felişənidə [biyabırçı işdə] bulunmasında müqəssir hesab edərək öldürmüşdür.

- Fevralın 19-u səhər saat 7-də Binəqədidə Rozinovun mədənində işləyən Kürdəxanılı Məhəmməd Əmirhüseyn oğlu "Arşalvis" mədənindən ştanq apardığında Binəqədi şirkəti mədəninin yanında atlar arabanı yıxıb, Məhəmməd altında əzilmiş və bir qədərdən sonra vəfat etmişdir.

- Ramanada "Kaspi-Qara dəniz" şirkətinin idarəsi polisəyə məlum etmişdir ki, fevralın 21-də məzkur [adı çəkilən] mədəndə 131-94 nömrəli buruqlardan 5 min manatlıq rezin qayışı oğurlanmışdır. Oğurluqda Əbdülqədir Ağabala oğlu, Ağababa Ağabala oğlu və Seyfulla Həmşəri oğlu ittihamla tövqif [həbs] edilmişlərdir.

- Sabunçu kəndində sükunət edən [yaşayan] Əjdər bəy Əlixanov evdə olmadığı halda 6 min manatlıq əlbisəsi oğurlanmışdır. Oğurluqda məzkur kəndin sakini Hacı İmam Nəzər oğlu ittiham və tövqif edilmişdir.

- Zabratda "Rus cəmiyyəti"nin neft mədənindən naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən 20 min manatlıq məftul oğurlanmışdır. Polisə tərəfindən ittixaz edilən [görülən] tədbirlər sayəsində məftul Bəşir İbrahimovun buruğundan tapılıb sahibinə qaytarılmışdır.

**Hərbiyyə Məhkəməsində**

1919-uncu sənəsi fevralın 4, 11 və 14-də Hərbiyyə Məhkəməsi bu aşağıda yazılanları cəzaya düçar etmişdir:

Mixail Yevgeniyeviç Miklaşevski sərxoş halda küçədə tapanca atdığına görə məhkəmə tərəfindən altı ayın müddətinə həbsə alınmışdır.

Arakel Karapetoviç Babayev öz dükanında silah saxladığına görə müqəssir hesab edilib iki ilin müddətinə həbsə salınmışdır.

Ağabala Almaz oğlu, Mirəli Miribrahimoğlu və Ağamalı Məhəmmədqulu oğlu hər üçü müsəlləh qarətgərliqdə müttəhim edildiklərinə görə iki ilin müddətinə cinayətkarlara məxsus həbsxanaya salınmışlar.

Konstantin Koçerenko tüfənglə adam öldürmək istədiyinə görə güllə atdığından müqəssir ədd [hesab] edilib beş ilin müddətinə həbsə alınmışdır.

Məhkəmənin bu qərarları general Tomson tərəfindən təsdiq edilmişdir.

Əliqulu tapança atdığına görə iki ilin müddətinə həbs edilmişdir. Məhkəmənin qərarı təsdiq edilmişdirsə də, məzkur Əliqulu general Tomson tərəfindən azad edilmişdir.

Fyodor Konovalov və Vasili Pripotnı at oğurlamaq istədiklərinə görə hər biri beş ilin müddətinə həbsə alınmışlardır. General Tomson bunların hər birinin ancaq bir il həbsə alınmalarına qərar vermişdir.

## MÜRACİƏTNAMƏ

Yeni təşkil olunmuş "Bakı Ziyalılar İttifaqı"nın bir çox xüsuslarda çalışmaq qayəsi var. Vətənimizin bu ağır günlərində əhalinin ehtiyacatına göz yetirmək və qeydinə qalmaq Bakı Ziyalılar İttifaqının müqəddəs əməlidir. Möhtərəm əhali isə şu cəmiyyətin tövsiyələrini etinasız buraxmaz zənn edirik. Bir zamanda ki hökumətimiz xarici və daxili ən mühüm məsələlərlə məşğuldur, bir çox dərdlərimiz və ehtiyacatımız da var ki, onları görməmək və onların qeydinə qalmamaq olmaz. Bir tərəfdən bahalıq, bir tərəfdən ümumən məmləkətimizdə və xüsusən şəhərimizdə hökm sürməkdə olan müsri [yoluxucu] naxoşluqlar və qeyri işlər bu gün həyatımızı və diriliyimizi pək çətin və xətərli [təhlükəli] bir hala salmışdırlar. Bütün bu müşkülatı rəf etmək [aradan qaldırmaq] və bu işlərdə əhaliyə bir xidmət etmək və yol göstərməyə Bakı Ziyalılar İttifaqı var qüvvəsi ilə çalışacaqdır.

Şübhəsiz, böylə çətin günlərdə ən əziyyət çəkən və ən çox müşkülata uğrayan əhalinin füqəra qismidir. Onların halını nəzərə almamaq qeyri-qabildir. İstər bahalığa qarşı və ya istər səhiyyə işlərini yoluna salmaq üçün böyük fədakarlıq lazımdır. Məlumdur ki, şəhərimizdə bu işlərdə çalışan və bir çox işlərdə əhaliyə, xüsusən füqara qisminə müavinətlər göstərən idarə ev komitələri olmalıdır. Ucuzluğa çalışmaq və müsri xəstəliklərə qarşı səhiyyə işlərində lazımi təşəbbüsatlarda bulunmaq və şəhərin müxtəlif məhəllərində füqəraya iaşə məntəqələri açmaq həmin ev komitələrinin borcudur. Ona görə, bu komitələrə lazımdır ki, kömək etmək, ələlxüsus seçki zamanlarında ev komitəsinə, mərkəzi komitəyə müsəlmanlardan öylə adamlar seçmək lazımdır ki, səmimiyyətlə çalışan və vuruşan və müsəlman füqərasına xidmət etməkdən çəkinməyən olsunlar. Həmin fevral ayının 28-ində saat 4-də Bələdiyyə İdarəsində 3-üncü dairə komitəsinə seçki olacaq. İştə bu münasibətlə Bakı Ziyalılar İttifaqı 3-üncü dairədə yaşayan müsəlmanlardan xahiş edir ki, həman gün seçkidə iştirak etsinlər və böylə mühüm işləri etinasız buraxmasınlar və öylə adamlar intixab etmək [seçmək] gərək ki, istər dairə komitəsində və ya istər mərkəzi komitədə bulunub da səmimiyyətlə əhali mənafeyini nəzərdə tutaraq çalışan adamlar olsun. Zira ehtiyac böyük və zaman əhəmiyyətlidir.

*Ayn. Allahverdiyev*

## ƏRZAQ İŞLƏRİ

Ərzaq Nəzarəti Dağıstan Hökumətinin Ərzaq nazirinə yazmışdır ki, nəzarət tərəfindən Tutunanqovdan alınmış olan 10 vaqon buğda Petrovsk anbarlarındadır. Bundan əlavə, 50 vaqon da alınacaqdır. Bu yükləri tezliklə göndərmək lazım olduğuna görə xahiş olunur ki, bizim acentəmiz Levinə icazə verilmiş 90 vaqon dəxi göndərilməsinə icazə verəsiniz.

- Ərzaq Nəzarəti Hökumət İşləri İdarəsinə xəbər verir ki, Dağıstan Hökuməti Baş nazirinin teleqrafı münasibətilə məlum edilir ki, hal-hazırda Yalama mövqifindən [stansiyasından] Dağıstan Hökuməti daxilinə odun aparmaq işi qaydaya salınmışdır və bundan belə aparılmasına da mümaniət [maneçilik] yoxdur. Burası da əlavə olunur ki, həman odunların mühafizəsi üçün Ərazi Nəzarəti tərəfindən tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

- Hacıxanov Ərzaq Nəzarəti ilə əqd etdiyi [bağladığı] müqavilənaməyə görə, ancaq Ərzaq Nəzarəti adına göndərməyə borclu olmuşdur.

- Ərzaq Nəzarəti "Yedinaya" istehlak cəmiyyətinə icazə vermişdir ki, Dağıstan Hökuməti ilə Azərbaycan Hökuməti arasında əqd edilən müqavilənamənin 2-nci maddəsi mövcibincə [maddəsinə əsasən] Dağıstandan Azərbaycana gətiriləcək 90 vaqon taxıl hesabına olaraq 5 vaqon buğda gətirsin.

- Borno Andreyeviç Miller Quba uyezdində odun hazırlamaqda olan müdirin müavini təyin edilib, Yalama stasyonuna göndərilmişdir.

- Aleksandr Timofeyeviç Kuroçkin Ərzaq Nəzarətinin əmri mövcibincə [əmrinə əsasən] fevralın 1-indən etibarən Ərzaq Nəzarətinin xəzinədarı (kassiri) təyin edilmişdir.

## BAKI QUBERNİYASINDA

Şamaxı uyezd naçalniki Bakı qubernatoruna məlum etmişdir ki, fevralın 16-sında gecə Gürcüvan kəndində keşiş Atvum Pirverdiyan, arvadı Yelizaveta Poqosovna, qızları Siranuş və Asanit, keşişin qardaşı Suren və onun arvadı Anniske naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən öldürülmüşlərdir. Bədəfkarları tövqif [həbs] etməkdən ötrü naçalnik tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir.

- Zərdab yüzbaşısı Göyçay uyezd naçalnikinə məlum etmişdir ki, fevralın 1-ində Girli kəndinin əhli Mirzə Mirağa oğlu, Tapdıq Xasməhəmməd oğluna rast gəldikdə tüfəngdən atdığı güllə ilə onu yaralamışdır. Yaralı iki saatdan sonra vəfat etmişdir.

**Qız götürüb qaçmaq**

Xıllı kəndxudası Cavad uyezd naçalnikinə məlum etmişdir ki, Aşağı Surra kəndinin əhli İmamqulu Məhəmmədqulu oğlu öz yoldaşları ilə bərabər Məhəmmədağa Məşhədi Haşim oğlunun qızı Sona xanımı zorla götürüb qaçmışdırlar. Naçalnik tərəfindən ittixaz edilən [görülən] tədbirlər sayəsində qız və bədəfkarlar [cinayətkarlar] tövqif edilmiş [tutulmuş] və istintaqda məlum olmuşdur ki, onlar qızın namusuna təcavüz etməmişlərdir. Bədəfkarların silahı və oğurladıqları 5200 manat pul zəbt olunmuşdur.

## AZƏRBAYCANDA

**Zindəganlığın dəhşəti**

Məlum olduğu üzrə, ingilislər fərarilərin [qaçqınların] işlərini də islah etmək fikrinə də düşmüşlərdir. Müsəlman kəndlərinə göndərilmiş olan ingilis nümayəndəsi Steqlandlitdel ingilis komandanlığına zeyldəki [aşağıdakı] məlumatı verir:

*"Verğus dərəsində mən 18 müsəlman kəndini gəzdim. Bəzi yerlərdə müsəlman fərarilərinin yüz faizi həlak olur. Fərarilərin hamısı yarı geyinmiş və acdırlar. Bunlar karvansaralarda peyinlik içində yaşayırlar. Hifzüsihhə [gigiyena] şəraiti dəhşətlidir. Bütün mahalda iki həkim vardır. Bunlar Gorusda otururlar. Bunların da birisi general Andranikin doktorudur. Dərman qətiyyən yoxdur. Beş arşın uzunu, iki arşın eni bir palçıqdan qayrılmış komada 15 arvad-uşaq gördüm ki, bunun da dörd nəfəri xəstə idi. Mən fərarilərin bir çox vəkilləri ilə görüşüb qonuşdum. Onların öz kəndlərinə getmək üçün təminata ehtiyacları vardır. Hərgah öz yerlərinə getməsələr əkinsiz qalacaqdırlar. Birinci zəruri əkinləri üçün hər cür material lazımdır."*

**Cavanşir uyezdindən**

İbrahim bəy Cavanşir cənablarına teleqraf gəlibdir ki, Cavanşir uyezdindəki Xan Qərvəndində quldurlar Əhməd bəy Məhəmmədbəyovun evi üstünə tökülüb, məzkuru [adı çəkilən şəxsi] öldürüb, mal və dövlətini də qarət edibdirlər. Böylə işlərdən naşi [işlərə görə] o tərəfin əhalisi böyük bir həyəcan və qorxudadır. Əcəba Cavanşir qəza qaimməqamı (uyezd naçalniki) nəyə məşğuldur ki, onun uyezdində quldurlar özlərini asudə görüb bildiklərini etməklə əhalini qorxuya salırlar?

Ümidvarıq ki, Daxiliyyə Nəzarəti böylə təhlükəli hadisələrə nəzər yetirib də bu işin təhqiqatı xüsusunda lazım olan yerlərdən məlumat tələb edib, müqəssirlərin tutulub da cəzalandırılmaları ilə bərabər, bu işdə səhlənkarlıq edən hökumət məmurlarını da təhtiməsuliyyətə [məsuliyyət altına] cəlb edər.

## GÜRCÜSTANDA

**Gürcüstan Parlamanında**

Fevralın 20-də Gürcüstan Parlamanında vaqe olan müzakiratdan sonra hökumətin son hadisat [hadisələr] barəsində verdiyi bəyanatına müqabil Sosial-demokrat fraksiyonu tərəfindən təklif edilən zeyldəki [aşağıdakı] qərar qəbul edilmişdir: Parlaman iqrar edir [təsdiq edir] ki, Axıska mahalında bəylərin və türk mühacirlərinin üsyanı və Soçi mahalında Könüllü qoşunlarının xürucu [çıxışı, hərəkatı] Gürcüstan istiqlalına, onun demokratik təşkilatına bir hücumdur. Parlaman inanır ki, Gürcüstanın və onun demokratik təşkilatının mühafizəsindən ötrü dəvət edilmiş demokratik ordu ilə milli qvardiya indi də cümhuriyyətə, demokratiyaya itaətən vəzifələrini hüsnifada qüsur göstərməzlər. Parlaman gərək daxili və gərək xarici siyasətində hökumətin fəaliyyətini təqdir edir [bəyənir] və ümidvar olur ki, Gürcüstan istiqlaliyyəti üçün əvvəlki kimi ciddi surətdə fəaliyyət göstərəcək və bir də ümid edir ki, hökumət qonşu cümhuriyyətlər və İngiltərə və onun müttəfiqləri ilə sıxı bir ittifaqda bulunacaqdır.

**Diş həkimi S.M.Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Diş həkimi İ.S.Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Arvad diş həkimləri**
**Z.A.Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A.A.Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V.Q.Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A.İ.Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Arvad diş həkimi M.S.İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Arvad diş həkimi**
**Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyəti**

Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarəsi bununla məlum edir ki, cəmiyyətin ümumi iclası mart ayının 23-ündə səhər saat 10-da Cəmiyyətin binasında təyin olunub.

Müzakirə ediləcək məsələlər:

1) Şura idarəsinin məruzəsi.
2) Təftiş komissiyasının məruzəsi.
3) 1918-ci il məhsubatının [hesabatının] müzakirə və təsdiqi.
4) 1919-cu il smetasının müzakirə və təsdiqi.
5) Sabiq sədr Eyvazovun yerinə təzə sədr intixabı [seçilməsi].
6) İdarəyə 1918-ci ilə kimi üzv Səfərəliyev İsa bəy və növbətlə çıxmış Ter-Stepanyanın yerinə təzə üzvlər intixabı.
7) Növbətlə çıxmış şura üzvü Əhmədovun yerinə təzə üzv intixabı.
8) Təftiş komissiyasına 3 üzv və 3 namizəd seçilməsi.
9) Mirzəxanovun külfətinə "pensiya" vermək barəsində.
10) İclasda müzakirə edilə biləcək məsələlər barəsində.

*İdarə*
*46*

**Elan**

Ticarət kantorumuzda putla və boçka ilə neft cövhəri [kerosin] satılır. Bundan əlavə, orada satılır hər qisim irinarın duz, ot, saman, arpa, buğda, kömür və qeyriləri. Ünvan: Armyanski və Sisyanovski küçələrin küncündə, 25 nömrəli evdə.

*Qənbər Sadiqzadə*
*5700*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"Kujim": Qəzetdə "Kumin" getmişdir. Soyadının yanında mötərizə içində, mənsub olduğu partiya yaxud fraksiyanın adı yazılmalı idi, fəqət qəzetdə boşluq buraxılmışdır. Kujim Bakı Ukraynalıları Radası tərəfindən seçilmiş və Parlamentdə Milli azlıqlar fraksiyasının üzvü olmuşdur.

***Türkcə dəftərdarlıq***

"Be mən çe?": (farsca) "Mənə nə?"

"Rum tayfası": Qədim romalılar nəzərdə tutulur.

***Cənub-Qərbi Zaqafqaziya Hökuməti***

"1335 kanuni-sani 18": burada tarix rumi təqvimlə verilmişdir; miladi təqvimlə 18 yanvar 1919-cu ilə uyğundur.

***Mətbuat***

"Biləks, gedirlər ki…": qəzetdə "gedirlər" yerinə "görürlər" getmişdir.

***Bakı xəbərləri***

"Hərarətli şeirlər": Məhəmməd Hadinin "Hərarətli şeir və yaxud qızdırmalı halımda saçmalarım" adlı şeiri nəzərdə tutulur.

***Azərbaycanda***

"Birinci zəruri əkinləri üçün…": qəzetdə "əkinləri" getmişdir; "əginləri" [əyinləri] olmaq ehtimalı da var.

***Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyəti***

"1919-cu il smetasının…": qəzetdə "1918-ci il smetasının" getmişdir.

   

# Gənclik

   

**● "Gənclər paytaxtı - 2024"**

# Böyük ehtiramın ifadəsi

**Bu günlərdə Prezident İlham Əliyev "Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.**




Müstəqil Azərbaycan hazırda özünün yeni inkişaf dövrünü yaşayır. Zəfər qazanmış ölkəmizin bütün bölgələrində inkişaf göz oxşayır. Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm yenidənqurma işləri ölkəmizin iqtisadi qüdrətinin nümunəsidir.

İşğaldan azad olunan digər ərazilərimiz kimi, Şuşa da özünün tarixi bir dövrünü yaşayır. Dünyanın ən gözəl məkanlarından birinə çevrilən gözəl məkanımızda irimiqyaslı layihələr icra olunur.

Prezidentin sərəncamına əsasən, Nazirlər Kabinetinə Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirmək və bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Xatırladaq ki, Şuşa şəhəri 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı seçilmişdi. Əsrarəngiz, füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, zəngin irsi bu şəhərin türk dünyasının mədəniyyət paytaxtı elan olunmasında əsas meyar kimi nəzərə alınmışdır. Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. Ötən il ərzində Şuşada türk dünyasının mədəni tədbirləri keçirildi və bu qəbildən olan tədbirlər hələ də davam etməkdədir. Şuşanın mədəni həyatının canlanmasına dəstək məqsədilə musiqi festivalları, poeziya günləri, çoxsaylı yerli və beynəlxalq mədəni tədbirlər keçirilib.

Şuşa şəhəri nəinki Azərbaycanın, türk dünyasının, eləcə də bütün dünyanın mədəniyyət paytaxtı elan olunmağa layiq şəhərdir. Zəngin və şanlı tarixi keçmişə malik olan Şuşa ətrafındakı yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.

Türk dünyasının mədəniyyət paytaxtından estafet islam dünyasına ötürüldü. 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı elan edildi. Bu qərar islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və islam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan tarixi keçmişi, dini, mədəni və mənəvi dəyərləri ilə dünyaya öz töhfəsini verir. Bununla belə, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızda islam dininə aid tarixi və mədəni irs, ibadət ocaqları dağıdılıb və təhqir olunub. Şuşaya gələn hər bir insan bu vəziyyəti görür. Məmnunluq doğuran isə odur ki, qısa bir zamanda Şuşa türk, islam dünyasının mədəniyyət paytaxtına çevrilib. Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Nə xoş ki, bu gün Azərbaycanın, türk və islam dünyasının mədəniyyət beşiyi olan qədim Şuşa yeni bir dövrünü yaşayır.

Hələ XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Bu qala şəhərinin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" adlandırmışlar. İşğaldan azad olunmuş Şuşada qısa zamanda həyata keçirilən yenidənqurma işləri nəticəsində şəhər dünyanın ən gözəl məkanları siyahısında öz layiqli yerini tutacağına şübhə yoxdur. Heydər Əliyev Fondu tərəfindən bu şəhərdə geniş bərpa işləri həyata keçirilir. Bunların sırasına Mehmandarovların malikanə kompleksinin təmir və bərpası, dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması, Yuxarı Gövhər ağa məscidinin yenidənqurma və bərpa işləri, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. daxildir. Şuşa yaşayır və yeni dövrü onun işıqlı gələcəyinin lap yaxında olduğundan xəbər verir.

Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu və bu yol onun beynəlxalq aləmdə tanınması üçün geniş imkanlar açdı. Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstlərinin Şuşada yenidən əvvəlki yerlərinə qoyulması, mədəniyyət şəhərində vaxtilə keçirilən "Xarıbülbül" festivalının bərpa olunması bu məkanın sədasını dünya ölkələrinə yaydı. Dünyanın gözü şəhərin gözəlliyinə yönəldi.

"Şuşa ili"ndə Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları Şuşada olaraq tarixi zəfərimizin təntənəsinin şahidi olmaqla yanaşı, Azərbaycanla bağlarını daha da möhkəmləndirmək, ölkəmizi uğurla təmsil etmək, yeni dostlar qazanmaq imkanı əldə etdilər. Şuşada Azərbaycan və Özbəkistan şairlərinin iştirakı ilə "Məclisi Fəramuşan" şairlər məclisi keçirildi. Hər iki ölkənin mədəniyyət, ədəbiyyat nümayəndələrinin tarixi Şuşa şəhərində bir araya gəlməsi, dünyaya böyük mədəniyyətimiz, sənətimiz, qardaşlığımız və birliyimizi göstərmək və ədəbiyyat sahəsində gözəl əməkdaşlıq platformasını ortaya qoymaq təqdirəlayiq hal kimi dəyərləndirildi. Şuşa şəhərinə qonaq gələnlər Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin Məqbərəsi, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Qazançı kilsəsi, Şuşa qalası və Cıdır düzü, erməni separatçıları tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri ilə tanış olaraq yararsız hala salınan məkanlar haqqında təsəvvürlərini daha da genişləndirmiş oldular.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**● Ölməzliyə qovuşanlar**

# "Əgər torpaq uğrunda şəhid olsam..."

**44 günlük Vətən müharibəsinin qəhrəmanlarından biri də Həsənağa Bəhruz oğlu Şirvanidir. Həsənağa 23 aprel 2002-ci ildə Xəzər rayonunun Binə qəsəbəsində dünyaya göz açıb.**



O, 2020-ci ilin aprel ayında ordu sıralarına çağrılıb. Böyük həvəslə hərbi xidmətə yollanan Həsənağa silahlardan istifadənin sirlərinə dərindən yiyələnib. Hazırlıq dövrü başa çatdıqdan sonra xidmətini Murovdağ istiqamətində davam etdirib. Əsgər Həsənağa Şirvani 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan Vətən müharibəsinə ilk atılanlardan biri olub. Komandirin döyüş əmrlərini cəsarətlə yerinə yetirib. Təəssüf ki, onun döyüş yolu qısa olub. Sentyabrın 30-da - Vətən müharibəsinin ilk günlərində Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə döyüş əməliyyatlarında göstərdiyi igidliyə görə əsgər H.Şirvani ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib. Oktyabr ayının 1-də qoynunda dünyaya göz açdığı Binə qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Anası Şəfəq Rəfiyeva övladını xatırlayıb duyğulandı. Dedi ki, Həsənağa həmişə nikbin ovqatda olardı. Təəssüf ki, onu çox tez itirdik. Ana üçün övladını bir-birindən ayırmaq, seçmək çətindir. Lakin Həsənağa fərqli, qayğıkeş övlad idi. Kiçik yaşlarından hərbçi olmağa həvəs göstərirdi. Əgər döyüşlərdə şəhid olmasaydı, ordu sıralarında qalıb xidmətini davam etdirəcəkdi. Hərbi xidmətə də çox sevincək getdi. Müharibə başlayan gün Həsənağa zəng vurub bizimlə danışdı, vəziyyətimizi soruşdu. Dedi ki, ana, özünüzdən muğayat olun. Mən torpaqlarımızın azadlığı uğrunda vuruşuram. Oğullar Vətəni qorumaq üçün doğulur. Mən də Vətənin bir övladı kimi yurdumuzun azadlığı naminə çarpışıram. Əgər torpaq uğrunda şəhid olsam, haqqını halal edərsən.

O ərəfədə işdən çıxıb evə gəlirdim. Telefonum zəng çaldı. Qardaşım idi. O ağlaya-ağlaya dedi ki, bacı, bilmirəm sənə necə deyim, dərdimiz böyükdür, Həsənağa döyüşlərdə şəhid olub. Eşitdiyim xəbərdən sarsıldım, ürəyim ayağımın altına düşdü. İndi heç həmin anı olduğu kimi xatırlaya da bilmirəm. Amma bir təsəllim var. Şəhidlik ali məqamdır, uca zirvədir. Oğlumla fəxr edirəm. Fəxr edirəm ki, Həsənağa bu zirvəyə ucalıb.

Həsənağanın böyük qardaşı Kamran Şirvani də könüllü olaraq İkinci Qarabağ müharibəsinə gedib. Qardaşı şəhid olandan sonra onu ordu sıralarından tərxis ediblər. Kamran dedi ki, Həsənağanın şəhid olduğunu eşidəndə dünya başıma fırlandı. Müharibə başlayanda qardaşım evə zəng vurub iştirakçısı olduğu uğurlu döyüşlərdən həvəslə danışırdı. Deyirdi ki, addım-addım erməni işğalçılarını geri sıxışdırırıq.

Şəhidin babası Faiq Rəfiyev Həsənağalı günləri xatırladı:

- Həsənağa ünsiyyətcil idi. Böyüklərlə həmsöhbət olmağı xoşlayardı. Hərbi xidmətə gedən gün üz-gözündən sevinc yağırdı. Zəng vuranda həvəslə danışardı. Komandirləri də onun xidmətindən razılıq edirdilər. Deyirdim ki, Həsən, Murov çox soyuq yerdir, əynini qalın elə. Cavab verirdi ki, narahat olmayın, yerimiz də, paltarımız da istidir. Həsənağanın Vətən müharibəsində cəsarətlə vuruşması, medallara layiq görülməsi məni xeyli qürurlandırdı.

Əsgər yoldaşı Kərim Şükürov Həsənağanın şəhid olduğu anı xatırlayaraq dedi ki, döyüşün qızğın vaxtı idi. Düşmən mövqelərini vurmaqda davam edirdik. Artilleriya qurğularından atdığımız mərmilər hədəfə dəqiq çatırdı. Qəflətən batareya komandiri dedi ki, ermənilər pilotsuz aparatla yerimizi çəkdi. Təcili sığınacağa girin. Lüləyə qoyduğumuz mərmini hədəfə atıb sığınacağa döndük. Bu vaxt Həsənağa ilə mənim arama mərmi düşdü. Mən ağır yaralandım. Ətrafa ha boylansam da, Həsənağanı görmədim. Onun ölüm xəbəri məni çox kədərləndirdi. Həsənağa qorxmaz, cəsur bir əsgər idi.

Bacısı Zəhra Şirvani dedi ki, Həsənağanın meyitini həyətə gətirəndə qışqırıb haray salmadım. Sakit addımlarla üçrəngli bayrağa bürünmüş tabutuna yaxınlaşıb, başımı ona söykəyib göz yaşları axıtdım. İndi qardaşımı hər yerdə hiss edirəm. Sanki o mənim yanımdadır, arxamdadır. Mənim üçün Həsənağa ölməyib. O, əbədi olaraq ürəklərə, qəlblərə köçüb.

Şəhid bacısı sözündə haqlı idi. Şəhidlər ölmürlər, çünki onlar müqəddəs zirvədə əbədilik qazanırlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

**● İstedadlar**

# Muğam ifaçılığı sahəsində sənət estafeti etibarlı əllərdədir

**Azərbaycan tarixən fundamental sənətlər və sənətkarlar vətəni olub. Şanlı keçmişimizdən müasir dövrə qədər ən müxtəlif sınaqlardan keçərək yaşam haqqı qazanan maddi və qeyri-maddi mədəni irsimiz millətin varlığı, kimliyidir.**



Xalqımızın milli-mənəvi dəyərləri sırasında muğamın xüsusi yeri var. Əsrlərin dərin qatlarından süzülüb gələn bu musiqi janrının spesifik rəngarəng çalarlarla zənginləşməsində, yaşadılmasında, sevilməsində korifey sənətkarlarımızın mühüm rolu danılmazdır. Xan əmi, Seyid Şuşinski, Cabbar Qaryağdı oğlu, Rübabə Muradova, Əlibaba Məmmədov və digər ustadların daha önəmli xidmətləri böyük mənada məktəb yaratmalarıdır, öz tələbələrini, davamçılarını yetişdirməklə klassik ənənələrin qırılmasına imkan verməmələridir. Məhz ümummilli təəssübkeşliyimiz, eyni zamanda Heydər Əliyev Fondu və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fədakar qayğısı sayəsində Azərbaycan muğamı 2008-ci ildə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Muğamı böyük istedad, məsuliyyət və ləyaqətlə gələcək nəsillərə çatdırmağa çalışanların əsas kontingenti bu günün sənətsevərləri - ustad xanəndələr, instrumental ifaçılar, sənətşünaslar, gənc ifaçılar, musiqi məktəblərinin şagirdləri, bir sözlə, bu musiqi janrı həm də xalqın özünütəsdiqi sayan cəfakeş sənət fədailəridir.

Belə müqəddəs missiya daşıyıcılığına həqiqi mənəvi haqqı çatanlardan biri - Bayramov Hüseyn Habil oğlu 2007-ci il oktyabrın 15-də Bakı şəhərində doğulub. Səbail rayonu Məmməd Rahim adına 7 saylı tam orta məktəbin XI sinif şagirdidir. Hələ kiçik yaşlarından çalışqanlığı, idmana həvəsi, hərtərəfli bilikləri ilə yanaşı, fitri musiqi istedadına malik olması, yaxşı səsi valideynlərinin diqqətindən yayınmayıb. Atası onu Q.Şaroyev adına 35 saylı 11 illik musiqi məktəbinə aparıb. Bəyənib qəbul ediblər. Yorulmaq bilmədən ucsuz-bucaqsız musiqi dəryasına baş vuran, sənətin incəliklərini öyrənən balaca Hüseyn burada xanəndəlik ixtisası üzrə təhsil alıb, ustad dərslərinə qatılıb. Hələ neçə illər öncə yaşının az olmasına baxmayaraq, bütün zərb muğamları, 9 dəsgah muğamı, çoxlu sayda xalq mahnılarını mükəmməl şəkildə öyrənib.

Dəfələrlə müxtəlif muğam müsabiqələrində, musiqi yarışmalarında uğurlar qazanıb, üstün yerlər tutub. Beynəlxalq Olimpiya Gənclər Festivalında II yerə sahiblənib. Onu başqa ifaçılardan fərqləndirən cəhət sənətdə təkrarçılıqdan qaçması, tapdaq yolla getməməsi, bu gün üzdə olan, əksəriyyətin bildiyi muğamlarla yanaşı, itib-batmış, unudulmuş nümunələri də tapıb repertuarına daxil etməsidir. Bu isə xeyli çətin və zəhmətli işdir. Məsələn, 200-300 il öncə mövcud olan "Nəva", "Digah" muğamlarını müəllimləri Elxan Müzəffərov və Qəzənfər Abbasovla birgə bərpa edərək sənət ömrü veriblər. Əhməd Bakıxanov tərəfindən aşkarlanıb sözsüz musiqisi nota köçürülmüş "Xocəstə" muğamını, indiyədək yalnız 3 şöbəsinə müraciət olunan "Hunayun"u tam dəsgah şəklində müxtəlif qəzəllərlə oxuyur.

Hüseyn Bayramovun zəhmətkeşliyi, öz üzərində ciddi işləməsindən əlavə, fitrətən, gendəngəlmə istedadının, səsinin varlığı da təsadüfi deyil. Onun babası mərhum Vəli kişi doğma Qarabağımızdan, Laçın rayonundandır. Özünün də ən böyük arzusu düşmən tapdağından azad edildikdən sonra quruculuq işləri gedən ata-baba torpaqlarında - Laçında, Şuşada "Qarabağ şikəstəsi" oxumaqdır. Həm də artıq musiqi məktəbini bitirib, ümumtəhsil məktəbinin isə sonuncu sinif şagirdidir. Təhsilini Musiqi Akademiyasında davam etdirərək daha da təkmilləşdirmək istəyinə nail olmaq üçün böyük səylə öz üzərində çalışmaqdadır.

***Qurban MƏMMƏDOV***

# 36 azərbaycanlı tələbə İsveç İnstitutunun təqaüdünü qazanıb

**Fəaliyyət sahəsinə dünyada İsveç haqqında məlumatların yayılması, mədəniyyət, təhsil, elm sahələrində beynəlxalq əlaqələrin təşkili daxil olan İsveç İnstitutu hər il əcnəbi tələbələrin İsveç universitetlərində magistr təhsili alması üçün təqaüd ayırır.**

2024-2025-ci tədris ilində Afrika, Asiya, Şərqi Avropa və Latın Amerikasının 35 ölkəsindən çox sayda gənc təqaüd alıb. Bu il təqaüdçülər üçün ayrılan büdcənin məbləği 16 milyon dollardır. Təqaüd alanlar arasında İsveçin aparıcı universitetlərində təhsil alacaq Azərbaycandan olan 36 tələbə də yer alır.

İsveç İnstitutunun qlobal peşəkarlar üçün təqaüdü (Swedish Institute Scholarships for Global Professionals) öz ölkələrində və regionlarında demokratik, bərabərhüquqlu və dayanıqlı cəmiyyət yaratmaq üzərində işləmək istəyən gələcək dünya liderlərini dəstəkləmək məqsədi daşıyır. Təqaüdçülər akademik nailiyyətlərinə, peşə və liderlik təcrübələrinə, həmçinin davamlı inkişafa töhfə vermək potensialına görə seçilir.

Ən populyar təhsil sahələri sosial elmlər, mühəndislik, texnologiya və tibb elmləridir.

"İsveç dünyanın qalan hissəsi ilə ticarət və əməkdaşlığa əsaslanan, kiçik və ixracatdan asılı olan ölkədir. Təqaüd proqramımız İsveç və dünya ölkələri arasındakı əlaqələri gücləndirmək üçün mühüm vasitədir. İsveçdə təhsil almaqla bu istedadlar əlavə bacarıqlar, dünya miqyasında davamlılığı təşviq edən daha dərin anlayışlar əldə edir və əlbəttə ki, İsveç haqqında biliklərini genişləndirirlər. Yeni təqaüdçülərlə səmərəli əlaqələr quracağımıza ümid edirik", - deyə İsveç İnstitutunun baş direktoru Madlen Şöstedt bildirib.



# BMU-da müsabiqəyə start verildi

**Bakı Mühəndislik Universitetinin (BMU) təşkilatçılığı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, STEAM Azərbaycan, həmçinin "Yeni Fikir" MMC-nin tərəfdaşlığı ilə "My technology" adlı layihəyə start verilir.**

Universitetdən bildirilib ki, ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri və müəllimlərinin iştirakı ilə keçiriləcək "My technology" layihəsi sahibkar düşüncəyə malik insan kapitalının inkişafını təşviq edən və dəstəkləyən missiya daşıyır.




Layihə müəllim və şagirdlərin yerli təsərrüfat ixtisaslaşması və həyat tərzi, eləcə də qlobal miqyasda dünyagörüşü potensiallarına əsaslanan innovativ təşəbbüslərini inkişaf etdirərək, onları innovasiya ekosisteminə qoşulmağa həvəsləndirir.

Bu ilin aprel-iyun aylarını əhatə edəcək layihə çərçivəsində keçiriləcək müsabiqənin qalibləri qiymətli hədiyyələr və sertifikatlarla mükafatlandırılacaq. Müsabiqənin icraçı tərəfdaşı "Yeni Fikir" MMC isə müəllim və şagirdlərin fərdi inkişafı, eləcə də peşəkar portfoliosu üçün dəyərli imkanlar təqdim edəcək.

Layihə bu il 5 regionda (Abşeron-Xızı, Gəncə-Qazax, Dağlıq Şirvan, Quba Xaçmaz və Naxçıvan) tətbiq olunacaq.

Yekunda hər bir regiondan müraciət edən perspektivli komandaların iştirakı ilə BMU-da "hakaton" keçiriləcək. "Hakaton" nəticələrinə əsasən, qaliblər müəyyən edilərək mükafatlandırılacaqlar.

# "Şahin" hərbi-idman oyununun qalibi müəyyənləşib

**"Şahin" hərbi-idman oyunu üzrə respublika birinciliyinin Tərtər şəhərində keçirilən zona mərhələsinin qalibi məlum olub.**



Tərtər Olimpiya İdman Kompleksində təşkil edilən yarışda Tərtər, Füzuli, Ağcabədi, Ağdam, Xocavənd, Bərdə, Şuşa rayonlarının ümumtəhsil məktəblərinin şagirdlərindən ibarət komandalar mübarizə aparıb. Qarabağ Regional Gənclər və İdman İdarəsindən bildirilib ki, gənclərin vətənpərvərlik tərbiyəsində böyük rolu olan "Şahin" hərbi-idman oyununun keçirilməsində əsas məqsəd məktəblilərin vətənpərvərlik, milli qürur və milli ləyaqət ruhunda tərbiyə edilməsi, onların mənəvi-psixoloji və hərbi-fiziki hazırlığının təmin olunması, şanlı zəfər tarixinin təbliğidir.

Oyun ərzində əsasnaməyə uyğun olaraq iştirakçılar sıra hazırlığı, intellektual müsabiqə, darağa patronların doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf olunması, mülki müdafiə hazırlığı və çadırın qurulması mərhələlərində bacarıqlarını nümayiş etdiriblər.

Qiymətləndirməyə əsasən, ən yüksək bal toplayan Ağdam, Şuşa və Bərdə rayon komandaları ardıcıl olaraq ilk üç yerə layiq görülərək mükafatlandırılıblar. Zona yarışında birinci yeri tutan Ağdam rayonunun komandası, eyni zamanda hərbi-idman oyununun Gənclər Paytaxtı Lənkəran şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanıb.

# Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənovun büstünün açılışı olub

**Aprelin 26-da Xətai rayonunda yerləşən 48 saylı tam orta məktəbdə Vətən Müharibəsi Qəhrəmanı, şəhid Ceyhun Həsənovun büstünün açılış mərasimi keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Dövlət himni səsləndirilib, şəhidlərin ruhu birdəqiqəlik sükutla anılıb.

Açılış mərasimində çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev bildirib ki, Azərbaycan xalqı heç zaman şəhidlərini unutmur. Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənovun 44 günlük müharibədəki şücaətlərindən danışan icra başçısı deyib: "Dövlətimiz tərəfindən şəhidlərimizə, qazilərimizə və müharibə veteranlarına hər zaman diqqət və qayğı göstərilib".

Yeni Azərbaycan Partiyası (YAP) Xətai Rayon Təşkilatının sədri Vüqar Rəhimzadə qeyd edib ki, şəhidlərin və qəhrəmanların adları Azərbaycan tarixində əbədi həkk olunub, Azərbaycan vətəndaşlarının qəlbində onlar üçün əbədi olaraq abidə ucaldılıb: "48 saylı tam orta məktəbin məzunları olan şagirdlərin sənədlərində Ceyhun Həsənovun adı olacaq. Qəhrəmanlarımızın adlarını əbədiləşdirmək Prezident, Müzəffər Ali Baş Komandanın həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Onların adlarını gələcək nəsillər də bilməlidirlər".

Rayon Ağsaqqallar Şurasının sədri, şəhid mayor Rüfət Əsgərovun atası Mürvət Əsgərov, Heydər Əliyev adına Hərbi İnstitutun rektoru vəzifəsini icra edən Nizami Mövlanov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xətai Rayon İdarəsinin rəisi Yalçın Sadıqlı şəhidlərimizin dövlətimiz və Ali Baş Komandan tərəfindən heç zaman unudulmadığını, Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimiz daim xalqımızın qəlbində yaşayacaqlarını vurğulayıblar. Çıxış edənlər Ceyhun Həsənovu nəinki hərbi təhsil aldığı illərdə, eləcə də döyüşdə özünü bacarıqlı hərbçi kimi göstərməsindən də danışıblar.

Sonda şəhidin atası Aydın Həsənov çıxış edərək Ceyhun Həsənovun büstünün açılışında iştirak edən, zəhməti olan insanlara minnətdarlığını ifadə edib.

Qeyd edək ki, şəhid Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunda anadan olub. 1992-2001-ci illərdə Xətai rayonunda Ə.Abbasov adına 257 nömrəli tam orta məktəbdə, 2001-2003-cü illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2004-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Motoatıcı" ixtisası üzrə ali hərbi biliklərə yiyələnib. O, 2009-2019-cu illərdə Naxçıvanda yerləşən "N" saylı hərbi hissədə, 2019-cu ildən isə Beyləqan rayonundakı "N" saylı hərbi hissədə xidmət edib.

Kapitan Ceyhun Həsənov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə igidliklə vuruşub, şəhid olub. İkinci Şəhidlər xiyabanda dəfn edilib.

Prezident İlham Əliyevin 2020-ci il 9 dekabr tarixli Sərəncamına əsasən Ceyhun Həsənov ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Şəhid "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə də təltif olunub.

Bakı şəhərinin Xətai rayonunda yerləşən 48 nömrəli tam orta məktəbə Vətən Müharibəsi Qəhrəmanı, şəhid Ceyhun Həsənovun adı verilib.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Dalğa-2024" birgə taktiki təlimi başa çatıb

Hərbi Dəniz Qüvvələri (HDQ) və Fövqəladə Hallar Nazirliyinin (FHN) şəxsi heyət və vasitələrinin cəlb edilməsi ilə Xəzər dənizinin ərazi sularında keçirilən "Dalğa-2024" birgə taktiki təlimi müvəffəqiyyətlə başa çatıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təlimdə dənizdə şərti platformada baş vermiş qəzanın aradan qaldırılması məqsədilə gəmilər dislokasiya məntəqəsini tərk edib, birgə komanda məntəqəsində vertolyot, gəmi və katerlərlə tapşırıq üzrə uzlaşma aparılıb, qəza rayonuna lazımi köməkliyin göstərilməsi üzrə tapşırıqlar yerinə yetirilib. Həmçinin baş vermiş yanğının lokallaşdırılması, axtarış-xilasetmə əməliyyatlarının və platformanın sualtı hissəsində dalğıc baxışının keçirilməsi, qəza növbətçiliyinin təşkili, eləcə də digər fəaliyyətlər icra olunub.

Birgə taktiki təlimdə HDQ və FHN gəmi və şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

# Ölkə ərazisində sabit hava şəraiti davam edəcək

**Azərbaycanda aprelin 27-nə gözlənilən hava proqnozu açıqlanıb.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18°, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 26-31° isti olacağı gözlənilir.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 17-22° isti olacağı ehtimalı var.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 15-20° isti, bəzi yerlərdə 23-25° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 28-33° isti olacağı proqnozlaşdırılır.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə qısamüddətli az yağıntılı olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 24-29° isti, dağlarda gecə 8-13°, gündüz 20-25° isti olacağı bildirilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17° isti, gündüz 27-32° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-15°, gündüz 26-31° isti, dağlarda gecə 8-13°, gündüz 20-25° isti olacağı gözlənilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının əməkdaşları Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova anası
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran Mübariz Qurbanlıya bacısı
**ZƏRƏNGİZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Mehdi Dadaşova anası
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Oruc Zalov Azərbaycan Respublikasının insan hüquqları üzrə sabiq müvəkkili (ombudsman)
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Oruc Zalov Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı
**VAQİF ƏMİRASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Oruc Zalov Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı
**ZƏRƏNGİZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının insan hüquqları üzrə sabiq müvəkkili (ombudsman)
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova anası
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri İnsan hüquqları üzrə sabiq müvəkkil (ombudsman), professor
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı
**ZƏRƏNGİZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı
**VAQİF ƏMİRASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı
**VAQİF ƏMİRASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikasının sabiq ombudsmanı, ictimai və dövlət xadimi, professor
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Birinci vitse-prezidentin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova anası, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, ictimai xadim, professor
**ELMİRA SULEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Mübariz Qurbanlıya bacısı
**ZƏRƏNGİZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova ailəsi ilə birlikdə, akademik Əhliman Əmiraslanova qardaşı
**VAQİF ƏMİRASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və ictimai təşkilatları Azərbaycan Respublikasının ilk insan hüquqları üzrə müvəkkili (ombudsman)
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı
**VAQİF ƏMİRASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Mehdi Dadaşova anası
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova anası
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi akademik Yaqub Mahmudova həyat yoldaşı
**ALMAS SÜLEYMAN QIZI MAHMUDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı
**ZƏRƏNGİZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi insan hüquqları üzrə sabiq müvəkkil (ombudsman), professor
**ELMİRA SÜLEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və Xidmətin kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədova qardaşı
**KAMİL MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və Xidmətin kollektivi Azərbaycan Respublikasının sabiq insan hüquqları üzrə müvəkkili (ombudsman)
**ELMİRA SULEYMANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı
**VAQİF ƏMİRASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4248
Sifariş 897

Qiyməti 60 qəpik